

ELM və HƏYAT

Azərbaycan Milli Elmlər Akademiyası

Elmi-populyar jurnal

ISSN: 2710-0944 №3 (493), 2026

Jurnal 1961-ci ildən nəşr olunur

REDAKSİYA HEYƏTİ

BAŞ REDAKTOR

İsa Həbibbəyli - AMEA-nın prezidenti, akademik

BAŞ REDAKTORUN MÜAVİNİ

Ağahüseyn Şükürov - AMEA Rəyasət Heyəti aparatının İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent

ÜZVLƏR

Anar Rzayev - Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı
Dilqəm Tağıyev - AMEA-nın vitse-prezidenti, akademik
İbrahim Quliyev - AMEA-nın vitse-prezidenti, akademik
Ömər Eldarov - Akademik
Rasim Əliquliyev - AMEA-nın vitse-prezidenti, akademik
İradə Hüseynova - AMEA-nın vitse-prezidenti, akademik
Nərgiz Paşayeva - AMEA-nın vitse-prezidenti, akademik
Tofiq Nağıyev - AMEA-nın vitse-prezidenti, akademik
Gövhər Baxşəliyeva - AMEA-nın vitse-prezidenti v.i.e., akademik
Arif Həşimov - AMEA-nın akademik-katibi, akademik
Cəmil Əliyev - AMEA Rəyasət Heyətinin üzvü, akademik
Əhliman Əmiraslanov - Milli Məclisin Səhiyyə Komitəsinin sədri, akademik
İsmayıl Hacıyev - AMEA-nın Naxçıvan Bölməsinin sədri, akademik
Fuad Əliyev - AMEA-nın Gəncə Bölməsinin sədri, akademik
Fərhad Xəlilov - Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı
Firəngiz Əlizadə - Azərbaycan Bəstəkarlar İttifaqının sədri
Oktay Qasımov - AMEA-nın müxbir üzvü
Elbay Qasımzadə - Azərbaycan Memarlar İttifaqının sədri

BEYNƏLXALQ HEYƏT

Se Fuçjan - Çin İctimai Elmlər Akademiyasının prezidenti, akademik
Müzəffər Şəkər - Türkiyə Elmlər Akademiyasının prezidenti, professor, doktor
Dərya Örs - Türkiyə, Atatürk Mədəniyyət, Dil və Tarix Yüksək Qurumunun rəhbəri, professor
Roin Metreveli - Gürcüstan Milli Elmlər Akademiyasının prezidenti, akademik
Şavkat Ayupov - Özbəkistan Milli Elmlər Akademiyasının prezidenti, akademik
Axılbek Kurişbayev - Qazaxıstan Milli Elmlər Akademiyasının prezidenti, akademik
Nikolay Sokolovski - Polşa Elmlər Akademiyasının Ədəbi Tədqiqatlar İnstitutunun professoru
Nikol Vasilyev - Bolqarıstan Elmlər Akademiyası Arxeologiya İnstitutunun şöbə müdiri, akademik
Stefani Sini - İtaliya (professor)

MƏSUL KATİB

Sərvan Kərimov - AMEA Rəyasət Heyəti aparatının İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsinin Dövri nəşrlər sektorunun baş mütəxəssisi



İsa HƏBİBBƏYLİ
AMEA-nın prezidenti, akademik

Dünya elminin, türk dünyasının və Azərbaycanın Əziz Səncəri

Beynəlxalq Nobel mükafatı laureatı adını almaq bu nüfuzlu mükafata layiq görülən görkəmli alimlə bərabər, onun ölkəsinə və xalqına da şöhrət qazandırır. Bu mənada Amerikanın Şimali Karolina Universitetində çalışan türk əsilli Əziz Səncərin 2015-ci ildə Nobel mükafatını alması ilk növbədə qardaş Türkiyə Cümhuriyyətinə şərəf və şan qazandırmışdır. Əziz Səncər özü də Nobel nitqində aldığı Nobel mükafatının onun doğma vətəni olan Türkiyəyə aid olduğunu bəyan edərək demişdir: "Məni mükafatlara aparan Atatürk və Türkiyə Cümhuriyyətinin elmdəki inqilabıdır. Beləliklə, bu mükafatın sahibi Türkiyə Cümhuriyyətini təmsil edən Atatürkün Anıtqəbir muzeyidir".

Məlum olduğu kimi, Əziz Səncər Nobel mükafatı medalını və sertifikatını Türkiyə Cümhuriyyətinin paytaxtı Ankara şəhərindəki Mustafa Kamala Atatürk Anıtqəbir Kompleksindəki "Atatürk və Qurtuluş savaşı" muzeyinə təqdim etmişdir. Anıtqəbri ziyarət edən hər bir türk vətəndaşı həm də böyük iftixar hissi ilə Əziz Səncərin "Atatürk və Qurtuluş savaşı" muzeyində nümayiş etdirilən Nobel vəsiqələri ilə də tanış olur. Bu, Əziz Səncərin türk xalqı içərisindən yeni Nobel mükafatçılarının yetişməsi arzusuna xidmət edən düşündürücü və əhəmiyyətli addımının əks-sədasıdır.

Əziz Səncərin kimya elmi üzrə Nobel mükafatına layiq görülməsi türk dünyası üçün də əlamətdar hadisədir. Əziz Səncərin Nobel mükafatı bütün türk xalqlarının ortaq mükafatı hesab oluna bilər. Təəssüf ki, hələ ki, türk dünyasında Nobel mükafatına layiq görülən elm xadimləri çox deyildir. Və həm də Əziz Səncər Nobel mükafatı laureatı kimi mənsub olduğu Türkiyədə və Azərbaycanda, ümumən türk dünyasında elmin inkişaf etdirilməsini türk dövlətlərinin inkişafının əsas hərəkətverici qüvvəsi hesab edir. Təsadüfi deyildir ki, Nobel mükafatı laureatı, professor Əziz Səncər 3 iyun 2024-cü il tarixdə Azərbaycan Milli Elmlər Akademiyasının Böyük Akt Zalında res-



publika ictimaiyyəti qarşısında "Türk dünyasının elm siyasəti: reallıqlar və çağırışlar" mövzusunda etdiyi elmi məruzəsini türk xalqlarının elmi əlaqələrinin daha da genişləndirilməsi və bir çox hallarda vahid elmi platformadan çıxış edərək böyük elmi nailiyyətlərə nail olmaqla yeni mərhələ yaratmağın mümkünlüyünə həsr etmişdir. Görkəmli elm xadiminin fikrincə, Çin Xalq Respublikasının elmdə etdiyi inqilabi elmi nailiyyətlər bu ölkənin dünyanın lider dövlətlərindən birinə çevrilməsində xüsusi rol oynamışdır. Professor Əziz Səncərə görə ümumi ərazisi təxminən Çin Xalq Respublikasına yaxın olan və maddi sərvətləri o ölkədən çox olan türk coğrafiyasında elmi inteqrasiyanı gücləndirmək və genişləndirməklə, "ortaq elmi layihələrin birgə icrası ilə və əldə olunan elmi nəticələri beynəlxalq elmi bazalara daxil olan nüfuzlu jurnallarında çap etdirib yaymaqla" türk dünyasının dünya elmində mühüm yer tutması və ümumi elm-texnoloji inkişafa nail olması mümkündür. Türk dünyasında elmi inkişafının Əziz Səncər konsepsiyası türk xalqları elminin və ümumtürk coğrafiyasında elmlə inkişafın mühüm strateji əhəmiyyətə malik olan modelidir.

Nobel mükafatı laureatı, professor Əziz Səncər özü də türk dünyasında elmin inkişaf etdirilməsi proseslərində yaxından iştirak edir. O, Türkiyədə, Azərbaycanda və ümumtürk coğrafiyasının digər ölkələrindəki çıxışlarında da zəruri hesab etdiyi türk dünyasının birliyi amalının özünün idealı və uşaqlıq arzusu olduğunu açıq şəkildə diqqətə çatdırmışdır: "Türk dünyasının birliyini görmək istəyirəm. Bu, mənim uşaqlıqdan ən böyük arzum olub". Türk dünyasının birliyi və həmrəyliyinə töhfə vermək üçün dəfələrlə Türkiyə Cümhuriyyətində, üç dəfə Azərbaycanda və hərəsində bir dəfə olmaqla Özbəkistanda və Qazaxıstanda səfərlərdə olmuş, Elmlər Akademiyalarında və universitetlərdə alimlərlə və tələbələrlə görüşlər keçirərək ideallarını aşılamaq məqsədilə məruzələr oxumuş, çıxışlar etmiş, görüşlər keçirmiş, təkliflər irəli sürmüşdür. Şimali Karolina Universitetində təsis etdiyi və rəhbəri olduğu Aziz & Gwen Səncər Fondu və Səncər Mədəniyyət Mərkəzi də Nobel müka-



fatçısı Əziz Səncərin türk dünyasının həmrəyliyi ilə əlaqədar ali məqsədlərinin həyata keçirilməsinə uğurla xidmət edir.

Əziz Səncər 8 sentyabr 1946-cı ildə Türkiyə Cümhuriyyətinin Mardin vilayətinin Savur il mərkəzində anadan olmuşdur. Görkəmli alimin mənsub olduğu nəsil Orta Asiyadan Mardinə köçmüş oğuz türklərindəndir. XX əsrin ortalarına qədər Mardin vilayətində ərəb dilində danışıq geniş yer tutsa da, Əziz Səncər səkkiz uşaqdan ibarət olan ailəsində və məhəllə mühitində türkcə danışmağa üstünlük vermişdir. Bu cəhətdən o, türk folkloruna və xüsusən anasının dilindən eşitdiyi laylalara, bayatlara, el sözlərinə vurğun olduğunu daim nəzərə çatdırmışdır. Mardindəki lisə təhsili illərində türk dilini daha böyük həssaslıqla öyrənmiş və futbolçu kimi diqqəti cəlb etmişdir. Sonrakı dövrdə 1963-1969-cu illərdə İstanbul Universitetinin tibb fakültəsində ali təhsil aldığı illərdə həyatını tibb və biokimya elmlərinin dərindən öyrənilməsinə həsr etmişdir. Cəmi iki il Savur ilindəki sağlamlıq mərkəzində həkim kimi çalışan Əziz Səncər həmvətənlərinin sağlamlığına xidmət etməklə doğma diyara və taleyində haqqı-sayı olan insanlara mənəvi borcunu yerinə yetirmişdir. Bundan sonra o, Türkiyə Elm və Texnoloji Tədqiqat şurasının - TUBİTAK-ın dəstəyi ilə Amerikanın əvvəlcə Cons Hopkins Universitetində və Dallas Texas Universitetində təhsilini davam etdirərək, tibb və biokimya sahəsində biliklərini artırmışdır. Bunun ardınca Əziz Səncər Texas Universitetində görkəmli elm xadimi, professor Klaud Rupertin rəhbərlik etdiyi laboratoriyada biokimya ixtisası üzrə doktorantura təhsili almışdır. Burada o, professor Klaud Rupertin elmi rəhbərliyi ilə tibb və biologiya elminin ən aktual istiqaməti hesab edilən gen mühəndisliyi ixtisası sahəsində ciddi tədqiqatlar apararaq, mühüm elmi nəticələr əldə etmişdir. Belə ki, cavan tədqiqatçı Əziz Səncər özünəqədər məlum olan fotoliaz adlı geni klonlayaraq, onu gen mühəndisliyi vasitəsilə bakteriyalarda çoxaltmışdır. DNT tədqiqatlarında yeni olan bu elmi nəticə Əziz Səncəri Amerika elmi mühitində və tədricən beynəlxalq aləmdə yeni ixtiranın müəllifi kimi tanıtmışdır. Əziz Səncərin əldə etdiyi



gen növü tərəfindən şifrələnmiş ferment elmi tədqiqatlarda və təcrübədə ultrabənövşəyi şüalar tərəfindən zədələnmiş DNT kodlarının bərpa edilməsində həlledici faktora çevrilmişdir. Deməli, Əziz Səncər biokimya elmi sahəsində ilk dəfə olaraq bakteriyalarda müəyyən olunmuş şifrələnmiş fermenti kəşf etmiş və onu laboratoriya sınaqlarından keçirərək təsdiqlənməsinə nail olmuşdur. Bundan sonra Əziz Səncər Amerikanın məşhur Yel Universitetində elmi-pedaqoji fəaliyyətini davam etdirərək əldə etdiyi elmi nəticələrə görə dosent elmi adını almış və DNT kodlarının elmi cəhətdən "təmir edilməsi" sahəsindəki axtarışlarını daha da dərinləşdirmişdir. Bu mərhələdə o, fotoliaz fermenti ilə yanaşı, DNT kodlarının mikleopid parçalanmaları sahəsində də yeni elmi kəşflər etməyə nail olmuşdur. Bu zaman artıq Əziz Səncər yüksək elmi dairələrdə DNT kodlarının öyrənilməsinin fərqli metodologiyasını kəşf etmiş görkəmli alim kimi qəbul edilmişdi. Əlbəttə, belə mühüm elmi kəşflər onun elm adamı olaraq şöhrət qazanmasında mühüm rol oynamışdır.

Bununla belə, Əziz Səncər şöhrətin səfası ilə yanaşı, cəfasını da çəkməli olmuşdur. Dünya miqyaslı mühüm elmi kəşflərin müəllifi olmasına baxmayaraq, Əziz Səncərin elmi-pedaqoji fəaliyyətinin üzvü surətdə bağlı olduğu Texas və Yel Universitetində qalıb işləməsi mümkün olmamışdır. Elmdə paxıllıq və qısqanclığın sərt üzü ilə rastlaşan Əziz Səncər artıq 1997-ci ildən etibarən fəaliyyətini Amerikanın ən ucqar ali məktəblərindən biri olan Şimali Karolina ştatındakı Kapell-Hill Universitetində davam etdirməkdədir. O, bu ali təhsil ocağında biokimya və biofizika üzrə mühazirələr oxumaqla yanaşı, mükəmməl laboratoriya qurmuş, elmi axtarışlarını daha da təkmilləşdirərək yeniləşdirmişdir. Əziz Səncər DNT kodlarının şifrələnməsi üzrə əldə etdiyi yeni biokimyəvi maddələri xərçəng xəstəliyinə tətbiq etməklə sağaldılması çox çətin və mürəkkəb olan bu xəstəliyin yeni müalicə üsullarını kəşf etmişdir. Beləliklə, Texas və Yel Universitetlərində başlanan elmi axtarışlar, hələ XX əsrin yetmişinci illərində başlanan və bir-birini tamamlayan elmi-tədqiqat işləri təxminən otuz

ildən sonra, XXI əsrin əvvəllərində Şimali Karolina Universitetində tamamlanmışdır. Professor Əziz Səncərin dünyanın müxtəlif ölkələrində Beynəlxalq simpoziumlarda etdiyi məruzələr, təqdim olunan laborator analizləri təsvirləri onun tədqiqatlarının və elmi nəticələrinin yayılmasına şərait yaratmış, bu istedadlı və iradəli elm adamı haqqında ictimai elmi rəyi formalaşmışdır. Nəhayət, bütün bunlardan sonra Amerikanın Şimali Karolina Universitetinin professoru Əziz Səncər 2015-ci ildə xərçəng xəstəliyinin müalicə üsullarının müəyyən edilməsində bir-birini tamamlayan fərqli elmi nəticələr əldə etmiş Amerika alimi Pol Modriç və İsveçli alim Tomas Lindal ilə birlikdə Kimya üzrə Nobel mükafatına layiq görülmüşdür.

Qeyd etmək lazımdır ki, Əziz Səncər xərçəng xəstəliklərinin biokimyəvi üsullarla müalicəsi üzərində elmi axtarışlarını Nobel mükafatı aldıqdan sonra da davam etdirməkdədir. O, artıq 2025-ci ildə bu sahədə yeni elmi nəticələrə gəldiyini dünya elmi ictimaiyyətinə açıqlamışdır. Görkəmli türk alimi, professor Əziz Səncər qarşıdakı ən yaxın illərdə xərçəng xəstəliklərinin tam sağaldılmasına xidmət edən yeni müalicə üsullarını və dərman preparatlarını elan edəcəyinin anonsunu vermişdir. Bu, məşhur türk aliminin bəşəriyyət qarşısında ən böyük xidməti olacaqdır.

Ümumiyyətlə, professor Əziz Səncər dünyada qəbul edilən, beynəlxalq elmi nüfuza malik görkəmli türk alimidir. Son illərin statistikasına əsasən o, müxtəlif illərdə uğrunda çalışdığı və nəhayət, müvəffəqiyyətlə həll etdiyi elmi problemlərə həsr edilmiş 33 monoqrafiya və broşürün, 425 elmi məqalənin müəllifidir. Hazırda Əziz Səncər dünyanın ən mühüm elmi mərkəzlərdə və universitetlərdə beynəlxalq miqyaslı elmi tədbirlərdə məruzələrdə çıxış edir. Bu gün o, beynəlxalq elmi məclislərdə biokimya sahəsində dünya elmi adından söz demək səlahiyyətinə malik olan görkəmli elm xadimi kimi məşhurlaşmışdır.

Beynəlxalq tədbirlərdə Amerika Şimali Karolina Universitetinin professoru kimi çıxış edən Əziz Səncər hər yerdə və hər dəfə türk olduğunu qürurla bəyan edir. Hətta BBS kanalının milli mənsubiyyət baxımından "türk və ya yarı ərəb" sorğusuna Əziz Səncər "Mən türkəm, budur" - deyə qəti cavab vermişdir. O, məmləkəti Türkiyəni daim uca tutaraq "Nobel mükafatını, bütün elmi uğurlarını Türkiyədə sülh üçün verərdim" - qənaətdə olduğunu bəyan etmişdir. Türkiyə Cümhuriyyətində də Əziz Səncərə dövlət rəhbərliyi və xalq səviyyəsində, elmi ictimaiyyət arasında xüsusi ehtiram göstərilir. Professor Əziz Səncər 2006-cı ildə Türkiyə Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. Qardaş ölkədə Anadolu liseyləri Əziz Səncərin adını daşıyır. O, 1997-ci ildə mühüm elmi xidmətlərinə görə Türkiyə Elm və Texnoloji Şurasının Elm mükafatı ilə təltif olunmuşdur. Görkəmli elm xadimi həm də Vəhbi Qoç mükafatı laureatıdır.

Nobel mükafatı laureatı, professor Əziz Səncərin həyatı və fəaliyyəti Azərbaycanla üzvü surətdə bağlıdır. Əziz Səncər doğma məmləkəti Türkiyə kimi Azərbaycanı da özünün Vətəni hesab edir. Bu haqda o, 28 may 2021-ci il tarixdə Azərbaycanda ilk dəfə keçirilən "Texnofest Azərbaycan" Aerokosmik və Texnologiya Festivalındakı çıxışı zamanı gənclərə müraciətində xüsusi olaraq fikirlərini aşağıdakı kimi ifadə etmişdir: "Əziz gənclər. Vətənimizi sevməkdən əsla vaz keçməyin. Vətənimizə, insanlarımıza fayda verməyən işlərin davamlı olmayacağını bilin… Vətənimizin, - Vətənimiz dediyim zaman mən həm Türkiyə, həm də Azərbaycanı nəzərdə tuturam, onu da açıqlayım, - yüksəlməsi üçün lap çox çalışın… İnadkar olun, məğlubiyyəti əsla qəbul etməyin".

Bundan başqa, Amerikanın Şimali Karolina Universitetində yaşayıb-işləyən Əziz Səncər 2021-ci ildə ölkəmizdə Nizami Gəncəvi adına Qızıl medalla təltif olunarkən bu medalın əsas-

naməsinə uyğun olaraq müəyyən edilmiş "xarici ölkə vətəndaşı" sözlərini qəbul etməyərək, yalnız medalın vəsiqəsində "Azərbaycan alimi" sözləri yazıldıqdan sonra həmin mükafatın sahibi olduğunu bildirmişdir. Həmçinin professor Əziz Səncər Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyliyə 1 avqust 2023-cı il tarixdə göndərdiyi məktubda da "Hər kəsə məlumdur ki, mən Azərbaycanı öz vətənim hesab edirəm. Azərbaycan üçün əlimdən gələni yaparam" - sözlərini yazmaqla bir daha ölkəmizə və xalqımıza olan dərin bağlılığını və sevgisini ifadə etmişdir.

Nobel mükafatı laureatı Əziz Səncəri ilk dəfə Azərbaycana 2017-ci ildə İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov dəvət etmişdir. Əziz Səncər Azərbaycan Dövlət İqtisad Universitetində tələblərlə görüş zamanı Azərbaycana xüsusi rəğbət bəslədiyini ifadə etmiş, eyni zamanda, "türk dünyasının birliyini görmək istədiyini" və yeni nəslin öz ölkəsini sevməklə yanaşı, həm də türk dünyasına da xidmət etməsinin türk xalqlarından hər biri üçün zəruri olduğunu diqqətə çatdırmışdır. Bu görüş İqtisad Universiteti ilə Şimali Karolina Universiteti arasında əlaqələrin yaradılması üçün körpü funksiyasını yerinə yetirmişdir.

İqtisad Universitetinin Elmi şurası professor Əziz Səncəri dünya elminin inkişafındakı böyük xidmətlərinə və Azərbaycan elmi ictimaiyyəti ilə əlaqələrinə görə bu ali məktəbin - UNEC-in fəxri professoru seçmişdir. Bundan başqa, İqtisad Universitetindəki laboratoriyalardan birinə Nobel mükafatı laureatı, professor Əziz Səncərin adı verilmişdir. İqtisad Universitetinin dosenti, iqtisadiyyat üzrə fəlsəfə doktoru Elşən Bağırzadə doğma universitetlə, ümumiyyətlə Azərbaycanın elm və ali təhsil müəssisələri və eyni zamanda türk dünyası ilə professor Əziz Səncərin əlaqələrini qurmaq üçün şərəfli koordinatorluq missiyasını məsuliyyətlə yerinə yetirir.

Azərbaycan Respublikasında gedən ictimai-siyasi prosesləri diqqətlə və böyük maraqla izləyən professor Əziz Səncər ölkəmizin bütün uğurlarına ürəkdən sevinən və nailiyyətlərimizi beynəlxalq səviyyədə təbliğ edən böyük vətəndaş alimdir. O, Azərbaycanın ən ağır problemi olan Qarabağ məsələsini də diqqətlə izləmiş, bu istiqamətdə gedən proseslərə daim özünün obyektiv münasibətini bildirmiş, yaşayıb fəaliyyət göstərdiyi dairədə və beynəlxalq elmi ictimaiyyət arasında Azərbaycan həqiqətlərini, Qarabağ savaşının mahiyyətini təbliğ edib, çox sualları cavablandırmışdır. İkinci Qarabağ müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin Dəmir Yumruğu ilə qazanılan tarixi Zəfəri möhtəşəm qələbə kimi bayram hissi ilə qarşılayan Əziz Səncər bu hadisəni türk dünyasının ən böyük zəfərlərindən biri kimi qiymətləndirmişdir. Əziz Səncər bəyan etmişdir ki, "Mənə görə Azərbaycanın Qarabağ Zəfəri Atatürkün İstiqlal savaşından sonra Türk dünyasının ən böyük Zəfəridir".

Müşahidələr və Əziz Səncərin qeydləri göstərir ki, o, Qarabağ hadisələrini uzun illər ərzində böyük həssaslıqla araşdırıb öyrənərək Azərbaycan xalqının hiss və həyəcanlarına, iztirablarına şərik olmuş, sevincimizi ürəkdən bölüşmüşdür. Professor Əziz Səncərin 4 iyun 2024-cü ildə Azərbaycan Milli Elmlər Akademiyasında keçirilən mətbuat konfransında verdiyi müsahibədəki aşağıdakı sözlər onun Qarabağ hadisələrinin bütün mərhələlərinin, kədərli-sevincli hadisələrinin içində olduğunu əyani şəkildə göstərir: "Azərbaycana ilk gəldiyim zaman Qarabağ işğal altında idi. Bütün danışıqlarımızda bu məsələ hər kəsin düşüncəsinə hakim idi. İkinci səfərimdə Qarabağ işğaldan azad olunsa da, Xankəndi düşmənin əlində idi və bunun da narahatlığı var idi.

Bu səfərimdə isə ünsiyyətdə olduğum insanlarda bir rahatlıq olduğunu hiss etdim. İnsanlar gələcəyə ümidlə baxırlar, indi torpaq dərdimiz yoxdur. Bundan sonra həyatımıza normal davam edəcəyik".



Azərbaycan Milli Elmlər Akademiyasının Ümumi Yığıncağının 29 noyabr 2023-cü il tarixli iclasında professor Əziz Səncər Milli Elmlər Akademiyasının fəxri üzvü seçilmişdir. Milli Elmlər Akademiyasının dəvəti ilə Nobel mükafatı laureatı, professor Əziz Səncər 2024-cü ildə ölkəmizə səfər etmişdir. Milli Elmlər Akademiyasının təşəbbüsü ilə 30 may - 6 iyun 2024-cü il tarixlərində "Əziz Səncər həftəsi" təşkil edilmişdir. Milli Elmlər Akademiyasının təşkil etdiyi "Əziz Səncər həftəsi" türk Nobel mükafatçısının Bakı şəhərindəki Fəxri xiyabanda Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin məzarının, Şəhidlər Xiyabanının və Türk şəhidliyinin ehtiramla ziyarət edilməsi ilə başlamışdır. "Əziz Səncər həftəsi" çərçivəsində Nobel mükafatı laureatı Milli Elmlər Akademiyasının Humanitar və İctimai Elmlər Akademiyasının əhatə etdiyi elmi tədqiqat institutlarının əməkdaşları ilə görüşmüş, Akademiyanın Mərkəzi Elmi Kitabxanasında olmuşdur. Akademiya Ümumi Yığıncağının 3 iyun 2024-cü il tarixdə keçirilmiş iclasında Amerikanın Şimali Karolina Universitetinin professoru, Nobel mükafatı laureatı Əziz Səncərə Milli Elmlər Akademiyasının həqiqi üzvü diplomu və vəsiqəsi təqdim olunmuşdur.

Eyni zamanda, Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin tarixi binasında görkəmli elm xadiminin özünün iştirakı ilə Akademiya tərəfindən təsis edilmiş "Əziz Səncər şərəf otağı"nın rəsmi açılış mərasimi keçirilmişdir. Burada professor Əziz Səncərin haqqında yazılmış kitablar və məqalələrlə, habelə onun AMEA-ya təqdim etdiyi elmi əsərlərlə tanış olmaq mümkündür. Həmçinin AMEA Rəyasət Heyətinin qərarı ilə tibb və təbiət elmləri sahəsində mühüm elmi nailiyyətlər qazanmış görkəmli alimlərə vermək üçün "Əziz Səncər döş nişanı" təsis edilmişdir. İlk olaraq bu akademik mükafata Azərbaycandan Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov və Milli Onkologiya Mərkəzinin Baş direktoru, akademik Cəmil Əliyev, Türkiyə Cümhuriyyətindən Türkiyə Elmlər Akademiyasının prezidenti, professor Müzəffər Şəkər və Ankara Universitetinin rektoru, professor Necdet Ünüvar layiq görülmüşlər.



"Əziz Səncər həftəsi" günlərində Nobel mükafatı laureatı Əziz Səncərlə Bakı Dövlət Universitetində, ADA Universitetində, Tibb Universitetində, Yunus Əmrə İnstitutunda görüşlər təşkil edilmişdir. Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəylinin müşayiəti ilə professor Əziz Səncər Naxçıvan Muxtar Respublikasına səfər etmişdir. O, Naxçıvan Dövlət Universitetində muxtar respublikasının ziyalıları, universitetin professor-müəllim heyəti və tələbələri, AMEA Naxçıvan Bölməsinin əməkdaşları ilə görüşmüş, onların qarşısında çıxış etmiş, göstərilən yüksək diqqətə görə dərin minnətdarlığını bildirmişdir. Həmçinin Əziz Səncər Şərur rayonuna səfər edərək, uşaqlıq arzusunun izi ilə buradan Türkiyə ərazisindəki Ağrı dağını ziyarət etmişdir. Onun Şərur rayonunun Danyeri kəndinin sakinləri ilə tanış olması, yerli mətbəxdən istifadə etməsi də "Əziz Səncər həftəsi"nin yaddaqalan hadisələrindən biri olmuşdur.

Görkəmli elm xadimi, professor Əziz Səncər 3 iyun 2024-cü il tarixdə Milli Elmlər Akademiyasının Ümumi Yığıncağında "Türk dünyasının elm siyasəti: reallıqlar və çağırışlar" mövzusunda elmi məruzə ilə çıxış etmiş, akademik cəmiyyətin suallarını cavablandırmışdır. Məruzənin adında ifadə olunan "türk dünyasının vahid elm siyasəti" Nobel mükafatı laureatı, professor Əziz Səncərin türk dünyasına elm vasitəsilə xidmət etmək üçün müəyyən etdiyi elmi konsepsiyadır. O, Nobel mükafatçısı kimi böyük elmi nüfuzundan istifadə edərək bütün imkanlarını Türkiyədə və Azərbaycanda, bütövlükdə türk dünyasında elmin inkişafına və yeni elmi nəslin formalaşmasına həsr edir. İxtisas etibarilə biokimya sahəsində dünya şöhrətli görkəmli elm xadimi olmasına baxmayaraq, professor Əziz Səncər geniş elmi dünyagörüşə və aydın siyasi baxışlara malik alim olduğu üçün o, elmi istiqamətindən asılı olmayaraq, bütün elm sahələrini əhatə edən konkret və düşünülmüş elm siyasəti həyata keçirmək vəzifəsini məsuliyyətlə və şərəflə yerinə yetirir. Böyük iftixar hissi ilə demək olar ki, Nobel mükafatı laureatı Əziz Səncər XXI

əsr türk dünyası alimlərinin böyük ağsaqqalıdır. Türk xalqlarının elm adamları da Əziz Səncəri özlərinin fəxri kimi qəbul edir, ona xüsusi ehtiram göstərirlər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Şimali Karolina Universitetinin professoru, Nobel mükafatı laureatı Əziz Səncərin fəaliyyətini yüksək qiymətləndirir. Əziz Səncəri 2021-ci ildə Prezident İqamətgahında qəbul edən dövlət başçımız onun türk dünyası üçün çalışmalarının və Azərbaycanla əlaqələrinin mühüm əhəmiyyətə malik olduğunu bildirmişdir. Prezident İlham Əliyev Qarabağ müharibəsi dövründə Ermənistan tətəfindən Gəncə şəhərinin raket hücumlarına məruz qaldığı günlərdə hər iki valideynini itirmiş uşağa Əziz Səncərin yardım etməsini böyük insanpərvərlik nümunəsi hesab etmişdir. Bundan başqa, dövlətimizin başçısının dəstəyi ilə Əziz Səncər Azad Qarabağa səfər etmiş, tarixi diyardakı tarix və mədəniyyət abidələrini ziyarət etmək arzusunu gerçəkləşdirmişdir. Professor Əziz Səncər da öz növbəsində Prezident İlham Əliyevin Qarabağda qazandığı tarixi Zəfərin tarixdə xüsusi yeri olan böyük qələbə olmasını qürur hissi ilə qeyd etməklə, bundan sonrakı dövrlərdə də Azərbaycan elminin inkişafı üçün əlindən gələni əsirgəməyəcəyini diqqətə çatdırmışdır.

Elm sahəsindəki böyük nailiyyətləri və Azərbaycanla əlaqələri nəzərə alınmaqla Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə professor Əziz Səncər "Azərbaycan Respublikasının Prezidentinin Fəxri Diplomu ilə təltif olunmuşdur.

Son illərdə Nobel mükafatı laureatı Əziz Səncərin elm sahəsindəki böyük xidmətləri türk dünyası miqyasında da qiymətləndirilmişdir. Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının - TÜRKSOY Daimi Şurasının 13 oktyabr 2023-cü il tarixdə Şuşa şəhərində qəbul etdiyi Qərara əsasən ona "Türk Dünyasının Mədəniyyət elçisi" fəxri adı verilmişdir. Bundan başqa, Türk Dövlətləri Təşkilatı da professor Əziz Səncəri ilk dəfə təsis olunan Əlişir Nəvai Beynəlxalq Mükafatı ilə təltif etmişdir. Professor Əziz Səncər bu mükafata türk sivilizasiyasının inkişafına verdiyi elmi və mənəvi töhfələrə, türk dünyası üçün ortaq dəyərlərin təşviqindəki xidmətlərinə görə layiq görülmüşdür.

Bu il sentyabr ayının 8-də Nobel mükafatı laureatı, professor Əziz Səncərin anadan olmasının 80 illiyi tamam olmuşdur. Bu münasibətlə Milli Elmlər Akademiyası Rəyasət Heyətinin qərarı ilə Əziz Səncər Akademiyanın döş nişanı ilə təltif olunmuş, görkəmli alim haqqında akademik İsa Həbibbəylinin monoqrafiyası "Elm" nəşriyyatında nəşr edilmişdir. Onu da oxuculara çatdırmaq istəyirəm ki, 8 sentyabr 2026-cı il tarixdə AMEA-da professor Əziz Səncərin 80 illik yubileyi münasibətilə elmi sessiya keçirilmişdir. Tədbirdə professor Əziz Səncər özü də onlayn formatda iştirak və çıxış etmişdir.

Dünya şöhrətli görkəmli elm xadimi, Nobel mükafatı laureatı Amerika Şimali Karolina Universitetinin professoru Əziz Səncərin 80 illik yubileyi beynəlxalq elmi ictimaiyyət üçün əlamətdar hadisədir. Azərbaycan Milli Elmlər Akademiyasının fəxri üzvü professor Əziz Səncərin yubileyi türk dünyasında, Türkiyədə və Azərbaycanda isə elmin təntənəsi və bayramı kimi qeyd olunur. Görkəmli elm xadimini və əziz dostumuzu 80 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, türk dünyası alimlərinin böyük ağsaqqalına elm yollarında daha böyük uğurlar və möhkəm cansağlığı arzulayırıq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 7 sentyabr 2026-cı il tarixdə Nobel mükafatı laureatı Əziz Səncəri "Şöhrət" ordeni ilə təltif etmişdir. Görkəmli elm xadimi və yubilyarımızı bu münasibətlə ürəkdən təbrik edirik.

Azərbaycanda yeni görüşlərədək, möhtərəm yubilyarımız!



Fuad ƏLİYEV
AMEA Gəncə Bölməsinin sədri, akademik



Aynurə HƏSƏNOVA
AMEA Gəncə Bölməsinin Elm və Təhsil şöbəsinin rəisi, kimya üzrə fəlsəfə doktoru

Qarabağın və Şərqi Zəngəzurun dirçəlişi: istiqlalımızın memarlıq zəfəri

Ölkəmizin əldə etdiyi qələbələrin memarı, XX əsrin ən böyük siyasi xadimlərindən biri olan Azərbaycan xalqının böyük oğlu Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan Azərbaycan Respublikasının gələcək müstəqil inkişafını hələ Sovetlər birliyi miqyasında fikirləşmiş və çətin də olsa tədricən həyata keçirməyə başlamışdır.

Ana dilimizin hüquqi-konstitusion təsdiq edilməsi (1978-ci il), ölkəmizin təbii sərvətlərinin sahibi olması haqda qərarların təsdiq olunması, innovativ tipli və hərbi əhəmiyyətli zavodların tikilməsi, gənc kadrların hazırlanması, gələcək neft müqavilələrinin həyata keçirilməsində mühüm əhəmiyyət kəsb edən Bakı Dərin Özüllər zavodunun tikilməsi, 1994-cü ildə "Əsrin müqaviləsi" bağlanarkən nəinki Azərbaycanın neft ehtiyatları, həm də müasir elmi kadrların, mühəndislərin görkəmli alimlərin (Azad Mirzəcanzadə, Musa Rüstəmov, Əli Quliyev) olması, Avropanın enerji təminatında böyük rol oynaması ölkəmizin müstəqilliyinin təmin olunmasında böyük tarixi şəxsiyyət Heydər Əliyevin rolunu bir daha təsdiqləyir.

Milli müstəqillik və tərəqqi məfkurəmiz dərin tarixi-fəlsəfi köklərə və ziyalı fədakarlığına əsaslanır. 1918-ci il mayın 28-də bəyan edilmiş Azərbaycan Xalq Cümhuriyyətinin miras qoyduğu azadlıq təməlləri, 1926-cı il Birinci Türkoloji Qurultayın elmi-mədəni bütövlük və inteqrasiya hədəfləri, həmçinin Ümummilli Lider Heydər Əliyevin sarsılmaz dövlətçilik təməlləri müasir mərhələdə yeni bir müstəviyə qədəm qoymuşdur. Tarixi irsimiz bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağda və Şərqi Zəngəzurda aparılan irimiqyaslı quruculuq işlərinin ideoloji, iqtisadi və geosiyasi əsasını təşkil edir. Cümhuriyyətin dövlət quruculuğu təcrübəsi ilə xalqın milli şüurunda möhkəmləndirdiyi azadlıq duyğuları, müasir mərhələdə elmi-mədəni və yüksək texnoloji vəhdətdə özünü büruzə verir.

44 günlük Vətən müharibəsində əldə olunan şanlı Zəfər, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının misilsiz qələbəsi oldu. Son 500 ildə əldə olunmayan tarixi qələbəmiz xalqımızın qəhrəmanlıq səlnaməsini bir daha ucalara qaldırdı.

Ali Baş Komandan İlham Əliyevin torpaqlarımızın azad olunmasında həyata keçirtdiyi çətin bir vaxtda dünyanın bir çox ölkələrindən (30-dan artıq) gəlmiş müxtəlif təyinatlı jurnalistlərə verdiyi cavabları diqqətlə dinlədikdə, burada nəinki hərbi, siyasi-iqtisadi, müxtəlif əsrlərdən qalmış mübahisəli məsələlərə prezidentin mükəmməl



cavabı jurnalistləri özlərini görkəmli bir siyasətçi qarşısında dayandıqlarını başa düşdülər. Prezidentin böyük siyasi məktəb keçdiyini, ata vəsiyyətinə və nəsihətinə sahib olması bu qarışıq dünyada dürüst cavablar verməklə qələbə çalmağa imkanlar yaratdı.

Maraqlı odur ki, Qələbə sazişi imzalanan gündən cənab Prezidentin Zəngəzur torpaqları haqqında çağırışları bir çoxlarına qəribə görünsə də, zaman keçdikcə bu dərin siyasi məna kəsb edən fikrin nə qədər böyük siyasi və iqtisadi təsir dairəsinə malik olması, böyük dövlətlərin gündəlik diqqət mərkəzinə çevirdi. Təsadüfi deyil ki, ABŞ-da Zəngəzurla bağlı Trampın hər iki dövlətlə müqavilə bağlaması və yolun Tramp yolu adlandırılması bütün dünyaya bəyan edildi və bu da ölkə prezidenti İlham Əliyevin uzaqgörən siyasətinin məntiqi nəticəsi oldu.

2026-cı ilin ölkəmizdə "Şəhərsalma və Memarlıq İli" elan edilməsi gələcəyin mühüm strateji çağırışıdır. Azad edilmiş ərazilərdə həyata keçirilən "Ağıllı şəhər" (Smart City) və "Ağıllı kənd" (Smart Village) lahiyələri elmlə innovasiyanın və rəqəmsal transformasiyanın ən yüksək səviyyəli vəhdətidir. Azərbaycanın Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına (WUF13) ev sahibliyi etməsi isə rəsmi Bakının apardığı qlobal ekoloji yönümlü və dayanıqlı urbanizasiya siyasətinə beynəlxalq birliyin verdiyi ali qiymətdir.

Şərqi Zəngəzurun memarlıq və iqtisadi dirçəlişinin funksional zirvə nöqtəsi, onun beynəlxalq nəqliyyat arteriyalarına, xüsusilə Zəngəzur dəhlizi vasitəsilə qlobal logistik şəbəkələrə inteqrasiya olunmasıdır və dövlət başçısı bu strateji inkişaf standartlarını belə xarakterizə edir:

"Biz Şərqi Zəngəzuru və Qarabağı yaşıl enerji zonası elan etmişik. Biz orada ən müasir texnologiyaları, "Ağıllı şəhər" və "Ağıllı kənd" layihələrini tətbiq edirik. Bu, təkcə keçmiş köçkünlərin qayıdışı üçün deyil, bütövlükdə regionun gələcək inkişaf modeli üçün yeni bir standartdır."

Müasir beynəlxalq münasibətlər sistemində iqtisadi müstəqilliyin təmin edilməsi və siyasi suverenliyin qorunması qlobal təchizat zəncirlərində və geo-iqtisadi keçid məntəqələrində tutulan mövqedən birbaşa asılıdır. Şərqi Zəngəzurun və bütövlükdə regional təhlükəsizliyin geoiqtisadi açarı olan Zəngəzur dəhlizi ilə qlobal enerji təchizatının şah damarı hesab edilən Hörmüz boğazı arasında funksional-müqayisəli təhlilin aparılması mühüm akademik və praktiki əhəmiyyət kəsb edir.

Cənab prezidentin çıxışlarının birində qeyd etdiyi kimi: "Qarabağın və Şərqi Zəngəzurun bərpası, yenidən qurulması bizim milli ideyamızdır. Biz bu torpaqları elə bərpa edəcəyik ki, bütün dünya üçün nümunə olacaq. Bu bizim milli rəmzimizə, qürur mənbəyimizə çevriləcəkdir".

Dünyanın nəhəng güclərinin geoiqtisadi keçid məntəqələrindən asılılığı Panama, Cəbəllütariq və Bosfor boğazları nümunəsində aydın şəkildə görünür. Eyni zamanda Amerika-İran müharibəsində Hörmüz boğazının malik olduğu böyük təsir gücünü cənab Prezident 2020-ci ildəki çıxışlarında və müxtəlif sammitlərdə xarici dövlət başçılarının diqqətinə çatdırsa da, bəzi siyasətçilər bunu sıradan bir bəyanat kimi qəbul edirdilər. Lakin bugünkü geosiyasi hadisələr bu uzaqgörən fikirləri tamamilə təsdiqlədi.

Hörmüz boğazı qlobal neft ticarətinin təxminən beşdə birinin reallaşdırıldığı, Fars və Oman körfəzi, Ərəb dənizi ilə birləşdirən klassik geostrateji keçiddir. Zəngəzur dəhlizi isə Xəzər dənizi hövzəsini və Mərkəzi Asiyanı Türkiyə və Avropa ilə birləşdirən, Şərq-Qərb və Şimal-Cənub multimodal tranzit dəhlizlərinin kəsişməsində yerləşən, Avrasiya məkanında konseptual olaraq yeni bir quru və dəmir yolu geosiyasi körpüsüdür. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bəyan etdiyi kimi, layihə qlobal miqyasda Şərq-Qərb nəqliyyat yollarını yenidən formalaşdırır:

"Zəngəzur dəhlizinin açılması həm bizim milli maraqlarımıza tam cavab verir, həm də regional və qlobal miqyasda nəqliyyat təhlükəsizliyini təmin edir. Bu dəhliz rəqabət üçün deyil, əməkdaşlıq üçün yeni bir imkandır və Avrasiyanın logistik xəritəsini yenidən formalaşdıracaq."

Zəngəzur dəhlizinin beynəlxalq hüquqi və strateji legitimliyi Prezident İlham Əliyevin hələ 2020-ci ilin dekabrında - Vətən müharibəsinin dərhal ardınca verdiyi müsahibələrdə səsləndirdiyi qətiyyətli xəbərdarlıqla formalaşmışdır. Dövlət rəhbəri bu layihənin regional nəqliyyat arxitekturası üçün alternativsiz reallıq olduğunu bu sözlərlə bəyan etmişdi:

"Zəngəzur dəhlizinin yaradılması bizim milli, tarixi və gələcək maraqlarımıza tam cavab verir. Biz Zəngəzur dəhlizini icra edəcəyik, Ermənistan bunu istəsə də, istəməsə də. İstəsə, daha asan həll olunacaq, istəməsə də zorla həll edəcəyik."

Bu strateji iradə layihənin logistik və infrastruktur parametrlərini mütləq bir fakt kimi şərtləndirdi:

Hörmüz boğazı sadəcə Ərəb ölkələrinin dəniz keçidi olmaqla, xam neftin və maye təbii qaz (LNG) daşımalarının əsas istiqamətidir və iqtisadiyyatın birtərəfli və xammal yönümlü dənizin şah damarı rolunu yerinə yetirir.

Zəngəzur dəhlizi müasir çoxşaxəli (multimodal) nəqliyyat marşrutu olmaqla, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun ("Orta Dəhliz") əsas təməl daşıdır. O, xüsusilə müasir ticarətin nəhəngi olan Çin Xalq Respublikasının "Bir Kəmər, Bir Yol" çərçivəsində yüklərin Asiyadan Avropaya ənənəvi dəniz yolları ilə müqayisədə 3 dəfə daha sürətlə - cəmi 12-14 günə daşınmasını təmin edən quru yollar magistralıdır.

Hörmüz boğazı qlobal miqyasda dəniz yolları logistikasını şərtləndirdiyi halda, Zəngəzur dəhlizi nəhəng qitələri (Asiya və Avropanı) quru yolla bir-birinə bağlayan, Çinin istehsal gücü ilə Avropanın istehlak bazarı arasında strateji zaman üstünlüyü yaradan səmərəli kontinental alternatv təqdim edir və nə qədər nəhəng bir fərqin olduğunu açıq-aşkar göstərir.

Hörmüz boğazı Yaxın Şərq regionunun sabitliyinə birbaşa bağlıdır; ABŞ, İran, Körfəz ölkələri və qlobal enerji idxalçılarının maraqlarının kəsişdiyi və toqquşduğu daimi gərginlik ocağıdır.

Zəngəzur dəhlizi Coğrafi bağlılığı təmin edən, Türk dünyasının (Türkiyə, Azərbaycan və Mərkəzi Asiya dövlətləri) inteqrasiyasına xidmət edən, eyni zamanda Avrasiya məkanında Azərbaycan, Rusiya, Avropa İttifaqı, Çin və regional gücləri birləşdirən sülh qovşağıdır.

Bu nöqtədə iki nəhəng qlobal gücün - ABŞ və Çinin maraqlarının real müstəvidə kəsişməsi diqqət çəkir. ABŞ Prezidenti Donald Trampın qlobal ticarət yollarının şaxələndirilməsi, riskli su keçidlərindən asılılığın azaldılması və alternativ quru yolları açılmasına yönəlmiş strateji baxışı Zəngəzur dəhlizinin qlobal legitimliyini artırır. Digər tərəfdən, Çinin Avrasiya qitəsində sanksiyalardan uzaq, hərbi risklərdən sığortalanmış və tam nəzarət oluna bilən şaxələndirilmiş quru marşrutlarına olan həyati vacib ehtiyacı Zəngəzur dəhlizini Pekinin də əsas geoiqtisadi hədəflərindən birinə çevirir. Azərbaycan bu dəhliz vasitəsilə həm Vaşinqtonun praktiki logistik yanaşmasını, həm də Çi-

nin "Böyük İpək Yolu" konseptini ortaq bir sülh və əməkdaşlıq məxrəcində birləşdirərək regional təhlükəsizliyin mühüm moderatoruna çevrilir və bu da Prezident İlham Əliyevin dünyəvi bir siyasi məqamı həyata keçirilməsini göstərir.

Ölkə Prezidenti İlham Əliyevin Çinə səfəri, vizasız gediş - gəlişin təmin edilməsi, Zəngəzur Dəhlizinin Amerikada Tramp tərəfindən bəyənilməsi iki nəhəng ölkələrin dünya iqtisadiyyatında təhlükəsiz və tez bir zamanda həyata keçirilməsinə zəmun yaradır.

Hörmüz boğazı hərbi gərginliklər, dəniz blokadaları və "tanker müharibələri" riski yüksəkdir; enerji böhranı alətinə çevrilmə ehtimalı həmişə mövcuddur və bu da siyasi arenada tez-tez istifadə olunur.

Zəngəzur dəhlizi ermənistanın qeyri-konstruktiv geostrateji mövqeyi və regional rəqabət risklərinə baxmayaraq, Azərbaycanın hərbi-strateji potensialı ("Dəmir yumruq") və həyata keçirdiyi qabaqlayıcı sülh diplomatiyası ilə qorunur.

Çin və digər qlobal güclərin layihəyə iqtisadi tərəfdaş kimi cəlb olunması marşrutun beynəlxalq təhlükəsizlik imkanlarını daha da möhkəmləndirir.

Hörmüz boğazı qlobal böhranlara qarşı həssas və qeyri-sabit struktura malik olduğu üçün, Zəngəzur dəhlizi Azərbaycanın təkidləri və suveren təminatı sayəsində daha etibarlı və proqnozlaşdırıla bilən quru yollarıdır.

Hörmüz boğazı "mono-məhsul" (əsasən karbohidrogen resursları) asılılığına malikdir; burada alternativ dəniz yolları məhduddur və qlobal bazarda "yaşıl keçid" meylləri fonunda marşrut uzunmüddətli perspektivdə risklər qarşısında düşdüyü vəziyyət bilinməlidir.

Zəngəzur dəhlizi yüksək şaxələndirmə potensialına malikdir o, ənənəvi ticarət daşımaları ilə bərabər, rəqəmsal fiber-optik magistralları, "yaşıl enerji" xətlərini və müasir yüksək texnoloji kommunikasiya infrastrukturunu özündə cəmləşdirir.

Şərqi Asiyanın texnoloji və sənaye gücü olan Çin ilə Avropanın rəqəmsal bazarları arasında quru körpü funksiyasını daşıyan Zəngəzur dəhlizi, Dördüncü Sənaye İnqilabının prinsiplərinə, rəqəmsal və ekoloji trendlərinə tam cavab verən müasir transmilli infrastruktur layihəsidir.

Hörmüz boğazı ilə Zəngəzur dəhlizinin inteqrasiyası "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin inkişafı fonunda yeni bir geostrateji reallıq qazanmaqdadır. Azərbaycanın təşəbbüsü və liderliyi ilə formalaşan bu logistik arxitektura, Fars körfəzindən və Hörmüz boğazından gələn sub-regional yüklərin tamamlayıcı (komplementar) marşrutlar vasitəsilə Zəngəzur dəhlizinə, oradan isə Avropa qitəsinə ən qısa, optimallaşdırılmış və təhlükəsiz yolla çatdırılmasını şərtləndirir. Bu funksional sinerji Azərbaycanı təkcə Şərq-Qərb (Çin-Avropa) xəttində deyil, həm də Cənubi Asiya və Körfəz ölkələrini Şimali və Qərbi Avropa ilə inteqrasiya edən makro-regional logistik mərkəzə (meqa-haba) çevirir.

Azərbaycan Xalq Cümhuriyyətinin ucaltdığı suverenlik bayrağı, Türkoloji Qurultayın formalaşdırdığı milli-mədəni şüur, Ümummilli Lider Heydər Əliyevin qoruyub saxladığı və gücləndirdiyi müstəqillik təməlləri müasir mərhələdə Prezident İlham Əliyevin rəhbərliyi ilə WUF13 səviyyəsində dünyaya təqdim etdiyimiz dayanıqlı modern şəhərsalma modelində tam tərənnümünü tapır. Bu tarixi-ideoloji varislik zənciri, tarixi köklərimizdən qlobal zirvəyə ucalan qüdrətli Azərbaycan məfkurəsinin təzahürüdür.

Zəngəzur dəhlizinin fəaliyyətə başlaması, onun Çin kimi qlobal subyektlərin "Böyük İpək Yolu" strategiyasının mərkəzi arteriyasına çevrilməsi və Hörmüz boğazı kimi qlobal strateji keçidlərlə funksional şəkildə inteqrasiya ediləcək geoiqtisadi səviyyəyə yüksəldilməsi, milli istiqlalımızın sadəcə memarlıq deyil, həm də böyük geosiyasi zəfəridir.

Müstəqilliyimiz dövlətimizin sarsılmaz təməli, azad Qarabağda və Şərqi Zəngəzurda ucalan ağıllı, ekoloji cəhətdən təmiz şəhərlərimiz və beynəlxalq miqyasda açılan strateji dəhlizlərimiz isə milli inkişafımızın təminatçısıdır. Bu irimiqyaslı dirçəliş, reabilitasiya və qlobal geostrateji inteqrasiya prosesinə fundamental elmi tədqiqatımız, innovativ layihələrimiz və ali ziyalı məsuliyyətimizlə töhfələr vermək hər birimizin müqəddəs vətəndaşlıq və akademik borcudur.



Coşqun MƏMMƏDOV
AMEA Rəyasət Heyətinin elmi katibi,
iqtisad üzrə fəlsəfə doktoru

Orta dəhliz: Azərbaycanın artan tranzit gücü

Tarixən olduğu kimi, müasir dövrdə də beynəlxalq nəqliyyat marşrutları dünya ölkələri və xalqları arasında iqtisadi, ticarət və mədəni əlaqələrin qurulması, genişləndirilməsi və davamlı inkişafının təmin edilməsində strateji əhəmiyyətə malikdir. Bu marşrutlar yalnız logistika infrastrukturunun mühüm elementi kimi deyil, həm də qlobal dəyər zəncirlərinin səmərəli fəaliyyətini təmin edən, beynəlxalq iqtisadi inteqrasiyanı dərinləşdirən və dünya iqtisadiyyatının dayanıqlı inkişafına töhfə verən əsas amillərdən biri kimi çıxış edir.

Hazırda dünyada qlobal yük axınlarını formalaşdıran əsas beynəlxalq meqa nəqliyyat marşrutları aşağıdakılardır:

Şimal Dəhlizi (eng. Northern Corridor): Çin - Qazaxıstan - Rusiya - Belarus - Avropa marşrutudur. Dəhliz uzun müddət Asiya ilə Avropa arasında əsas quru nəqliyyat marşurutu olmaqla, Avrasiya üzrə konteyner daşımalarının əsas hissəsini təmin edir.

Beynəlxalq Şimal-Cənub Nəqliyyat Dəhlizi (eng. International North-South Transport Corridor - INSTC): Hindistan - İran - Azərbaycan - Rusiya - Şimali Avropa marşrutudur. Dəhliz Hind okeanını Avrasiya bazarları ilə birləşdirən ən mühüm çoxnövlü nəqliyyat sistemlərindən biridir.

Dəniz İpək Yolu (eng. 21st Century Maritime Silk Road): Şərqi Asiya - Cənub-Şərqi Asiya - Hind okeanı - Qırmızı dəniz - Süveyş kanalı - Aralıq dənizi - Avropa marşrutudur. Bu, qlobal dəniz ticarətinin əsas magistrallarından biri hesab olunur.

Cənub Dəhlizi (eng. Southern Corridor): Çin - Mərkəzi Asiya - İran - Türkiyə - Avropa və ya Pakistan - İran - Türkiyə - Avropa istiqamətində formalaşan alternativ quru nəqliyyat marşrutudur. Marşrut xətti Şimal Dəhlizinə alternativ kimi qəbul olunur.

Orta Dəhliz və ya Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (eng. Middle Corridor, Trans-Caspian International Transport Route - TITR): Çin - Qazaxıstan - Xəzər dənizi - Azərbaycan - Gürcüstan - Türkiyə - Avropa marşrutudur.

Trans-Sakit Okean marşrutu (eng. Trans-Pacific): Şərqi Asiya ilə Şimali Amerikanı birləşdirən və dünyanın ən böyük konteyner yükdaşımaları şəbəkəsini təşkil edən dəniz marşrutudur.

Trans-Atlantik marşrutu (eng. Trans-Atlantic): Qərbi Avropa ilə Şimali Amerika

arasında dünyanın ən intensiv dəniz və hava yükdaşımalarını təmin edən əsas beynəlxalq nəqliyyat marşrutudur.

Təsnifatdan göründüyü kimi, Trans-Sakit Okean və Trans-Atlantik marşrutları birbaşa Avrasiya beynəlxalq nəqliyyat dəhlizlərinə deyil, qlobal qitələrarası dəniz ticarət marşrutlarına aiddir.

Lakin Avrasiyanın beynəlxalq nəqliyyat dəhlizləri və xüsusilə Azərbaycanın tranzit potensialı baxımından yanaşdıqda mövcud nəqliyyat marşrutları arasında Orta Dəhliz xüsusi önəm daşıyır.

Belə ki, son illərdə dünyada və regionda baş verən mürəkkəb geosiyasi proseslər fonunda beynəlxalq nəqliyyat marşrutlarının şaxələndirilməsi, onların təhlükəsizliyinin təmin edilməsi baxımından Orta Dəhlizin strateji və geoiqtisadi əhəmiyyəti getdikcə artır.

Hazırda davam edən Rusiya-Ukrayna müharibəsi və Rusiyaya qarşı tətbiq edilən beynəlxalq sanksiyalar bu ölkə ərazisindən keçən Şimal Dəhlizinə marağın azalmasına səbəb olmuşdur. Həmçinin Qara dənizdə Ukrayna sahillərindəki limanlarda təhlükəli vəziyyətin hökm sürməsi də Dəhlizin etibarlılığına və təhlükəsizliyinə mənfi təsir göstərən əsas amillərdən biri hesab olunur.

Digər tərəfdən, İran-ABŞ/İsrail münaqişəsində həssas atəşkəs rejiminə baxmayaraq, blokadaya qarşı tətbiq olunan əks-blokada tədbirləri, infrastruktur obyektlərinə dəyən ciddi zərərlər, qarşılıqlı etimadın olmaması, hərbi əməliyyatların hər an yenidən başlanacağı ehtimalının yüksək olması kimi təhlükəsizlik risklərinin davam etməsi sığorta şirkətlərini və logistika operatorlarını olduqca ehtiyatlı davranmağa, riskli marşrutlardan maksimum şəkildə yayınmağa sövq edir. Bu isə beynəlxalq daşımaların maya dəyərinin artmasına, tədarük zəncirində qeyri-müəyyənliyin daha da dərinləşməsinə və nəticədə qlobal enerji bazarında qiymət sabitliyinin pozulmasına gətirib çıxarır.

Beləliklə, qlobal miqyasda geosiyasi gərginliklərin artması, xüsusilə Yaxın Şərqdə Hörmüz boğazı ətrafında baş verən qeyri-sabitlik Beynəlxalq Şimal-Cənub Nəqliyyat Dəhlizinin həm şərq, həm də qərb marşrutlarının fəaliyyət imkanlarını əhəmiyyətli dərəcədə məhdudlaşdırmışdır. Bu isə Qərb döv-



lətləri üçün alternativ və daha təhlükəsiz prioritet marşrut kimi Orta Dəhlizin strateji və iqtisadi əhəmiyyətini xeyli dərəcədə artırmış, nəticədə beynəlxalq yük axınlarının mühüm hissəsinin bu xətt üzrə daşınmasına səbəb olmuşdur.

Həmçinin Çin üçün də həm "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində, həm də Rusiya-Ukrayna müharibəsi və Yaxın Şərqdə hökm sürən ağır hərbi-siyasi gərginliklər fonunda Orta Dəhliz geosiyasi risklərdən uzaq, sabit və dayanıqlı tranzit yolu hesab olunur.

Doğrudur, Beynəlxalq Şimal-Cənub Nəqliyyat Dəhlizinin Şərq marşrutu ilə müqayisədə Qərb marşrutunun Azərbaycan ərazisindən keçməsi ölkəmiz üçün mühüm iqtisadi və tranzit dividentlər vəd edir. Lakin mövcud gərgin geosiyasi proseslər fonunda mühüm strateji-coğrafi mövqeyə malik, həm Şimal-Cənub və həm də Şərq-Qərb nəqliyyat xətlərinin qovşağında yerləşən Azərbaycan yaranmış yeni reallıqları iqtisadi və geosiyasi üstünlüyə çevirmək imkanına malikdir. Bu amil ölkənin beynəlxalq logistika və tranzit sistemində rolunu daha da artırır və onu cəlbedici unikal mövqeyə malik ölkə kimi digər ölkələr üçün yeni əməkdaşlıq perspektivləri açır.

Prezident İlham Əliyevin 22-23 sentyabr 2025-ci il tarixlərində ABŞ-nin Nyu-York şəhərində keçirilən "Orta dəhliz boyunca: bağlantı, maliyyə və enerji" mövzusuna həsr olunmuş 6-cı Xəzər Biznes Forumuna ünvanladığı müraciətində qeyd edildiyi kimi: "Azərbaycanın əlverişli coğrafi mövqeyi - iki qitənin tam ortasında yerləşməsi bizə bağlılıq məsələlərində mühüm rol oynamağa imkan verir. Bu gün artıq fəxrlə deyə bilərik ki, Azərbaycanın uzunmüddətli baxışı və yorulmaz səyləri nəticəsində Asiya və Avropa arasında daha yaxşı sinerjini təmin edən Orta Dəhliz kimi irimiqyaslı layihənin reallaşması mümkün olmuşdur. Orta Dəhlizin tam istismara verilməsi Azərbaycanın iqtisadi potensialı ilə yanaşı, ölkəmizdə mövcud olan siyasi sabitlik və təhlükəsizlik amili ilə də şərtlənmişdir".

2010-cu illərdən etibarən qlobal geosiyasi rəqabətin kəskinləşməsi, o cümlədən ABŞ-Çin strateji rəqabətinin dərinləşməsi və dəniz nəqliyyatı marşrutlarının təhlükəsizliyi ilə bağlı risklərin artması fonunda quru nəqliyyat dəhlizlərinin strateji əhəmiyyəti xeyli dərəcədə artmışdır. Bu geostrateji zərurətin nəticəsi olaraq, Orta Dəhliz beynəlxalq əməkdaşlıq və çoxtərəfli razılaşmalar əsasında formalaşdırılmış, hüquqi və institusional əsası isə 2014-cü ilin fevralında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq qurumları tərəfindən imzalanmış sənədlərlə qoyulmuş beynəlxalq nəqliyyat təşəbbüsüdür.

Mənbəyini uzaq Çindən götürən, Mərkəzi Asiya vasitəsilə Xəzər dənizi üzərindən keçməklə Asiyanı Avropa ilə birləşdirən bu mühüm nəqliyyat və logistika marşrutu geniş coğrafiyada yerləşən dövlətlər arasında əlaqələrin inkişafına böyük imkanlar açır.

Orta Dəhlizin digər nəqliyyat marşrutlarından əsas fərqləndirici üstün cəhəti onun etibarlı və proqnozlaşdırıla bilən olmasıdır ki, bu da onu investorlar və yükdaşıyıcılar üçün daha cəlbedici edir.

Bu məqsədlə tranzit ölkələr Dəhlizin imkanlarının artırılması və nəqliyyat axıcılığının yaxşılaşdırılması istiqamətində iri layihələrin icrasını həyata keçirirlər.

Digər Orta Asiya ölkələrinin də bu Dəhlizə artan maraqlarını da nəzərə alsaq, yaxın gələcəkdə karbohidrogen ehtiyatlarının, qiymətli metalların, tekstil məhsullarının və tikinti materiallarının ixracı üçün Özbəkistanın, Tacikistanın, Türkmənistanın da bu pro-

sesə qoşulacağı proqnozlaşdırılır. Bu isə nəticə etibarilə regionda nəhəng nəqliyyat dəhlizinin formalaşması deməkdir.

Beynəlxalq nəqliyyat arteriyalarının kəsişməsində yerləşən və regional nəqliyyat şəbəkələrinin ayrılmaz tərkib hissəsi olan ölkəmizdə də hazırda nəqliyyat infrastrukturunun dayanıqlılığının artırılması istiqamətində irimiqyaslı layihələr icra olunur. Bu layihələr, öz növbəsində, Orta Dəhlizin yükdaşıma qabiliyyətinin artırılmasına, onun tranzit potensialının gücləndirilməsinə və beynəlxalq yükdaşımaların daha səmərəli təşkilinə öz müsbət təsirini göstərəcəkdir.

İstər Qədim İpək yolu olan Orta dəhliz, istərsə də Beynəlxalq Şimal-Cənub Nəqliyyat Dəhlizi baxımından Azərbaycan beynəlxalq logistika mərkəzinə çevrilməsi üçün mükəmməl infrastruktura malikdir.

Orta Dəhlizin multimodal nəqliyyat olduğunu nəzərə alsaq, səmərəliliyi artırmaq üçün burada bütün növ nəqliyyat növlərinin birgə koordinasiyalı və sistemli şəkildə fəaliyyət göstərməsi olduqca önəmlidir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində Azərbaycanda nəqliyyat infrastrukturunun inkişafı istiqamətində mühüm nailiyyətlər əldə edilmiş, avtomobil və dəmir yolları, dəniz və hava limanları tikilmiş və ya yenidən qurulmuş, eləcə də rəqəmsal idarəetmə sistemləri müasirləşdirilmişdir. Son 20 ildə yaradılmış geniş nəqliyyat infrastrukturu və həyata keçirilən sistemli islahatlar Azərbaycanın tranzit potensialını əhəmiyyətli dərəcədə artıraraq ölkəni regionun əsas nəqliyyat və logistika qovşağına çevirmişdir.

Belə ki, hazırda Bakı Beynəlxalq Dəniz Ticarət Limanının genişləndirilməsi istiqamətində layihənin ikinci mərhələsinin icrası həyata keçirilir ki, layihə tamamlandıqdan sonra limanın yükdaşıma qabiliyyəti illik 25 milyon ton səviyyəsinə yüksələcəkdir.

Bundan əlavə, Ələt Azad İqtisadi Zonasında ixtisaslaşmış aviasiya klasteri yaradılmaqdadır. Eləcə də beynəlxalq əhəmiyyətli və müasir standartlara uyğun Ələt ticarət limanı tikilib istifadəyə verilmişdir ki, Mərkəzi Asiyadan gələn yüklər məhz bu liman vasitəsilə Orta Dəhlizə yönəldilir.

Həmçinin ümumölkə üzrə dəmir yolu şəbəkələri tam elektrikləşdirilərək modernləşdirilir, yeni yüksəkötürücülü xətlər inşa edilir.

Orta Dəhlizin rəqəmsallaşdırılması istiqamətində atılan addımlar da xüsusi qeyd olunmalıdır. Belə ki, "Bir pəncərə" prinsipinin tətbiqi, elektron sənəd dövriyyəsinin genişlənməsi, sistemlərin qarşılıqlı uyğunluğunun artırılması və gömrük əməliyyatlarının avtomatlaşdırılaraq sadələşdirilməsi nəqliyyat-logistika infrastrukturunun inkişafında tranzit proseslərinin səmərəliliyini əhəmiyyətli dərəcədə artırır. Bu isə yükdaşımalarda şəffaflığın təmin olunmasına və dövlət-özəl tərəfdaşlığının genişləndirilməsinə xidmət edir.

Statistik göstəricilərə əsasən, 2024-cü ildə Orta Dəhliz üzrə yükdaşımaların həcmi əvvəlki illə müqayisədə 62% artaraq 4,5 milyon tona çatmışdır. 2025-ci ildə isə bu göstərici 5,2 milyon tona yüksəlmişdir. Mövcud hədəflərə əsasən, 2027-ci ilədək Orta Dəhliz üzrə illik yükdaşımaların həcminin 10 milyon tona, 2030-cu ilədək isə 11,4 milyon tona çatdırılması nəzərdə tutulur. Uzunmüddətli perspektivdə isə dəhlizin illik yükötürmə qabiliyyətinin 15 milyon tona çatacağı proqnozlaşdırılır.

Onu da qeyd edək ki, Orta Dəhliz üzrə həyata keçirilən infrastruktur layihələri yalnız yükdaşımaların həcminin artırılmasına deyil, eyni zamanda yükdaşımalarda zaman itkisi-

nin qarşısının alınmasına da xidmət edəcəkdir. Belə ki, əvvəllər Orta Dəhlizdə yükdaşımaların müddəti təqribən bir aya qədər olduğu təqdirdə, 30 oktyabr 2017-ci ildə istismara verilmiş Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi ilə Çindən Türkiyəyə yük daşımalarının müddəti 1 aydan 12 günə qədər azaldı. Bunun müsbət nəticəsidir ki, hazırda Çindən göndərilən yüklərin Türkiyə vasitəsilə Qərbi Avropaya tranzit müddəti cəmi 18 gün təşkil edir. Dəhlizin yüksək ötürücülük potensialını nəzərə alsaq, tranzit ölkələr tərəfindən mövcud infrastrukturun təkmilləşdirilməsinə yönəlmiş layihələrin planlı və ardıcıl şəkildə həyata keçirilməsi nəticəsində bu müddətin gələcəkdə daha da qısaldılması mümkün olacaqdır.

Müqayisə üçün qeyd edək ki, Şimal Dəhlizi ilə Çindən Avropaya yük daşımalar 10 min km qət edilməklə 15-20 gün ərzində, Dəniz İpək Yolu ilə isə 20 min km qət edilməklə 45-60 gün ərzində həyata keçirilir.

Orta Dəhlizin ümumi uzunluğu isə marşrutun seçilən istiqamətindən asılı olaraq təxminən 8-10 min km təşkil edir. Dəhlizin əsas hissəsini 4 256 km-lik dəmir yolu və 508 km-lik Xəzər dənizi keçidi təşkil edir. Daha sonra marşrut Gürcüstan üzərindən Türkiyəyə və Avropaya uzanır.

Hazırda Orta Dəhlizin səmərəliliyini artıracaq alternativ və tamamlayıcı marşrut kimi qiymətləndirilən Zəngəzur Dəhlizi (TRİPP) üzrə tikinti işləri sürətlə davam etdirilir. Azərbaycan bu istiqamətdə öz öhdəliklərini ardıcıl şəkildə yerinə yetirməklə zəruri nəqliyyat infrastrukturunu formalaşdırmaqdadır. Bu baxımdan, marşrutun istər Ermənistan ərazisindən keçməklə, istərsə də İran üzərindən alternativ xətt vasitəsilə reallaşacağı təqdirdə Azərbaycan tranzit daşımalarının həyata keçirilməsi üçün geniş imkanlara malik olacaqdır. Digər tərəfdən, Azərbaycan həm Gürcüstan üzərindən keçən mövcud marşrut, həm də gələcək perspektivdə Zəngəzur Dəhlizi vasitəsilə Avrasiya nəqliyyat şəbəkəsinin əsas tranzit qovşaqlarından biri kimi çıxış edir. Beləliklə, qeyd olunan amillər regional və qlobal yükdaşımalarında Azərbaycanın strateji rolunu daha da artırır.

Lakin Orta Dəhlizin səmərəliliyinə mənfi təsir göstərən bir sıra amillər də mövcuddur. Bunlardan biri də tranzit ölkələrdə, xüsusilə Qazaxıstanda liman və dəmir yolu infrastrukturunun yük götürmə imkanlarının yetərli səviyyədə olmamasıdır. Belə ki, infrastruktur imkanlarının məhdudluğu, logistika proseslərində yaranan gecikmələr və texniki çatışmazlıqlar nəticə etibarilə marşrutun rəqabət qabiliyyətinə ciddi mənfi təsir göstərən amillərdir.

Bu məqsədlə, Azərbaycan Orta Dəhlizdə ortaq maraqlara sahib Qazaxıstanla da əməkdaşlıq edir. Əməkdaşlıq çərçivəsində Aktau dəniz limanı xüsusi zonasında Azərbaycan sərmayəsi ilə "Aktau İstehsal və Logistika Mərkəzi" inşa edilibdir. Mərkəz iki ölkə arasında ticari-iqtisadi əlaqələrin inkişafında əhəmiyyətli rol oynayır.

Orta Dəhlizin geniş coğrafiyanı əhatə etdiyini nəzərə alsaq, bu marşrut xətti təkcə Şərqlə Qərbi birləşdirən iqtisadi əlaqələr baxımından deyil, eyni zamanda 1 trilyon ABŞ dollarından çox ümumi daxil məhsula (ÜDM) malik Türk Dövlətləri Təşkilatının (TDT) əsas əlaqələndirici xətti, türk dünyasının beynəlxalq məkana inteqrasiyası baxımından da olduqca önəmli ortaq yol kimi dəyərləndirə bilərik.

Beləliklə, Orta Dəhliz layihəsinin reallaşdırılması Azərbaycanın tranzit potensialının gücləndirilməsi ilə yanaşı, tərəfdaş dövlətlər arasında strateji, iqtisadi və geosiyasi baxımdan geniş perspektivlər vəd edir.



Afaq RAMAZANOVA
AMEA Folklor İnstitutunun direktor müavini,
filologiya üzrə fəlsəfə doktoru, dosent

Birinci Türkoloji Qurultayın 100 illiyi kontekstində Altayşünaslıq: folklorşünaslıq baxımından problemlər və perspektivlər

Altayşünaslıq humanitar elmlərin dilçilik, tarix, etnoqrafiya, folklorşünaslıq və mədəniyyətşünaslıq kimi müxtəlif sahələrinin kəsişməsində formalaşmış kompleks tədqiqat istiqamətlərindən biridir. Ənənəvi anlamda Altayşünaslıq türk, monqol və tunqus-mancur xalqlarının dillərini, tarixini, etnik-mədəni əlaqələrini və mənəvi irsini müqayisəli şəkildə araşdıran elmi sahə kimi səciyyələndirilir. Müxtəlif dövrlərdə koreya və yapon dillərinin də bu çərçivədə nəzərdən keçirilməsi Altayşünaslığın tədqiqat sərhədlərinin tarix boyu dəyişdiyini göstərir.

Altayşünaslığın meydana çıxması ilk növbədə dilçilik araşdırmaları ilə bağlı olmuşdur. Türk, monqol və tunqus-mancur dilləri arasında müşahidə edilən oxşarlıqlar onların mümkün genetik qohumluğu haqqında Altay nəzəriyyəsinin yaranmasına səbəb olmuşdur (F. J. von Strahlenberg, M. A. Castrın, G. J. Ramstedt, N. Poppe və b.). Lakin sonrakı araşdırmalarda bu oxşarlıqların mənşəyinin yalnız ortaq protodil fərziyyəsi ilə izah edilməsinə qarşı ciddi elmi arqumentlər irəli sürülmüşdür (G. Clauson, G. Doerfer və b.). Müasir dilçilikdə klassik Altay dil ailəsi nəzəriyyəsi mübahisəli elmi problemlərdən biri olaraq qalır, bu dillər arasında müşahidə edilən müəyyən paralellərin yalnız genetik qohumluqdan deyil, uzunmüddətli tarixi-mədəni əlaqələr və areal təmaslar nəticəsində formalaşması fikri də elmi ədəbiyyatda geniş müzakirə olunur (A.Şerbak, A. Vovin və b.).

Bu elmi mübahisə əslində Altayşünaslığın əhəmiyyətini azaltmır, əksinə, onun qarşısında yeni tədqiqat istiqamətləri açır. Çünki Altayşünaslığın predmeti yalnız dillərin genetik qohumluğunu müəyyənləşdirməkdən ibarət deyildir. Eyni coğrafi və tarixi areallarda uzun əsrlər boyu qarşılıqlı əlaqədə olmuş xalqların mədəniyyətlərinin, dünyagörüşlərinin, mifoloji sistemlərinin, mərasimlərinin və folklor ənənələrinin müqayisəli araşdırılması müasir Altayşünaslığın mühüm istiqamətlərindən birinə çevrilmişdir.

Altayşünaslıqla türkologiya arasında tarixən sıx elmi əlaqə mövcud olmuşdur. Türkologiyanın əsas tədqiqat obyektini türk dilləri, türk xalqlarının tarixi, ədəbiyyatı, folkloru, etnoqrafiyası və mədəniyyəti təşkil etdiyi halda, Altay-



şünaslıq türk xalqlarını daha geniş müqayisəli-tarixi və mədəni kontekstdə öyrənmək imkanı yaradır.

Bu baxımdan Altayşünaslığın türkologiyaya verdiyi əsas imkanlardan biri türk xalqlarına məxsus hadisələri yalnız türk dünyasının daxili materialları əsasında deyil, qonşu və tarixən təmasda olduqları xalqların materialları ilə müqayisədə araşdırmağa şərait yaratmasıdır. Belə müqayisə türk xalqlarının mədəniyyətində müşahidə edilən müəyyən hadisələrin hansı tarixi proseslərlə bağlı olduğunu daha dəqiq müəyyənləşdirməyə imkan verir.

Burada mühüm metodoloji məsələ meydana çıxır: oxşarlıq həmişə eyni mənşə demək deyildir. İki və ya daha çox xalqın dilində, folklorunda və yaxud mərasim sistemində müşahidə olunan paralellər müxtəlif səbəblərdən yarana bilər. Bunlar ortaq tarixi kökdən qaynaqlana, uzunmüddətli mədəni təmas nəticəsində bir xalqdan digərinə keçə və yaxud oxşar ictimai-mədəni şəraitdə bir-birindən asılı olmadan tipoloji şəkildə meydana çıxa bilər. Məhz Altayşünaslığın müqayisəli perspektivi türkologiyaya bu üç hadisəni - genetik ümumiliyi, tarixi-mədəni əlaqəni və tipoloji oxşarlığı bir-birindən fərqləndirmək üçün daha geniş material təqdim edir.

1926-cı ildə Bakıda keçirilmiş Birinci Türkoloji Qurultay XX əsr türkologiyasının mühüm elmi hadisələrindən biri olmuşdur. Qurultayın gündəliyində türk xalqlarının dilləri, əlifba məsələləri, terminologiya, tarix, etnoqrafiya, ədəbiyyat və digər humanitar problemlərlə bağlı məsələlərin geniş müzakirəsi türkologiyanın ayrı-ayrı lokal tədqiqatlardan daha geniş müqayisəli elmi müstəviyə çıxmaq meylini göstərirdi.

2026-cı ildə Birinci Türkoloji Qurultayın 100 illiyinin qeyd olunması həmin elmi irsə yalnız tarixi retrospektivdən yanaşmağı deyil, eyni zamanda yüz il ərzində türkologiyanın keçdiyi yolu və qarşısında duran yeni vəzifələri müəyyənləşdirməyi zəruri edir. Bu kontekstdə Altayşünaslıq xüsusi əhəmiyyət qazanır. Əgər XX əsrin əvvəllərində əsas məsələlərdən biri türk xalqlarının dillərinin, tarixinin və mədəniyyətinin sistemli şəkildə öyrənilməsi idisə, XXI əsrdə bu materialın daha geniş Avrasiya kontekstində və yeni metodoloji yanaşmalar əsasında araşdırılması aktuallaşır.

Beləliklə, Birinci Türkoloji Qurultayın 100 illiyi keçmiş elmi irsin sadəcə xatırlanması deyil, türkologiyanın gələcək istiqamətlərinin müəyyənləşdirilməsi üçün də mühüm elmi platforma kimi qiymətləndirilə bilər.



Altayşünaslığın perspektivli istiqamətlərindən biri folklor materiallarının müqayisəli araşdırılmasıdır. Türk, monqol, tunqus-mancur və digər qonşu xalqların folklorunda müşahidə olunan süjet, motiv, obraz, mərasim və mifoloji təsəvvürlərin müqayisəsi geniş bir mədəni areal daxilində folklor hadisələrinin inkişaf mexanizmlərini izləməyə imkan verir.

Folklorşünaslıq baxımından əsas məsələ müxtəlif xalqlarda oxşar motiv və obrazların mövcudluğunu sadəcə qeydə almaqdan ibarət olmamalıdır. Əsas elmi sual həmin oxşarlığın necə və hansı tarixi-mədəni şəraitdə meydana çıxmasıdır.

Bu baxımdan folklor paralellərinin araşdırılmasında üç əsas ehtimal nəzərə alınmalıdır: ortaq qədim mədəni irs, xalqlar arasındakı tarixi-mədəni əlaqələr nəticəsində yaranmış qarşılıqlı təsirlər və müstəqil tipoloji inkişaf.

Bu fərqləndirmə folklorşünaslıq üçün prinsipial əhəmiyyət daşıyır. Əks halda hər bir oxşar süjet və ya motivin avtomatik şəkildə "ortaq Altay irsi" kimi təqdim olunması təhlükəsi yaranır. Müasir müqayisəli folklorşünaslığın vəzifəsi isə paralelləri sadalamaqdan daha çox onların tarixi və funksional mahiyyətini müəyyənləşdirməkdir.

Altayşünaslıq folklor hadisələrini geniş coğrafi kontekstdə izləməyə də imkan verir. Eyni motivin, süjetin və yaxud mərasimin müxtəlif xalqlarda hansı variantlarda yaşaması, zaman keçdikcə hansı semantik dəyişikliklərə məruz qalması, hansı sosial funksiyaları yerinə yetirməsi müqayisəli araşdırmanın predmetinə çevrilə bilər. Belə yanaşma folklor mətnini yalnız keçmişdən qalmış mədəni fakt kimi deyil, müxtəlif tarixi dövrlərdə dəyişən, yeni mənalar qazanan və fərqli etnik-mədəni mühitlərə uyğunlaşan canlı sistem kimi öyrənməyə imkan verir.

XXI əsrdə Altayşünaslığın inkişaf perspektivləri ilk növbədə fənlərarası tədqiqatlarla bağlıdır. Dilçilik, folklorşünaslıq, etnologiya, antropologiya, tarix, arxeologiya və mədəniyyətşünaslığın nəticələrinin birgə istifadəsi qədim və müasir mədəni əlaqələrin daha obyektiv mənzərəsini yaratmağa imkan verə bilər.

Folklorşünaslıq baxımından isə müqayisəli-tarixi metodun müqayisəli-tipoloji, areal, antropoloji və performativ yanaşmalarla tamamlanması xüsusi əhəmiyyət daşıyır.

Rəqəmsal humanitar elmlərin inkişafı Altayşünaslığın qarşısında tamamilə yeni imkanlar açır. Müxtəlif xalqların folklor mətnlərinin vahid elektron bazalarının və müqayisəli korpuslarının yaradılması, süjet və motivlərin rəqəm-

sal indeksləşdirilməsi, onların coğrafi yayılmasının xəritələşdirilməsi geniş Avrasiya məkanında folklor proseslərinin yeni səviyyədə öyrənilməsinə imkan verə bilər.

Bu istiqamətdə beynəlxalq elmi əməkdaşlıq xüsusi əhəmiyyət daşıyır. Müxtəlif ölkələrdən olan alimlərin birgə layihələri, ekspedisiyaları, elektron məlumat bazaları və müqayisəli tədqiqatları Altayşünaslığın gələcək inkişafının mühüm şərtlərindən biridir.

Birinci Türkoloji Qurultayın 100 illiyi çərçivəsində keçirilən beynəlxalq elmi tədbirlər də bu mənada tarixi ənənə ilə müasir elmi axtarışlar arasında əlaqə yaradır. Altayşünaslığın dünəninin, bu gününün və gələcəyinin müzakirəyə çıxarılması yalnız bu sahənin keçdiyi yolun qiymətləndirilməsi deyil, onun gələcək metodoloji istiqamətlərinin müəyyənləşdirilməsi baxımından da əhəmiyyətlidir.

Bu istiqamətdə beynəlxalq elmi əməkdaşlıq xüsusi əhəmiyyət daşıyır. Müxtəlif ölkələrin alimlərinin iştirakı ilə həyata keçirilən birgə layihələr, ekspedisiyalar, elektron məlumat bazalarının yaradılması və müqayisəli tədqiqatların aparılması Altayşünaslığın gələcək inkişafının mühüm şərtlərindən biridir. Müasir Altayşünaslığın fənlərarası xarakteri isə belə əməkdaşlığın yalnız dilçiliklə məhdudlaşmadığını, tarix, arxeologiya, etnoqrafiya, antropologiya, folklorşünaslıq, ədəbiyyatşünaslıq, sənətşünaslıq və digər humanitar istiqamətləri də əhatə etdiyini göstərir.

Bu baxımdan Birinci Türkoloji Qurultayın 100 illiyi çərçivəsində 9-12 sentyabr 2026-cı il tarixlərində Bakıda keçirilmiş XIV Beynəlxalq Altay Topluluqları Simpoziumu - "Altay araşdırmalarının dünəni, bu günü və gələcəyi" xüsusi əhəmiyyət daşıyır. Azərbaycan Milli Elmlər Akademiyasının ev sahibliyi ilə təşkil olunan simpoziumda Azərbaycanla yanaşı, Türkiyə, Çin, Almaniya, Macarıstan, Hindistan, Yaponiya, Qazaxıstan, Qırğızıstan, Monqolustan, Şimali Makedoniya, Polşa, Rusiya, Tacikistan və Türkmənistan daxil olmaqla 15 ölkədən 130-a yaxın altayşünas alim iştirak etmişdir. 30 elmi iclas çərçivəsində keçirilən müzakirələr Altayşünaslığın artıq yalnız dilçilik problemi ətrafında formalaşmış tədqiqat sahəsi olmadığını, geniş fənlərarası elmi istiqamət kimi inkişaf etdiyini bir daha göstərmişdir.

Simpoziumda Altay araşdırmalarının keçmişi, müasir vəziyyəti və gələcək perspektivləri dilçilik, tarix, sənət tarixi, arxeologiya, etnoqrafiya, antropologiya, folklorşünaslıq, ədəbiyyatşünaslıq kimi müxtəlif elm sahələri çərçivəsində müzakirə edilmiş, yeni elmi nəticələrlə yanaşı, mövcud problemlər, onların həlli yolları və gələcək tədqiqat istiqamətləri də diqqət mərkəzində olmuşdur. Mövzuların belə geniş elmi spektri müasir Altayşünaslığın fənlərarası mahiyyətini və müxtəlif xalqların tarixi-mədəni əlaqələrinin öyrənilməsində kompleks yanaşmanın zəruriliyini nümayiş etdirir.

Folklorşünaslıq baxımından bu elmi platformanın əhəmiyyəti xüsusilə diqqətəlayiqdir. Türk və digər Altay topluluqlarının folklorunun geniş tarixi-mədəni areal daxilində müqayisəli öyrənilməsi ortaq və oxşar süjet, motiv, obraz, mifoloji təsəvvür və mərasimlərin sadəcə müəyyənləşdirilməsi ilə məhdudlaşmamalı, onların yaranma və yayılma mexanizmlərinin araşdırılmasına yönəlməlidir.

Bu mənada Bakıda keçirilən XIV Beynəlxalq Altay Topluluqları Simpoziumunu Birinci Türkoloji Qurultayın elmi ənənəsinin müasir şəraitdə davamı kimi də nəzərdən keçirmək mümkündür. 1926-cı ildə Bakıda türkologiyanın qarşısında duran problemlərin geniş elmi müzakirəyə çıxarıldığı məkanda yüz il sonra Altay araşdırmalarının dünəni, bu günü və gələcəyinin müzakirə edilməsi müəyyən mənada elmi varisliyin simvolik ifadəsinə çevrilmişdir. Bununla yanaşı, müasir mərhələdə əsas vəzifə əvvəlki nəzəri modelləri olduğu kimi təkrarlamaq deyil, yeni metodoloji yanaşmaların, fənlərarası tədqiqatların və beynəlxalq elmi əməkdaşlığın imkanlarından istifadə etməklə Altay xalqlarının dil, folklor və mədəniyyət əlaqələrini daha geniş elmi kontekstdə araşdırmaqdır.



Orxan İSAYEV
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, filologiya üzrə fəlsəfə doktoru

Türkmanların Suriyada yerləşməsi və türkman yurdları

Suriyada ərəblərdən sonra ikinci ən böyük etnik qrup türkmanlardır. Müxtəlif mənbələrin verdiyi məlumata görə, sayları 3-3,5 milyon olan türkmanlar Suriya əhalisinin 13,5-15 faizini təşkil edir. Türkmanlar müasir Suriyanın, demək olar ki, bütün ərazisinə yayılıb. Lakin daha çox paytaxt Dəməşqdə (Şam) və Hələbdə yaşadıqları qeyd edilir.

Türkmanların Suriya torpaqlarına kütləvi köçü Səlcuqlar dövrünə təsadüf edir. Lakin müxtəlif dövrlərdə türk tayfalarının Qərbə doğru axınları Suriya ərazisində də türk izlərinin qalmasına səbəb olmuşdur. Ərəb tarixçisi Təbəri 745-ci ildə Xilafətdə baş verən hadisələri təsvir edərkən Suriya ərazisində "əl-Ğuziyyə" adlı yerdən bəhs edir. Bu faktın özü sübut edir ki, artıq VIII əsrdə Suriya torpaqlarında türklər-oğuzlar yaşayırdı və onların məskunlaşdığı ərazi də məhz tarixi qaynaqlarda oğuz torpaqları kimi qeyd olunurdu. Müasir türkmanların Suriyaya köçü isə, qeyd etdiyimiz kimi, Səlcuqlar zamanına təsadüf edir. Osmanlı mənbələrində Suriyaya köç edən ilk türkman tayfalarına Xanoğlu Harun ət-Türkman adlı şəxsin rəhbərlik etdiyi yazılır. Onun tabeliyində olan min türkman atlısı Anadoludan Hələbə köçərək orada yerləşmişdir. Bir müddət sonra, daha dəqiq desək, XI əsrin II yarısında Ərbasqan adlı şəxs Qurlu, Atsız, Şöklü və digər türkman tayfalarının rəhbərlərini öz ətrafına çəkərək o dövrdə Misirdə Fatimilər dövlətinin nəzarətində olan Suriya və Fələstin torpaqlarına gələrək bu ərazilərdə Səlcuq dövlətinin yaranması üçün ilk addımları atmışdılar. Tarixdə Suriyaya köçən bu tayfalar Nəvakiyyə türkmanları adı ilə xatırlanır. Nəvakiyyə türkmanları bir zamanlar Balxan dağlarında yaşayan türkman tayfaları idi. Onlar Səlcuq hökmdarına tabe olmaq istəməmiş və kütləvi halda Xorasana, oradan isə Azərbaycan, Anadolu və İraq ərazilərinə köç etmişlər. Maraqlıdır ki, tarixi mənbələrdə Balxan türkmanları daha çox İraq türkmanları kimi qeyd edilir. Fikrimizcə, türkmanların adı çəkilən ərazilərdə yerləşməsindən sonra onların bir hissəsi Nəvakiyyə adı ilə digərlərindən ayrılmışdır. Suriya və Fələstinə köçən türkman tayfaları da məhz Nəvakiyyə türkmanları idi. Suriya türkmanlarının tarixini araşdıran Tarix Sulo Cevizçi türkmanların Suriya torpaqlarına axın etməsini 4 böyük dönəmə ayırır:

I dönəm: VII-VIII əsrlər İslamın meydana gəlməsi ilə;

II dönəm: Səlcuqlu axınları ilə;

III dönəm: Monqol hücumları zamanı:

IV dönəm: Osmanlı dövlətinin Suriyanı istila etməsi ilə.

Sözsüz ki, Yaxın Şərqə türkmanların ən böyük köçü Səlcuq dövlətinin zamanına təsadüf edir. İraq, Suriya, Livan, İordaniya, Fələstin hətta Misirə qədər böyük bir ərazidə məskunlaşan türkmanlar Səlcuq dövlətinin süqutundan sonra bura-



da kiçik dövlətlər yaratmağa, regionun tarixi, siyasi-ictimai həyatında önəmli rol oynamağa başladılar.

Monqol yürüşləri zamanı Orta Asiyadan Qərbə doğru sonuncu türkman axınları reallaşdı. Çingiz xanın dağıdıcı hücumlarından qorunmaq məqsədilə türkmanlar soydaşlarının bir neçə əsr öncə məskunlaşdıqları Qafqaz, Anadolu və Yaxın Şərq torpaqlarına pənah gətirdilər. Bununla bir neçə yüzilliklərlə davam türkmanların Şərqdən Qərbə axın etmələrinə son qoyuldu.

Osmanlı dövləti zamanında isə türkmanların daxili yerdəyişmələri ön plana çıxdı. Osmanlı sultanlarının siyasəti nəticəsində Anadoluda məskunlaşmış türkman tayfalarının böyük bir qismi İraq və Suriyaya köçürüldü. Tarixi mənbələrdə bunu Osmanlı dövlətinin ərəb torpaqlarında öz dayaqlarını möhkəmləndirmək və Həcc yolunun təhlükəsizliyini təmin etmək məqsədilə həyata keçirdiyini yazsalar da, burada dövlətin özünün təhlükəsizliyi məsələsinin əsas götürüldüyü diqqət yayınmır. Tarixə nəzər saldıqda görürük ki, osmanlıların türkmanları Anadoludan sürgün etməsi daha çox Sultan Səlimin hakimiyyəti illərinə təsadüf edir. Bu da dövlətin Şərqdə daha bir güclü türk dövləti olan Səfəvilərlə mübarizəsi dövrü ilə üst-üstə düşür. Anadoluda məskunlaşmış türkman tayfalarının qızılbaşlara rəğbəti heç kim üçün sirr deyildi və bu, Osmanlı sarayını ciddi şəkildə narahat edirdi. Şərq sərhədlərinin təhlükəsizliyini qorumaq məqsədilə türkman tayfalarının böyük bir hissəsi həmin ərazilərdən uzaqlaşdırıldı. Təbii ki, Suriyanın təbiəti, iqlimi türkmanlar üçün əlverişli deyildi. Məhz buna görə də bir sıra türkman tayfası Osmanlının köçürmə siyasətinə qarşı çıxaraq iki istiqamətdə hərəkət etməyə başladılar. Birinci qrup Osmanlı dövlətinin sərhədləri daxilində olan Toros və Egeyə yollandı. İkinci qrup türkmanlar isə Osmanlı dövlətinə qayıtmadılar. Onlar Firuz adlı rəhbərlərinin başçılığı ilə Təbrizə pənah gətirdilər.

Türkmanlar Osmanlı dövlətinin köçürmə siyasətindən narazı olsalar da, böyük bir hissəsi taleyi ilə barışıb Suriya ərazisində daimi olaraq yerləşdilər. Bu gün müasir Suriyanın ərazisinə nəzər saldıqda, məlum olur ki, türkmanlar bu ölkənin bütün ərazisində yaşayırlar. Lakin onların daha kompakt məskunlaşdığı əraziləri 5 əsas bölgəyə ayırmaq mümkündür. Suriyanın şimalında Hələb və İdlibdə daha çox türkman yaşayır. Bu bölgə ərazi etibarilə də həm İraqın, həm də Türkiyənin türkmanlar yaşayan hissəsinə yaxındır. Şimal-qərb bölgəsində yaşayan türkmanlar isə Lazkiyə adlanan ərazidə məskunlaşıblar. Onlara daha çox Bayır-Bucaq türkmanları adı ilə tanınır. Üçüncü bölgə ölkənin mərkəzində yerləşən Hama və Humus, eləcə də Humus və Tartus arasında yerləşən ərazidir. Ölkənin cənub ərazilərində isə türkmanlar daha çox Şam, Horan və Qolan ərazilərində məskən salıblar. Son illərdə Suriyada baş verən hərbi-siyasi şərait Qolanda yaşayan türkmanların ərazini tərk etməsi ilə nəticələnib. Bu gün demək olar ki, Qolanda türkmanlar qalmayıb. Onlar daha çox paytaxt Şama və Hələbə köç ediblər. Bununla belə, Qolan türkmanları öz varlıqlarını qoruyub saxlamaq üçün köç etdikləri şəhərlərdə təşkilatlanmaya üstünlük verir, müxtəlif təşkilatlar, ictimai birliklər yaradaraq yenidən doğma yurdlarına dönməyə çalışırlar. Türkmanların Suriya ərazisində ən az məskunlaşdıqları ərazi isə Cəzirə bölgəsinin Rakka, Hasəkə və Deyri-Zor şəhərləridir.

Yaxın Şərqdə türkmanların kütləvi şəkildə yaşadıqları ölkələrdən biri də Livan hesab olunur. Maraqlıdır ki, türkmanların Livan ərazisində məskunlaşması da Suriyada məskunlaşmanın davamı və tərkib hissəsi hesab olunmalıdır. Belə ki,

X-XI əsrlərdə indiki Livan ərazisi də Suriya torpaqları kimi tanınırdı. Səlcuqlar zamanı Suriyaya köçən türkmanların bir hissəsi bir qədər də qərbə gedərək sonradan Livan adlandırılacaq ölkənin ərazisində məskunlaşdılar. Osmanlı dövlətinin bu ərazilərə nəzarət etdiyi illərdə Livan və Suriya bir ərazi kimi, Böyük Suriya və ya Şam vilayəti adı altında idarə olunurdu. XX əsrin 20-ci illərində Fransanın nəzarəti ilə yaranan Livan dövləti konkret sərhədlərlə Suriyadan ayrıldı və türkmanların bir hissəsi yeni yaranmış dövlətin tərkibində qaldı.

Əsrlərdir Suriyada məskunlaşan türkmanlar ölkənin siyasi-ictimai həyatında mühüm rol oynamış, bu ərazilərdə bir sıra dövlət yaratmağa nail olmuşlar. Tarixin müxtəlif dövrlərində ayrı-ayrı türkman tayfaları önə çıxmış, bir növ digər tayfalara öndərlik etmişlər. Bu tayfaların Azərbaycanla bağlılığı təkcə etnik cəhətdən deyil, həm də siyasi baxımdan çox güclü olmuşdur. Azərbaycanın dövlətçilik tarixində mühüm rol oynamış Səfəvilər dövlətinin yaranmasında da türkman tayfalarının böyük payı vardır. Belə ki, Hələb və Şam türkman tayfaları vaxtilə Şeyx Cüneydə və Şeyx Heydərə göstərdikləri dəstəyi I Şah İsmayıla da göstərmiş, onun Azərbaycan torpaqlarında dövlət yaratmasına köməklik etmişlər. Təsadüfi deyil ki, Şah İsmayılın yanında olan türkman tayfalarından Təkəlü, Şamlu, Dülqədirli, Qaramanlı, Gündüzlü, Alplu, Əfşar, Qədirli və s. böyük bir hissəsi məhz Şamda və Hələbdə yaşayan türkmanlar idi.

İraq türkmanlarından fərqli olaraq Suriya türkmanlarının ədəbiyyatı, dili, folkloru kifayət qədər geniş şəkildə öyrənilməmişdir. Bunun başlıca səbəblərindən biri türkmanların ərəb təsirinə daha çox məruz qalması, milli-mənəvi dəyərlərini istənilən səviyyədə qoruyub saxlamamaları ilə əlaqəlidir. Türkman tayfalarının Suriyanın müxtəlif ərazilərinə səpələnməsi, bir-biriləri ilə sıx şəkildə əlaqə saxlamamaları da buna səbəb olan amillərdəndir. Müqayisə üçün deyək ki, İraq türkmanları daha çox ölkənin daxilində Türkmaneli adlanan ərazidə məskunlaşıblar. Türkmaneliyə daxil olan şəhərlər, qəsəbələr, kəndlər bir-birinə yaxındır və türkmanlar əsrlərdir iç-içə yaşayır, dil xüsusiyyətlərini, folklor dəyərlərini, ədəbiyyatlarını yaşadırlar. Suriya türkmanları isə bu imkandan məhrumdurlar.

Tarixi məlumatlar Yaxın Şərqdə, eləcədə Suriyada məskunlaşmış türkmanların etnik cəhətdən Azərbaycan türklərinə bağlı olduğunu göstərir. Bunu Suriya türkmanlarının məişət dili, folklor nümunələri, müxtəlif adət və ənənələri də sübut edir. Suriya türkmanlarının atalar sözlərinə nəzər saldıqda, Azərbaycanda olan atalar sözlərinin ya eynisini, ya da cüzi dəyişikliklə başqa bir variantını görmək olar. Məsələn: "Saxla samanı, gəlir zamanı", "Dağ dağa ğavuşmaz, insan insana ğavışır", "Alışmaq ğudurmaqdan bətərdir", "Datlı söz ilanı dəliginnən çıxarır" və s. Eyni tendensiya xalq təfəkküründün məhsulu olan dördlük şeir şəkillərində də müşahidə olunur:

Aya baxtım, ay bayaz,
Ğıza baxtım, ğız bayaz,
Cebə baxtım, para az,
Dedim bu ğız yaramaz.

***

Daş altında bastırma,
Ğız saçını kəstirmə.
Kəstirirsən az kəstir,
El-oğlana göstərmə.

***


Əmmim oğlu Musacıq
Əni, ğoli ğıssacıq.
Hindi gəlir görirsin,
Gülmədən də ölirsin və s.

Şifahi xalq ədəbiyyatının ən böyük janrı olan dastanlar da Suriya türkmanları arasında kifayət qədər geniş şəkildə yayılıb. Dədə Qorqud hekayələri, "Koroğlu", "Aşıq Qərib", "Şah İsmayıl" və digər Azərbaycan şifahi xalq ədəbiyyatında mövcud olan dastanlar Suriya türkmanları tərəfindən də yaşadılır.

Sözsüz ki, Suriya türkmanları ilə bağlı elmi tədqiqatlar genişləndikcə, ortaq dəyərlər daha çox üzə çıxacaq, Azərbaycan etnomədəni məkanının sərhədələri Suriya torpaqlarına qədər uzanacaq.

50 illik sirr açıldı: alimlər yeni qan qrupu müəyyən etdilər

Alimlər 1972-ci ildən bəri cavabsız qalan qan qrupu sirrinin genetik səbəbini müəyyənləşdiriblər.



Bu barədə ScienceDaily Bristol Universitet araşdırmasına istinadən məlumat yayılıb.

Tədqiqat nəticəsində AnWj antigeninin MAL adlı zülalla əlaqəli olduğu müəyyənləşdirilib və MAL ayrıca qan qrupu sistemi kimi təsnif edilib.

Kəşf xüsusilə son dərəcə nadir AnWj-mənfi qanı olan insanların müəyyənləşdirilməsi üçün əhəmiyyətlidir. Bu, uyğun donorların tapılmasını və təhlükəli transfuziya reaksiyalarının qarşısının alınmasını asanlaşdıra bilər.

Tarixdə ilk: İnsanla robot arasında döyüş keçirilib

Tarixdə ilk dəfə insanla robot arasında döyüş San-Fransiskoda keçirilib. Qarşılaşma sentyabrın 18-də baş tutub. Bu barədə döyüşün təşkilatçısı REK ("Robot Entertainment Kombat") və iştirakçı Frenki Lapenna "X" sosial şəbəkəsində məlumat verib.

Rinqdə bloqer Frenki Lapenna "Terminator" filmindəki personaja bənzəyən, antropomorfik kiborq "EngineAI T800" ilə qarşılaşıb. Robotun boyu 183 santimetrdir. Rəqiblər döyüş zamanı bir-birlərinə zərbələr endiriblər. Robot avtonom fəaliyyət göstərməyib və virtual reallıq eynəyi vasitəsilə operator tərəfindən idarə olunub. Lapenna zədələrdən qorunmaq üçün xüsusi qoruyucu geyimdən istifadə edib. Bu, ağır xəsarətlərdən yayınmağa kömək edib. Lakin onun sözlərinə görə, robota zərbə endirərkən qolunu sındırıb. Qeyd edək ki, yaz aylarında humanoid robotlar Pekində keçirilən qaçış yarışında peşəkar idmançıları geridə qoyublar. Daha sonra çinli kiborq 100 metr məsafəni 9.32 saniyəyə qət edərək dünya rekordu müəyyənləşdirib. Digər robot isə alpinizmdə fərqlənib və 6 min metr yüksəklikdə yerləşən zirvəyə qalxıb.



Beş il sonra nə baş verəcək? - Süni intellektlə bağlı ciddi XƏBƏRDARLIQ

Yaxın beş il ərzində insanları bütün koqnitiv tapşırıqlarda üstələyən süni intellekt (Sİ) sistemləri üzərində insan nəzarətinin əhəmiyyətli dərəcədə itirilməsi riski yarana bilər.

Bu barədə sentyabrın 23-də Böyük Britaniyanın Alan Türinq İnstitutunun rəsmi saytında yayımlanan hesabatda bildirilib. Araşdırmanın



müəllifləri qeyd ediblər ki, yaxın beş il ərzində daha güclü və avtonom Sİ sistemləri meydana çıxa bilər. Bu sistemlərin davranışlarını insanların qiymətləndirməsi, nəzarətdə saxlaması və zərurət yarandıqda fəaliyyətini dayandırması daha çətin olacaq. İnstitut vurğulayıb ki, uzunmüddətli təhdidlərlə bağlı qeyri-müəyyənlik artıq mövcud olan risklərin aradan qaldırılması istiqamətində görülən işlərə mane olmamalıdır. Hesabatda kibertəhlükəsizlik və demokratik proseslər üçün təhdidlər, Sİ-nin fəaliyyətinin insan niyyətləri ilə uyğunsuzlaşması, eləcə də mümkün kimyəvi və bioloji risklər də qeyd olunub. İnstitut ayrı-ayrı modellərlə yanaşı, istifadəyə verildikdən sonra bütöv Sİ sistemlərinin də yoxlanılmasına və nəzarətdə saxlanılmasına çağırıb.

Çindən dronlarla bağlı DÜNYA REKORDU

Çin hovuzda keçirilən sınaq zamanı eyni vaxtda buraxılan sualtı dronların sayına görə dünya rekordu müəyyənləşdirib.



"South China Morning Post" (SCMP) qəzeti xəbər verir ki, Çin komandası eyni vaxtda işləyən avtonom sualtı dronların sayına görə dünya rekorduna imza atıb. Sınaq zamanı 100-dən çox kiçik robot suya buraxılıb.

Rekordu Şimal-Qərb Politexniki Universitetinin komandası müəyyənləşdirib. Bu nailiyyət, həmçinin "eyni vaxtda işləyən sualtı aparatların ən çox sayı" kateqoriyasında "Ginnesin Rekordlar Kitabı"na daxil edilib. Sınaq zamanı 116 ədəd "TH-618" avtonom sualtı aparatından istifadə olunub. Onlar uzunluğu 50, eni isə 20 metr olan hovuzda işə salınıb.

Dronlar 34 dəqiqə ərzində əvvəlcədən müəyyən edilmiş marşrut üzrə, real vaxt rejimində əldə etdikləri məlumatlar əsasında, avtonom şəkildə, qrup halında sualtı naviqasiya həyata keçiriblər.

Gecələr günəş işığı satılacaq: Qeyri-adi layihə

ABŞ-nin Kaliforniya ştatında yerləşən "Reflect Orbital" startapı gün batandan sonra günəş işığını satmağı planlaşdırır.



"The Economist" nəşrinin məlumatına görə, artıq 28 milyon dollardan çox sərmayə cəlb edən şirkət 625 kilometr hündürlükdə 160 kvadratmetr sahəsi olan güzgülü peyk hazırlayır.

Bu qurğu Yerdə diametri 5,5 kilometr olan ərazini işıqlandırmaq gücünə sahib olacaq. Startap nümayəndələri bildirirlər ki, bu cür 76 peyk planetin istənilən nöqtəsini bütöv ayın işığına bərabər səviyyədə işıqla təmin edə bilər.

Şirkət gələcəkdə günəş elektrik stansiyaları, xilasetmə əməliyyatları, mədənlər, kurortlar və şəhər işıqlandırması üçün on minlərlə daha böyük güzgü buraxmağı hədəfləyir.

Bununla yanaşı, astronomlar işıq çirklənməsi riski ilə bağlı xəbərdarlıq edirlər. Mütəxəssislər bildirirlər ki, böyük güzgünün təsir zonasında ulduzlar görünməyə bilər, 400 peykin işığı isə 80 kilometrədək məsafədən seçilə bilər. "Reflect Orbital" rəhbərliyi isə teleskopların yaxınlığında güzgüləri söndürəcəyinə söz verir.



Əzizağa NƏCƏFZADƏ
Qarabağ Universiteti, Xankəndi şəhəri,
filologiya elmləri doktoru, dosent

Qasim bəy Zakir və Şuşa

Azərbaycan ədəbiyyatı tarixinə dair yazılı materiallara nəzər saldıqda ilk olaraq XI-XVI əsrlərdə saraylarda yaranan və daha çox saraylarla bağlı olan ədəbiyyatımız nəzərə çarpır, daha sonra bu möhkəm özül üzərində ucalan XIX əsr ədəbiyyatımız göz önünə gəlir. Sadalanan zaman kəsimlərində biz yüzlərlə ədibin adına, iri həcmli əsərlərə, ədəbiyyatımızı zənginləşdirən yeni janr və formalara rast gəlirik. Dünya ədəbiyyatı tarixi ənənəsindən çıxış etsək, qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı mərhələsini "qızıl dövr" kimi xarakterizə edə, XIX əsr Azərbaycan ədəbiyyatını isə ədəbiyyatımızın "gümüş dövrü" adlandıra bilərik.

Bəllidir ki, bədii ədəbiyyat da daxil olmaqla mədəniyyət ictimai-siyasi vəziyyətin daha stabil vəziyyətə düşdüyü şəraitdə inkişaf edir. XIX əsrin ortalarına doğru ölkəmizdə belə bir münbit tarixi şərait yarandı. Çar Rusiyası və Qacarlar dövləti arasında müharibələrdən sonra Azərbaycan sabit siyasi və inzibati sistemə daxil oldu və ölkəmizdə ədəbiyyat, poeziya, müsiqi yenidən dirçəldi, Avropa ənənəsi ilə tanışlıq isə yeni inkişaf yoluna zəmin yaratdı. Firudin bəy Köçərli "Qafqaz tatarlarının ədəbiyyatı" əsərində bu dövrü xarakterizə edərkən yazırdı ki: "XIX əsrin II yarısı Azərbaycan ədəbiyyatının ən səmərəli və xoşbəxt bir dövrü idi" [3, s. 31]. Bu baxımdan Avropa termini ilə XIX əsri Azərbaycan ədəbiyyatının bir növ klassisizmi kimi də xarakterizə edə bilərik.

Haqqında danışdığımız son mərhələdə poetik istedadı və ənənə içində novatorluq qabiliyyəti ilə seçilən sənətkarlardan biri isə Qasım bəy Zakirdir.

Qarabağ ədəbi mühitinin yetirməsi, incə ruhlu lirik şeirləri ilə zamanında şöhrət qazanan və Azərbaycan ədəbiyyatında ictimai satiranın əsasını qoyan Zakir haqqında danışarkən istər-istəməz XIX əsrin Şuşası yada düşür. Fikrimizcə, məsələyə aşağıdakı istiqamətlərdən yanaşmaq daha doğru olar:

1. *Q.Zakirin həyatının Şuşa şəhəri ilə bağlı əlamətdar tarixləri;*
2. *Şuşa şəhərinin keçmişinin Q.Zakir yaradıcılığında təsvirinə dair nümunələr;*
3. *Şuşanın ictimai-siyasi həyatında baş verən hadisələrə Q.Zakirin bir ziyalı kimi reaksiyası, haqsızlıqlara, özbaşnalığa etirazı və müşahidə etdiyi bir sıra neqativ hallara tənqidi yanaşmasının yaradıcılığında izləri;*
4. *Şuşa ziyalılarının, şəhər elitasının Q.Zakirə münasibətinin dövrün yazılı materiallarında fiksə edilməsinə dair faktlar.*

Onun həyat və yaradıcılığı haqqında ilk münasibətə Şuşa şəhərinin yetirmələrinin irsində rast gəlirik. Belə ki, görkəmli təzkirəçi, ensiklopedik zəka sahibi və şair Mir Möhsün Nəvvab "Təzkireyi-Nəvvab" əsərində Zakirin şəxsiyyəti və həyatı haqqında ilk dəfə müxtə-

sər məlumat vermişdir. Qarabağın digər görkəmli yetirməsi Firidun bəy Köçərli də ədəbiyyat tariximizi yazarkən ("Литература Азербайджанских татар") Zakirin həyat və yaradıcılığı barədə maraqlı faktlar açıqlamışdır. Qarabağlı ziyalılarımız Yusif Vəzir Çəmənzəminli ("Zakirin inqilab əndişəsi"), Nəcəf bəy Vəzirov ("Məktubat", "Əkinçi" qəzeti, 12 may 1877) və başqaları Zakirin ədəbiyyatımızdakı mövqeyini doğru müəyyən etmiş, onun irsinə yüksək qiymət vermişlər. Zakirin ilk şeirlərindən biri də ("Neçələr silsileyi-təbimə təhrik verir" misrası ilə bağlayan həcvi) məhz Şuşalı ziyalı Mirzə Yusif tərəfindən "Məcmuəyi-divani-Vaqif və digər müasirləri" (Teymurxanşura, 1856) adlı topluya daxil edilərək çap edilmişdir. Yəni Zakirin Şuşa ədəbi mühitinin içindən çıxan, bu mühitə nüfuzedici təsir göstərən sənətkar olduğu Şuşalı ədiblərimizin irsinə nəzər yetirdikdə bir daha təsdiqini tapır.

Zakirin şeirlər "Divan"ının tərtibi, əsərlərinin geniş oxucu kütləsinə çatdırılmasının ilk təşəbbüsü isə ədibin yaxın dostu Mirzə Fətəli Axundzadənin adı ilə bağlıdır. Qeyd etməliyik ki, "Divan"ın tərtibinə qərar verilməsi də, ərsəyə gəlməsi prosesi də, nəşrə hazırlanması ideyası da elə Şuşa şəhəri ilə bağlıdır. Belə ki, Qasım bəy Zakir həmin bu şeir toplusunu Mirzə Fətəlinin Şuşada yaşadığı on ay müddətində, onun yaxından köməyi ilə tərtib etmişdir. M.F.Axundzadə divanın bədii təsnifatını hazırlamış, bəzi şeirlərin üzərində müəyyən düzəlişlər etmiş, burada adları çəkilən tarixi şəxsiyyətlər barədə yığcam izahlar vermişdir.

Bəs Zakirin həyat tarixçəsində bu unikal şəhərlə bağlı başqa hansı mühüm məqamlar var? Zakirin tərcümeyi-halını yazan bir çox tədqiqatçılar (Kamran Məmmədov, Feyzulla Qasımzadə və başqaları) onun həyatının ilk illəri haqqında məlumat verərkən yazırlar: "Əslən Qarabağın məşhur Cavanşirlər nəslindən



olan Qasım bəy Zakir 1784-cü ildə Şuşa şəhərində anadan olmuş, ilk təhsilini Şuşada mollaxanada almışdır. Onun ulu babası Kazım ağa Şuşa şəhərinin əsasını qoyan Pənahəli xanın doğma qardaşı idi" [Bax: 1, s. 206; 4, s. 5] Lakin Qasım bəy Zakirin son elmi tərcümeyi-halını hazırlayan filologiya elmləri doktoru, professor Raqub Kərimovun tədqiqatları bu faktlardan bir qismi ilə razılaşmamağa əsas verir. Belə ki, alim Əlyazmalar İnstitutunda qorunan yazılı qaynaqlardan çıxış edərək Qasım bəy Əli bəy oğlunun 1784-cü ildə indiki Ağdam şəhərinin yaxınlığında yerləşən Yedditəpə ərazisindəki Sarıcalı kəndində anadan olduğunu müəyyən edib. Mənbələrdə Zakirin Xındırısatanı ilə yanaşı, Sarıcalı nisbəsi ilə də təqdim olunması və M.F.Axundzadənin Əlyazmalar İnstitutundakı şəxsi arxivində mühafizə olunan yuxarıda haqqında müxtəsər məlumat verdiyimiz Zakir divanının üz qabığında da "Min kəlami-Qasım bəy öz eli-Sarucaliyi Cavanşir və təxəllüs Zakir" qeydi bunu təsdiqləyir. Lakin bu fakt onun Şuşa ilə bağlılığı məsələsini təkzib etmir. Artıq qeyd etdiyimiz kimi, mənbələr onun Şuşa ilə sıx əlaqəsinin olduğunu təsdiq edir. Məsələn, M.M.Nəvvab öz təzkirəsində Zakir haqqında yazırdı: "[Zakir] həmişə mənim Qurandan dərs dediyim

məktəbin qarşısında oturacaq yerində əyləşərdi. Hər dəfə də əlində qələm və kağız olardı və şeir yazardı" (7, s. 58). Deməli, Nəvvabın mədrəsəsinin Şuşada olduğunu nəzərə alsaq, Zakirin əsasən Xındırıstanda yaşamasına rəğmən, tez-tez Şuşaya gəldiyini və günlərinin çoxunu Qalada keçirdiyini iddia edə bilərik. Belə ki, Firidun bəy Köçərli də atası Əhməd bəyin onu Şuşada tez-tez gördüyünü rəvayət etdiyini göstərmişdir. Müasirlərinin qeydlərindən Zakirin daha çox ilin yay fəslini qalada keçirdiyi bəlli olur. Onu da qeyd edək ki, Kamran Məmmədovun 1984-cü ildə nəşr olunan "Qasım bəy Zakir" monoqrafiyasında şairin Şuşadakı evinin fotosu da verilmişdir (Bax: 4, s. 65). Hətta Zakirin dostlarından birinə ünvanladığı bir mənzum məktubunda naxoşladığından Şuşaya gələ bilmədiyini yazmışdır:

Mənə buyurmuşdun Qələyə gəlsin,
Yenə cuşa gəlib bəhri-iltifat.
Sənin mərhəmətin, mənim ixlasım
Mehri-münəvvər tək aləmə isbat [2, s. 375].

Beləliklə, mənbələr Zakirin ömrünün ilk və son çağlarının məhz Şuşa şəhərində keçdiyini təsdiqləməkdədir.

Professor Kamran Məmmədov yazır: "Qasım bəyin uşaqlıq, yeniyetməlik və gənclik illəri Şuşanın günü-gündən çiçəklənməsi, bir ticarət şəhəri kimi böyüməsi dövrünə təsadüf edir" [4, s. 7] Qasım bəy Şuşada mollaxana təhsili almış, burada ərəb-fars dillərini, Şərq klassiklərinin yaradıcılığı ilə ilk dəfə yaxından tanış olmuşdur. Zakirin mədrəsə təhsili illəri Ağa Məhəmməd şah Qacarın Şuşanı mühasirədə saxlayıb, nəhayət işğal etdiyi illərə təsadüf edir. Zakir xalqın sevimlisi Molla Pənah Vaqifin oğlu Qasım ağa ilə birlikdə Məhəmməd bəy Cavanşirin hökmü ilə Cıdır düzündə edam olunmasının da şahidi olmuşdu.

1805-ci ilin 14 yanvar tarixində bağlanmış "Kürəkçay" müqaviləsinə görə, Qarabağın Rusiya imperiyasına birləşdirilməsi, 1806-cı ilin 2 iyun gecəsində İbrahim xanın on yeddi nəfər ailə üzvü ilə birgə qətlə yetirilməsi xəbəri də 21-22 yaşlı gənc Qasım bəyi Şuşada olarkən sarsıtmışdı. Həmin ildə Abbas Mirzə Qarabağı, Şuşanı geri qaytarmaq üçün qoşun çəkəndə isə Zakir rus generalı Lisaneviçin tərəfində, ona qarşı vuruşanların sırasında yer almışdı. Bunu o, özü də 1826-cı ildə general Abxazova yazdığı məktubunda da təsdiqləyirdi.

Onu da qeyd etməliyik ki, Abbas Mirzənin qoşunları 1825-ci ilin iyul ayında Şuşanı təkrar mühasirəyə alarkən Zakir öz dostları və digər həmvətənləri ilə birgə qalanı 48 gün müdafiə edənlərin sırasında olmuşdu.

Onunla birlikdə mollaxanada təhsil alan məşhur "Qarabağnamə" müəllifi Mirzə Adıgözəl bəyin (şair "Car müqəddiməsi" şeirində də Şuşalı ziyalı Mirzə Adıgözəl bəyin adını çəkir) qeydlərindən və Qasım bəyin öz ərizəsindən də öyrənirik ki, Zakir də digər həmvətənləri kimi Çar məmurlarının rusların yerlərdə müstəqil idarəetməni dəstəkləmə vədlərinə inanıb rus generalı knyaz Abxazovun komandanlığı altında həmin döyüşlərə qatılmış və hətta yaralanmışdı.

Lakin professor Raqub Kərimovun da göstərdiyi kimi: "Qasım bəy Zakirin əvvəl xanlığa, sonra çarizmə göstərdiyi xidmətlərə göz yumuldu, böyük şairə qarşı dəhşətli ədalətsizlik həyata keçirildi" [9, s. 21].

Şair nəhayətdə qardaş qırğınlarının düşmənə möhtac olmağa gətirib çıxmağından belə gileylənirdi:

Nə gündə yaradıb xudavənd bizi,
Bir yana apara bilmədik izi.
Gah Avanesi, gahi Sərkizi,
Gahi də Semyonu görən canımız! [5, s. 404].

Elə bunun nəticəsi idi ki, Zakir uğrunda qan tökdüyü, canından keçməyə hazır olduğu Şuşa qalasında 1845-ci ilin 15 mayında zindana salındı.

O, knyaz Behbudova ünvanladığı ərizədə sapı özümüzdən olan baltaların köməkliyi ilə

başına gətirilən müsibəti belə nəql edir: "Şuşa şəhərinin Uyezdini naçalniki knyaz Tarxan Mauravov öz ixtiyaratının zoru ilə və polkovnik Cəfərqulu ağanın təhriki ilə bicürmü günah və bitəhqiqi məratib məni və mana təəllüq Xındırıstan kəndini təxminən yeddi yüz atlı ilə ki, o cümlədən Cəfərqulu ağa olsun, bir növ taxtü qarət ediblər ki, tamam ac və möhtac qalmışıq və o zülmləri ki, bizlərin başına gətirib əvvəldən axıra heç bir kəsin başına gəlməyib" [5, s. 514].

Məlum hadisələrlə bağlı haqsız olaraq Bakıya sürgünə göndərilən və dostlarının köməyi ilə Qarabağa qayıdan şair 1857-ci ildə Şuşa şəhərində dünyasını dəyişib, şəhərin Mirzə Həsən qəbirstanlığında dostu Mirzə Camal Cavanşirin qəbri yaxınlığında əbədi mənzil tapdı. Rzaqulu bəy Vəzirovun xatirələrində də göstərildiyi kimi, "tarixi-islamın 1274-cü sənəsində Qasım bəy Şuşa şəhərində mərhum olub və bu şəhərin qəbirstanlığında dəxi mədfundur" [9, s. 22]. Mirzə Camal Rzaqulu bəyin atası olduğundan Zakirin qəbrini də ziyarət edərmiş. Lakin elə onun xatirələrindən bəlli olur ki, Zakirin məzarında xüsusi nişan olmadığından şairin dəfn yeri elə o vaxt "xak ilə yeksan" olubmuş.

Lakin 1984-cü ildə şairin anadan olmasının 200 illik yubileyi münasibətilə Zakir və onun qəbri yaxınlığında dəfn olunan məşhurların məzarı abadlaşdırılır. Zakirin qəbri üzərində Əməkdar rəssam, heykəltəraş Namiq Dadaşovun müəllifi olduğu əzəmətli abidə ucaldılırsa da, heykəl I Qarabağ müharibəsi zamanı erməni vandalizminin qurbanı olur. Zakir sanki məzarının bu halını öncədən görürmüş kimi elə sağlığında belə yazmışdı:

Uçuq görən məzarımı
Sanır ki, onda xakəm mən.
Heç deməz ki, yardan ayrı
Ləhəd tək sinəçakəm mən [4, s. 215].

Bir az şairin əsərlərindəki Şuşadan bəhs etmək istərdim. Dini hökmlərin pozulmasına din xadimlərinin göz yummasının, şəriət qanunlarının elə din xadimlərinin özləri tərəfindən əməl etməməsinin və s-nin Şuşa sakinləri tərəfindən aqressiv qarşılanması Zakiri üzür. Din xadimləri arasında hökm sürən hüsümətin əhalini də avara qoymasını sənətkar "Şuşa mollaları haqqında" adlı əsərində satira atəşinə tutur.

Şişəyə dəsti-qəza səngi-cəfa yağdırdı,
Şişəvəş sındı bu gün rövnəqi-islam yenə [5, s. 383].

Zakir yarızarafat-yarıgerçək sonda ümidini çar çinovniklərinə bağlayaraq deyir:

Var ümidim edə knyaz bu pərxaşə bina,
Tazədən əhli-vilayət tuta aram yenə [5, s. 384].

Qasım bəy dostu Mirzə Fətəli Axundzadəyə ünvanladığı məşhur "Bax" rədifli mənzum mıktubunda da doğma şəhəri Şuşa üçün narahatlığını ifadə edir, əhalinin günah işlər görməsinin bəlalara rəvac olacağından qorxur:

Fisqü ficur həddən artıb Şişədə,
Erkəyi, dişisi yaman peşədə.
Mənəm qalan bu əndişədə,
Zəmanə dolanıb, qovğayə bir bax! [5, s. 440]

Zakirin "Qarabağ qazısına" əsərində Şuşa qazısı Mirzə Əbdülqasımın öz nüfuzundan istifadə edib İmam Hüseyn təziyədarlığında aşura günü "ağköynək" mərasimini keçirməsinə fətva verməklə Şuşada din qardaşları arasında qanlı qarşıdurmaya rəvac verməsinə qəti etiraz səsi duyulur.

Cəfərqulu xana ünvanladığı "Şuşa qazısı" adlı satirasında din xadiminin rüşvətxorluğunu, dini bazara çevirməsini qətiyyətlə pisləyən şair qazının acgözlüyünə gülür, onun min hiylə ilə topladığı malından fidyə-zəkat verməməsinə, kasıb-küsuba belə əl tutmamasına qəzəblənir:

Şişənin simu zərin doldurasan xanəsinə,
Şişəvəş dişrəyə verməz yenə bir nəm qazı [5, s. 466].

Zakir Şuşanı abad görəndə sevinir, bunun səbəbkarı olan Xurşidbanuya tərifl ər yağdırır, sağlığına dua edib, ona atası Mehdiqulu xanın yolunu getməsinə görə minnətdarlıq bildirir:

Tikilən evlərə atandır səbəb,
Payandazın olsa, canlar nə əcəb!
Cami-bəzmi-eyşin daim ləbaləb,
Qalmayasan zövqü səfadən səni [5, s. 471].

Maraqlıdır ki, Zakir nə qədər Natəvanı gördüyü işlərə görə mədh edirsə də, onun əri Xasay xanı həcv atəşinə tutur. Bu da onun Xan qızını Şuşada tək qoyub, yersiz söz-söhbətlərə rəvac verməsindən irəli gəlir. Knyaz Usmiyevin payızı Qarabağda, yayı öz el-obasında - Elburus dağlarında keçirməsini qınayır. Belə olduğu halda, Xasay xanın Şuşada imarət tikdirməsinin səbəbini də anlamır, bir yadellinin Xan qızının əri olması imtiyazından istifadə edib Şuşada hökm etməsini dədə-babalarının ruhuna təhqir hesab edir, ona ölüm arzulayır:

Qəzanın gərdişin gör kim, verib bu Şişə şəhrində
Gəlib bir naqisü nadan yapa köşkü saray, knyaz.
Belə knyazı həqq alsın əlimdən, mən tutum matəm,
Vurub başimə hər ləhzə deyim: ey vay, vay, knyaz! [5, s.511].

Ümumiyyətlə, Zakir ömrünün sonlarına yaxın Şuşa şəhərində baş verən məmur özbaşnalıqlarına üzülüb, əski əyyamlar üçün ah-nalə edir. Professor Raqub Kərimovun qeyri-mətbu şeirlərindən birində - Mirzə Mehdi Naciyə ünvanladığı məktubunda da Şuşa şəhərinin keşmiş xoşbəxt günlərini belə yad edir:

El ilən düşəndə bir müşkil karı,
Zərər, nöqsanını çəkirdi yarı.
O cümlədən, yeksər, mərdümi-Şişə,
Eyşünüşə məşqul idi həmişə.
Növcəvanlar daim zövqü səfada,
Yeməkdə, içməkdə, yaxşı ətada [9, s. 210].

Göründüyü kimi, Qasım bəy Zakirin həyat və yaradıcılığında Şuşa şəhəri əhəmiyyətli yer tutur. Şairin həyat tarixçəsini vərəqlədikcə, əsərlərini oxuduqca XIX əsrin əvvəllərindən 50-ci illərinin sonuna qədərki Şuşaya səyahət edir, bir şəhərin keçmişinə söykənib xalqımızın yaşadığı şad-kürrəm günləri duyub sevinir, müsibətlərə ağlayır, ziyalılarımızın mübarizliyinə, öz əqidəsindən dönməzliyinə görə qürur duyur, Zakirlə bərabər şübhələrə dalıb, şadlanıb, qəmlənirik. Zakirin tənqid etdiyi satira hədəflərinə istehza ilə baxır, mədh etdiklərinə görə fəxarət hissi duyuruq. Yekun olaraq onu deyə bilərik ki, XIX əsr Şuşasında yaşayıb-yaratmış bizə bəlli (Məhəmməd ağa Müctəhidzadənin "Riyazül-aşiqin" təzkirəsində yer alan) yetmiş yeddi şairdən biri olan Qasım bəyin irsi də müasirlərimizə XIX əsr Şuşasını daha yaxından tanımağa, onun tarixinə daha yaxşı bələd olmağa, əcdadlarımızın səhv və doğru qərarlarının gələcəkdə hansı nəticələri verdiklərini bir daha götür-qoy etməyə imkan yaradır.

Ədəbiyyat:

1. *Feyzulla Qasımzadə. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi, ali məktəblər üçün dərslik, işlənilmiş ikinci nəşri, Bakı: Maarif, 1974, - 488 s.*
2. *Firidun bəy Köçərli. Azərbaycan ədəbiyyatı, İki cilddə, I cild, tərt. ed, müqəd., izah: R.Qənbərqızı, Bakı: Avrasiya Press, 2005, - 560 s.*
3. *Firidun bəy Köçərli. Əsərləri. Bakı, Elm və təhsil, 2013, 284 s.*
4. *Kamran Məmmədov. Qasım bəy Zakir, Bakı: Gənclik, 1985, - 232 s.*
5. *Qasım bəy Zakir. Əsərləri, tərt., müqəd. və şərh: S.Rüstəmov, Bakı: AzSSR EA, 1964, - 564 s.*
6. *Qasım bəy Zakir. Seçilmiş əsərləri, tərt. və müqəd.: K.Məmmədov, Bakı: Yazıçı, 1984, - 384 s.*
7. *Mir Möhsün Nəvvab. Təzkireyi-Nəvvab, tərt. ed., ön söz: Ə.Bağırov, Bakı: Elm, 2018, - 740 s.*
8. *Mirzə Fətəli Axundov. Bədii və fəlsəfi əsərləri, Tərt. ed. və müqəd.: H.Məmmədzadə, Bakı: Yazıçı, 1987, - 368 s.*
9. *Raqub Kərimov. Qasım bəy Zakir və müasirləri, Bakı: Elm və təhsil, 2013, - 252 s.*
10. *Ramiz Teymuroğlu. Qasım bəy Zakir irsinin tədqiqi, Bakı: Kooperasiya, 2007, - 135 s.*



Gülnar QASIMLI
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,
filologiya üzrə fəlsəfə doktoru

65 yaşlı "Elm və həyat" jurnalında ədəbiyyatın yeri

Azərbaycan elmi və mədəni fikrinin inkişaf tarixində xüsusi çəkiyə malik olan "Elm və həyat" jurnalının 65 illik yubileyi yalnız bir mətbuat orqanının yaş göstəricisi sayılmır, eyni zamanda elmi-populyar düşüncənin, milli-mədəni özünüdərkin təkamül yolunun mühüm bir mərhələsini təşkil edir. Jurnal müxtəlif ictimai-siyasi sistemlərin, ideoloji transformasiyaların və texnoloji dəyişikliklərin sınağından uğurla keçərək öz tarixi missiyasını yaşatmağa nail olmuşdur. Nəşrin səhifələrində təbiət və texniki elmlərlə yanaşı, tarix, dilçilik, ədəbiyyatşünaslıq, folklorşünaslıq, fəlsəfə və mədəniyyət məsələlərinə də geniş yer ayrılmışdır. Burada qədim yazıların oxunuşu, Azərbaycan dilinin tarixi, folklor nümunələri, klassik ədəbiyyat, dünya mədəniyyəti, etnoqrafiya və elm tarixinə dair sanballı araşdırmalar, bədii mətnlər müntəzəm şəkildə işıqlandırılmışdır.

Nəşrin fəaliyyətində yubileylərin və görkəmli şəxsiyyətlərin xatirəsinin əbədiləşdirilməsi də xüsusi aktuallıq kəsb edir. "Yubileylərdən danışarkən jurnalın öz tarixinə də biganə qalmadığını vurğulamaq lazımdır. 2011-ci ildə jurnalın 50 illik yubileyi təntənəli şəkildə qeyd olunmuşdur. Həmin ilin ilk sayının üz qabığında yubileylə əlaqədar olaraq 50 yazılıb" (1. s. 120). Nəşrin öz keçmişinə göstərdiyi bu ehtiram dialektik inkişafın təzahürü olaraq sonrakı dövrlərdə də rəsmi şəkildə təsdiqini tapmışdır. Eyni buraxılışda AMEA Rəyasət Heyətinin "Elm və həyat" jurnalının 50 illik yubileyi haqqında" Qərarı da (2011, № 1, s. 2) oxuculara təqdim olunmuşdur. 2021-ci ilin ilk nömrəsinin üz qabığında jurnalın yubileyi ilə əlaqədar olaraq 60 rəqəmi diqqəti cəlb edir. AMEA Rəyasət Heyətinin 6 aprel 2021-ci il tarixli 9/10 nömrəli "Elm və həyat" jurnalının 60 illik yubileyi haqqında Qərarının (2021, № 1, s. 9) mətni də çap edilmiş, "60 yaşın mübarək, "Elm və həyat"!" (2021, № 1, s. 10-11) başlıqlı təbrik mətni dərc olunmuşdur. Son titul səhifəsində nəşriyyat redaktoru vəzifəsində Ülkər Hüseynovanın adı qeyd edilmişdir.

Altmış beş illik fəaliyyət salnaməsi sübut edir ki, "Elm və həyat" Azərbaycan elmi-populyar mətbuatının ən davamlı və nüfuzlu örnəklərindən biridir. 1961-ci ilin yanvarında ilk nömrəsi işıq üzü görən jurnalın üz qabığında sadəcə bir qrif mövcud idi: "Azərbaycan SSR Siyasi və Elmi Bilikləri Yayan Cəmiyyətin orqanı" (2. s. 1). 1991-ci ilin mart sayından etibarən isə nəşr "Azərbaycan Respublikası "Bilik" Cəmiyyətinin aylıq elmi-kütləvi jurnalı" qrifi ilə işıq görmüş və SSR qısaltması qrifdən kənarlaşdırılmışdır. 1992-ci ilin birinci nömrəsində latın əlifbasının ilkin formasında "Azərbaycan Respublikası Elmlər Akademiyasının aylıq elmi-



kütləvi jurnalı" qrifi həkk edilmiş, Azərbaycan Elmlər Akademiyası Rəyasət Heyətinin 6 dekabr 1991-ci il tarixli "Elm və həyat" jurnalının Azərbaycan EA-nın tabeliyinə verilməsi haqqında Qərarı ilk səhifədə yer almışdır. 1992-ci ilin aprel-iyun nömrəsinin üz qabığında "Elm və həyat" adı latın qrafikası ilə təqdim olunmuş və bu təmayül 1994-cü ilin ilk sayına qədər davam gətirmişdir. 1995-ci ildən etibarən Ülkər Hüseynova redaktor müavini kimi fəaliyyət göstərmiş və jurnalın redaksiya heyətinə Rəşad Məcidin adı da daxil edilmişdir. 1996-cı ilin ikinci nömrəsinin ilk səhifəsində "Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev cənablarına Azərbaycan Elmlər Akademiyası illik yığıncağının iştirakçılarının Müraciəti" də verilmişdir.

Bu gün "Elm və həyat" jurnalının redaksiya heyətinin tərkibinə nəzər yetirdikdə orada Çindən, Türkiyədən, Özbəkistandan, Qazaxıstandan, Rusiyadan, Polşadan, Bolqarıstandan, İtaliyadan tanınmış mütəxəssislərin təmsil olunduğu aydın görünür. 2022-ci ilin dördüncü nömrəsindən etibarən jurnal AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin baş redaktorluğu, Ağahüseyn Şükürovun baş redaktorun müavinliyi, Sərvan Kərimovun məsul katibliyi ilə ildə dörd dəfə işıq üzü görür. Müasir mərhələdə jurnalda publisistik yazılarla yanaşı, elmi məqalələr də Azərbaycan, rus və ingilis dillərində nəşr edilmək imkanı qazanmışdır.

"Elm və həyat" jurnalı 65 illik nəşr tarixi boyu Azərbaycan ədəbiyyatı və mədəniyyətini sistemli şəkildə təbliğ etmək missiyasını da yerinə yetirmişdir. Nəşrin səhifələrində "Kitabi-Dədə Qorqud", "Koroğlu" dastanları və aşıq yaradıcılığı haqqında işıq üzü görən silsilə məqalələr milli yaddaşın qorunması baxımından mühüm əhəmiyyət kəsb etmişdir. Yazılı ədəbiyyat nümunələri, həmçinin mətbuat tariximizin önəmli imzaları da jurnalda davamlı olaraq araşdırılan mövzular sırasındadır. "Cəlil Məmmədquluzadənin yaradıcılıq yolu, xüsusilə "Molla Nəsrəddin" jurnalının fəaliyyəti mütəmadi olaraq müxtəlif tədqiqatların mövzusu olmuşdur. "Elm və həyat" jurnalı da bu mövzulara zaman-zaman müraciət etmişdir. Mirzə Cəlilin yüz illik yubileyi 1960-cı illərə təsadüf etdiyindən jurnalın həmin illərdə çıxan nömrələrində bu mövzu xüsusilə qabardılmışdır" (3. s. 194). Görkəmli ədibin irsinə bəslənilən belə diqqət, eyni zamanda klassik

ədəbi abidələrimizin beynəlxalq miqyasda öyrənilməsi meylləri ilə paralel şəkildə inkişaf tapırdı.

Sovet dövründə Cahangir Qəhrəmanov Nyu-Yorkdakı "Xəmsə" nüsxəsindən bəhs edərək yazırdı: "392 vərəqdən ibarət "Xəmsə"də 48 miniatür çəkilmişdir... Nüsxənin haşiyəsində sonradan edilmiş qeydə əsasən miniatürlərin məşhur Azərbaycan rəssamı Sultan Məhəmməd və onun şagirdləri tərəfindən çəkildiyi məlum olur" (4. s. 2-3). Nizami irsinin vizual sənətdəki bu möhtəşəm əks-sədası dünya muzeylərində qorunan digər nadir eksponatların da elmi dövriyyəyə cəlb edilməsinə zəmin yaradırdı. Bu, sadə statistika təəssüratı bağışlamırdı - bu, bir mədəniyyətin dünyaya səyahətinin sənədli təsdiqi idi. "Məqalədə Con Pirpont Morqanın ev-muzeyi haqqında önəmli bilgilər verilir. Muzeydə toplanan əlyazmaların hamısının Avropa dillərinə aidliyini, yalnız 12 Şərq əlyazma kitabı olduğunu yazır" (5. s. 4). Şərq elmi və bədii təfəkküründün Qərb məkanındakı bu təkzibedilməz izləri digər Avropa kitabxanalarında aparılan axtarışların nəticələri ilə daha da zənginləşirdi. Eyni dövrdə Cənnət Nağıyeva Oksfordun Bodlean kitabxanasında saxlanılan Nizami-Nəvai əlyazmasından (6. s. 11-12) söz açırdı. Bu səpkili yazılar jurnalı təkcə milli deyil, ümumşərq mədəniyyətinin carçısına çevirirdi.

1968-ci ilin "Oktyabr sayının üz qabığında Vaqifin rəsmi, qabığın iç tərəfində "Boyun sürahidir" sərlövhəsi ilə "Pəri" qoşması verilmişdir. Nömrənin ilk üç məqaləsi "Molla Pənah Vaqif 250" (1968, № 10, s. 2-7) başlığı ilə yayımlanmışdır. Osman Sarıvəllinin "Molla Pənah Vaqif" məqaləsində şairin öyrənilmə tarixçəsinə nəzər salınmaqla yanaşı, poeziyasının mövzu və janr xüsusiyyətləri də araşdırılmışdır" (7. s. 65). Klassik sənətkarın bədii irsinin bu cür dərindən təhlili onun poetik dühasının orijinallığını şərtləndirən amilləri üzə çıxarmağa xidmət edirdi. "Vaqifin sənətkarlıq qüdrəti bir də elə ondadır ki, onun hətta eyni mövzu üzrə, eyni rədif qafiyələrindən istifadə edərək yazmış olduğu şeirlərin hər biri özü özlüyündə müstəqil, orijinal, gözəl sənət əsəridir" (8. s. 2) - mülahizələri mübaliğədən uzaq, elmi gerçəklik kimi dəyərləndirilməlidir.

1990-cı illərdə, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra milli məfkurə daha qabarıq şəkildə özünü biruzə verdi. 1991-ci ilin aprel nömrəsində üçrəngli bayrağımızın təsviri və "Bir kərə yüksələn bayraq bir daha enməz" şüarı jurnalın ideoloji simasını yenilədi. Bu, təkcə siyasi müstəvidə dəyişiklik demək deyildi, həm də ədəbiyyatın yeni intibah nəfəsi idi. 1996-cı ildə Füzulinin 500 illik yubileyi münasibətilə Fərəh Əliyeva yazırdı: "XIX əsrin axırları Şuşada Füzuli poemasından hazırlanmış bir parçanın ilk musiqili tamaşası Qarabağın mədəni həyatında böyük hadisə kimi əks-səda doğurmuşdu" (9. s. 28-29). Şuşanın və Qarabağın mədəniyyət tarixinə aid bu qiymətli sətirlər keçmişlə gələcək arasında sarsılmaz bir körpü rolu oynayır. Bu cümlələr bu gün də eyni əzəmətlə səslənir, çünki onlar sadəcə keçmişin sorağını vermir, həm də bu günün ədəbi-mədəni mübarizəsini rəmzləşdirir.

Jurnalın rəhbərliyini təmsil edən akademik İsa Həbibbəylinin də topluda sanballı tədqiqatları yer almışdır. Onun burada sovet dövründə dərc olunan ilk araşdırması İsa Həbibov imzası ilə yayımlanan "Şeirimizdə ilk sonetlər" məqaləsidir. Məqalədə sonetin tarixi təkamül yolu işıqlandırılmış, janrın Azərbaycan poeziyasında Avropa ədəbiyyatının təsiri altında formalaşma xüsusiyyətləri göstərilmişdir. Müəllif sonetin ilk dəfə XIII əsrdə İtaliyada meydana çıxdığını, formalaşmasında Dante və Petrarkanın müstəsna rolu olduğunu diqqətə çatdırmışdır. "...Abbas Səhhətin "Sınıq saz" (1912), Hüseyn Cavidin "Bahar şəbnəmləri" (1917) şeir kitablarında bir neçə sonetə rast gəlirik" (10. s. 26) - qeydləri ilə janra müraciət etmiş müəllifləri xüsusilə qruplaşdırmış, "Mən istərim ki", "Çəkinmə, gül" və bir neçə sonetin xarakterik poetik xüsusiyyətlərini şərh etmişdir.

Müstəqilliyin bərpası mərhələsində isə akademik İsa Həbibbəylinin bu jurnalda işıq üzü görən ilk məqaləsi "Qori seminariyasında Puşkin günləri" başlığı altında təqdim olunmuşdur. Məqalə 1899-cu ildə Puşkinin anadan olmasının 100 illiyi münasibətilə Qafqazda təşkil edilən

tədbirin təfərrüatları haqqında məlumatlarla zəngindir. Akademik vurğulayır ki, "Yubiley ədəbi gecəsində A. S. Puşkinin "Yevgeni Onegin", "Tunc atlı", "Poltava", "Ruslan və Lyudmila" əsərlərindən alınmış parçalar bədii qiraət edilmiş, şairin əsərləri əsasında hazırlanmış operalardan seçilmiş hissələr göstərilmişdir. Hesabatlarda bu mahnını ifa edən vokal qrupuna Balkenqut, Vuxrer, Kirilov kimi seminaristlərlə yanaşı, iki nəfər azərbaycanlı tələbənin - Salmanov və Şahsuvarovun da daxil olduğu öz əksini tapmışdır" (11. s. 27). Bu qiymətli arxiv faktı regional mədəni inteqrasiyanın və azərbaycanlı ziyalıların ümumdünya mədəni irsinə fəal münasibətinin bariz göstəricisidir. Gətirilən sitat bir əsr öncə Azərbaycan ədəbi-mədəni mühitində cərəyan edən hadisələri işıqlandırmaq baxımından mühüm qaynaq rolunu oynayır.

Akademik İsa Həbibbəylinin 2021-ci ildə "Nizami Gəncəvi İli" münasibətilə qələmə aldığı "Azərbaycan ədəbiyyatının dünya gözəli: Nizami Gəncəvi" (12. s. 12-15) məqaləsində dahi sənətkar təkcə klassik Azərbaycan şairi kimi deyil, ümumbəşəri mədəniyyətin görkəmli nümayəndəsi və dünya ədəbi fikrinin zirvə şəxsiyyətlərindən biri kimi təqdim edilir. Müəllif Nizami Gəncəvinin yaradıcılığını bəşəri dəyərlərin daşıyıcısı kimi dəyərləndirərək onun ədəbi irsinin dünya miqyasında əhəmiyyətini elmi əsaslarla şərh edir. Bir il sonra isə o, Xalq rəssamı Ömər Eldarova həsr etdiyi "Əbədi mogikan" (13. s. 5-11) adlı yazısında sənətin ölməzlik fəlsəfəsindən söz açır, əsrlərin qovuşduğu estetik nöqtəyə işıq salırdı.

65 illik nəşr tarixi minlərlə məqalənin, yüzlərlə şair və yazıçının, onlarla baş redaktorun fədakar əməyinin məhsuludur. Abdulla Qarayevdən (1961-1964) başlayan bu şərəfli yol Rza Şahvələd (1964-1975), Həsən Mehdiyev (1975-1993), Aydın Səlimzadə (1993-1995), Ülkər Hüseynova (1995-1997), Şirindil Alışanlı (1998-2003), Mahmud Kərimov (2003-2013), Akif Əlizadə (2013-2019), Ramiz Mehdiyev (2019-2022), Arif Həşimov (2022) vasitəsilə bu gün akademik İsa Həbibbəylinin rəhbərliyinə qədər ucalmışdır.

Son illərdə Azərbaycan Milli Elmlər Akademiyasında uğurla həyata keçirilən yeniləşmə prosesləri "Elm və həyat" jurnalının fəaliyyət dinamikasına da olduqca müsbət təsir göstərmişdir. Akademik İsa Həbibbəylinin rəhbərliyi ilə AMEA-da reallaşdırılan köklü islahatlar elmi nəşrlərin fəaliyyətinin təkmilləşdirilməsi, onların beynəlxalq elmi mühitə inteqrasiyası və müasir qlobal tələblərə uyğunlaşdırılması istiqamətində mühüm, fundamental nəticələr verməkdədir.

Ədəbiyyat:

1. *Səma. G. Mətbuat tarixi və publisistika məsələləri III. Məqalələr toplusu. Bakı, Elm və təhsil, 2026, 216 səh.*
2. *"Azərbaycan SSR Siyasi və Elmi Bilikləri Yayan Cəmiyyətin orqanı, aylıq elmi-kütləvi jurnal" // Elm və həyat. - 1961. - № 1. - S. 1.*
3. *Qasımlı G. "Elm və həyat"da Mirzə Cəlilin 100 illiyi. Azərbaycan ədəbiyyatşünaslığı, 2023, № 1, s. 194-197.*
4. *Qəhrəmanov C. Nizami "Xəmsə"sinin Nyu-York nüsxəsi // Elm və həyat. - 1979. - № 4. - S. 2-3.*
5. *Qasımlı G. Nizami Gəncəvi "Elm və həyat" jurnalının 1960-1970-ci il nömrələrində. "Elay" ədəbi-bədii, elmi-publisist dərgisi. 2023, № 4, avqust-sentyabr, s. 2-6.*
6. *Nağıyeva C. Nizami Nəvaiyə xeyir-dua verir // Elm və həyat. - 1979. - № 2. - S. 11-12.*
7. *Səma. G. "Elm və həyat" jurnalında ədəbiyyat məsələləri. Bakı, Elm və təhsil, 2026, 160 səh.*
8. *Sarıvəlli O. Molla Pənah Vaqif // Elm və həyat. - 1968. - № 10. - S. 2-3.*
9. *Əliyeva F. Musiqimizin Füzuli səhifəsi // Elm və həyat. - 1996. - № 2. - S. 28-29.*
10. *Həbibbəyli İ. "Şeirimizdə ilk sonetlər" // Elm və həyat. - 1977. - № 10. - S. 26-27.*
11. *Həbibbəyli "Qori seminariyasında Puşkin günləri" // Elm və həyat. - 1998. - № 3-4. S. 26-28.*
12. *Həbibbəyli İ. Azərbaycan ədəbiyyatının dünya gözəli: Nizami Gəncəvi. "Yeddi gözəl" // Elm və həyat. - 2021. - № 1. - S. 12-15.*
13. *Həbibbəyli İ. Əbədi mogikan // Elm və həyat. - 2022. - № 4. - S. 5-11.*



İlqar NİFTƏLİYEV
AMEA A.A. Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Elmi işlər və rəqəmsal inkişaf üzrə direktor müavini, tarix elmləri doktoru, dosent

Bakıda ermənilərin məskunlaşdırılması və şəhərin etnik tərkibinin dəyişməsi *(XIX əsr -XX əsrin əvvəlləri)*

Erməni tarixçiləri və publisistləri tərəfindən Azərbaycanın tarixi əraziləri ilə bağlı əsassız iddiaların yalnız Qarabağ və Naxçıvanla məhdudlaşmadığı, Bakı şəhərinin də "erməni şəhəri" kimi təqdim edilməsinə cəhd göstərildiyi müşahidə olunur. Bu yanaşmanın əsas xüsusiyyəti ayrı-ayrı tarixi faktların kontekstdən çıxarılması, XIX əsrdə və XX əsrin əvvəllərində Bakıda yaşamış ermənilərin şəhərin daha qədim tarixində də guya həlledici rol oynamış xalq kimi təqdim edilməsi və miqrasiya nəticəsində formalaşmış erməni icmasının şəhərin yerli əhalisi ilə eyniləşdirilməsidir. Halbuki Bakı əhalisinin etnik tərkibinin tarixi dinamikası arxiv sənədləri, kameral təsvirlər, statistik məlumatlar və rəsmi hesabatlar əsasında izlənildikdə tamamilə fərqli mənzərə ortaya çıxır.

Bu baxımdan, ermənilərin Bakıda və onun ətrafında məskunlaşmasının xronologiyasının, onların şəhər əhalisinin tərkibindəki xüsusi çəkisinin müxtəlif dövrlərdə necə dəyişdiyinin, habelə iqtisadi və sosial həyatda mövqelərinin tarixi mənbələr əsasında müəyyənləşdirilməsi mühüm əhəmiyyət daşıyır. Xüsusilə XIX əsrin əvvəllərindən XX əsrin əvvəllərinə qədərki dövr bu baxımdan diqqətəlayiqdir. Çünki Rusiya imperiyasının Şimali Azərbaycanı işğal etməsindən sonra regionda inzibati, demoqrafik və sosial-iqtisadi proseslər əhəmiyyətli dərəcədə dəyişmiş, imperiyanın köçürmə və məskunlaşdırma siyasəti nəticəsində müxtəlif etnik qrupların, o cümlədən ermənilərin bölgəyə miqrasiyası intensivləşmişdir.

Mənbələrin müqayisəli təhlili erməni əhalisinin Bakıda, xüsusilə XIX əsrin ikinci yarısından etibarən sürətlə artdığını, bunun əsasən miqrasiya və şəhərin neft sənayesinin inkişafı ilə bağlı olduğunu göstərir. Eyni zamanda bu proses Bakının guya qədimdən "erməni şəhəri" olması barədə müasir iddiaların tarixi faktlarla uyğun gəlmədiyini də ortaya qoyur.

Bakının və onun ətraf ərazilərinin ermənilər tərəfindən tədricən məskunlaşdırılması prosesinin başlanğıcı XVIII əsrin birinci rübündə, Rusiya imperatoru I Pyotrun hakimiyyəti dövrünə təsadüf edir. Məhz I Pyotr ermənilərə ilk dəfə siyasi perspektiv baxımından yanaşmış və "xristian xalqlarını Rusiya ilə birləşdirən mənəvi bağların verdiyi üs-

tünlükləri" qiymətləndirmişdi. Xəzəryanı yürüş başa çatdıqdan sonra, 1724-cü ildə I Pyotr "Patriarx İsaiyə, yüzbaşılar və bütün erməni xalqına" xüsusi fərman verərək, həmin dövrdə yeni əldə edilmiş şəhərlərdə, o cümlədən Bakıda erməni əhalisinin məskunlaşdırılması üçün yerlər ayrılmasını nəzərdə tutmuşdu. Bununla yanaşı, 1783-cü ilə aid məlumatda Bakıda erməni sakinlərin olmadığı bildirilir. Bu fakt şəhərin Rusiya imperiyasının tərkibinə daxil edilməsinə qədər ermənilərin Bakıda məskunlaşmasının epizodik xarakter daşıdığını göstərir.

Birinci Rusiya-Qacar müharibəsi (1806-1813) dövründə Bakı xanlığı 1806-cı il oktyabrın 3-də rus qoşunları tərəfindən işğal edildi. Həmin gün Bakı xanı bütün nəsli ilə birlikdə hakimiyyətdən kənarlaşdırıldı, əhali isə Rusiya imperiyasına sədaqət andı içməyə məcbur edildi. Xanlıq ləğv edilərək əyalətə çevrildi.

Şəhərin əhalisi haqqında məlumatların verildiyi ilk sənədlərdən biri 1809-cu il iyunun 25-də Həştərxan gömrüyünün direktoru İvanov tərəfindən general A. Tormasova göndərilmiş raportdur. Tormasov 1808-ci ildə general İ. Qudoviç vəzifəsindən uzaqlaşdırıldıqdan sonra Gürcüstanda və Qafqaz xəttində rus qoşunlarının komandanı təyin edilmişdi (İ. Qudoviç İrəvan yaxınlığında rus qoşunlarının məğlubiyyətindən sonra vəzifəsini tərk etmişdi).

Raporta görə, həmin dövrdə Bakıda qala daxilində 905 ailə və hər iki cinsdən 4570 nəfər yaşayırdı. Onlardan 861 ailə və hər iki cinsdən 4341 nəfər müsəlman, 34 ailə və hər iki cinsdən 163 nəfər erməni, 10 ailə və hər iki cinsdən 66 nəfər isə yəhudi idi. Forştadtda isə 87 ailə və hər iki cinsdən 437 nəfər müsəlman yaşayırdı. 1816-cı il kameral təsvirinə görə, Bakıda (qala və forştadtda) 131 erməni yaşayırdı. 1832-ci il kameral təsvirində isə bu rəqəm 172 nəfər göstərilir.

Komendant idarəetmə sisteminin 1840-cı ildə ləğv edilməsindən sonra Bakı əyaləti qəza statusunda Xəzər vilayətinin tərkibinə daxil edildi, 1846-cı ildə isə vilayətin ləğvindən sonra Şamaxı quberniyasının tərkibinə verildi. 1859-cu ildə Şamaxıda baş vermiş zəlzələdən sonra quberniya mərkəzi Bakıya köçürüldü.

1809-cu ildən 1860-cı ilədək Bakı əhalisi 7253 nəfər və ya təxminən 2,5 dəfə artmışdı. Beləliklə, 1860-cı ildə, yəni xanlığın işğal və ləğv edilməsindən (1806-ci il) 54 il sonra da Bakının etnik tərkibində müsəlmanlar üstün mövqedə qalırdılar. Əgər 1809-cu ildə onlar şəhərin ümumi əhalisinin 95 faizindən çoxunu təşkil edirdilərsə, 1860-cı ildə Bakının artan iqtisadi əhəmiyyətini və müxtəlif yerlərdən şəhərə gələnlərin sayının artmasını nəzərə alsaq, müsəlmanların payı 94,4 faiz təşkil edirdi. Sayca ikinci yerdə ermənilər dayanırdı. 1809-cu ildə onların sayı hər iki cinsdən 163 nəfər və ya 3 faizdən bir qədər çox idi. 1860-cı ildə erməni əhalisinin payı 5 faizə çatmışdı. Bu dövrdə həmin milli qrupun sayının artmasını şəhərin iqtisadi həyatının intensivləşməsi ilə izah etmək olar. Belə ki, ermənilər ilk növbədə Bakı liman şəhəri kimi öz iqtisadi üstünlükləri ilə cəlb edirdi. Ermənilərin şəhər daxilində məskunlaşmasına gəldikdə isə, onlar demək olar ki, həmişə, xüsusilə 1826-cı ildən sonra, qala daxilində ayrıca məhəllədə məskunlaşırdılar.

Şəhərin 1860-cı ilə aid etnososial strukturunda (kişi əhali üzrə) müsəlmanlar vergi ödəyən əhalinin 95 faizini, ermənilər isə 4,7 faizini təşkil edirdi. Göründüyü kimi, Bakı Rusiya imperiyasına birləşdirildikdən sonra XIX əsrin 60-cı illərinin əvvəllərinə qədər şəhərin vergi ödəyən əhalisi arasında müsəlmanların sayı sabit şəkildə yüksək olaraq qalırdı. Bu isə, öz növbəsində, müsəlman əhalinin şəhərin iqtisadi həyatında - sənətkarlıq-



da, ticarətdə və sənayedə - əsas rol oynamağa davam etdiyini göstərirdi. 1824-cü ildə Bakıda xarici ticarətlə məşğul olan 213 tacirdən 205-i müsəlman, yalnız 8-i erməni idi. 1842-ci ildə Bakıda 8, 1857-ci ildə 23, 1860-cı ildə 24, 1874-cü ildə isə 52 erməni taciri vardı. Bununla yanaşı, bütün qeyd olunan illərdə müsəlman tacirlər ümumi sayın 90 faizindən çoxunu təşkil edirdilər. Yalnız XIX əsrin ikinci yarısından etibarən erməni tacirlərinin əmtəə dövriyyəsi artmağa və müsəlman tacirlərin müvafiq göstəricisini üstələməyə başladı. 1860-cı il siyahıyaalınmasına görə, erməni sənətkarların nisbi sayı şəhərdəki bütün sənətkarların 2,7 faizini təşkil edirdi. Muzdlu əməkdə ermənilərin payı da cüzi idi. Neft sənayesinin sürətli inkişafına qədər muzdlu əmək sektoru əsasən şəhərin yerli, müsəlman əhalisinin hesabına formalaşırdı.

Beləliklə, Bakı neft sənayesində iltizam sisteminin ləğvindən əvvəl şəhərdə erməni əhalisinin sayı olduqca az idi. 1860-1870-ci illərin burjua islahatları, 1864-cü ildə neft mədənlərində kəndlilərin məcburi əməyinin ləğvi, 1872-ci ildə neft sənayesində iltizam sisteminin aradan qaldırılması təkcə Bakı neft sənayesinin sürətli inkişafına deyil, həm də bu sahəyə həm Şimali Azərbaycanın müxtəlif qəzalarından, həm Rusiya imperiyasından, həm Osmanlı imperiyasından, həm də Qacar dövlətindən mövsümi işçilərin və fəhlələrin axınına səbəb oldu. Bu proses həm Bakı şəhəri və Bakı qəzası əhalisinin etnik tərkibində, həm də sosial strukturunda kəskin dəyişikliklərə gətirib çıxardı. Yeni meydana çıxan sahibkarlar və fəhlələr arasında çoxlu sayda erməni də vardı.

Bu gün erməni müəllifləri guya öz həmvətənlərinin Azərbaycan iqtisadiyyatının formalaşmasında "müstəsna" rol oynadıqları barədə mifi dünyaya qəbul etdirməyə çalışırlar. Onlar guya Bakını "quran" və "yaradan" erməni sahibkarlarının süni obrazını formalaşdırmağa cəhd göstərirlər. Halbuki onların təqdimatında müsəlmanlar, yəni azərbaycanlılar guya "heç bir iş görmədən" kənarda dayanırdılar. Bu müəlliflərin xüsusilə israrla sübut etməyə çalışdıqları məsələlərdən biri erməni sahibkarlarının Bakı neft sənayesinin

formalaşmasındakı guya "mütərəqqi rolu"dur.

Onlardan biri iltizamçı İ. Mirzoyev idi. Erməni müəllifləri onu az qala "ilk neft sənayeçisi" və "Bakı neft biznesinin banilərindən biri" adlandırırlar. Halbuki "Rusiyada neft və neft sənayesi" kitabının müəllifi V. Simonoviçin yazdığına görə, 1863-1872-ci illərdə Abşeron neft mədənlərini idarə edən iltizamçı İ. Mirzoyev "...neft işinin taleyini həyasızcasına təkbaşına həll edən şəxs kimi çıxış edir. Həmin dövrdə o, Rusiya neft sənayesinin inkişafına fəal şəkildə mane olurdu".

Erməni müəlliflərinin öz həmvətənlərinin "xüsusi qabiliyyətləri" barədə əsassız uydurmaları bir danılmaz həqiqəti - Cənubi Qafqazın iqtisadi həyatında erməni tacirlərinin, sənayeçilərinin və bankirlərinin bütün imtiyazları yalnız regionun Rusiya imperiyasının tərkibinə daxil edilməsindən sonra və məhz onun sayəsində əldə etdiklərini ört-basdır etməyə yönəlib. Azərbaycan burjuaziyasının erməni burjuaziyası ilə müqayisədə daha zəif mövqelərinin obyektiv səbəbləri ondan ibarət idi ki, erməni burjuaziyası daha əvvəl formalaşmış, iqtisadi baxımdan daha güclü və siyasi cəhətdən daha təcrübəli olduğundan Azərbaycan iqtisadiyyatının bir çox sahələrində mühüm mövqeləri ələ keçirmişdi.

Belə ki, XX əsrin əvvəllərində Bakıda fəaliyyət göstərən 167 neft şirkətindən 49-u və ya 29,3 faizi azərbaycanlıların əlində idi və bunlar əsasən kiçik müəssisələrdən ibarət idi. Halbuki Mirzoyevlər, Qukasyanlar, Mailovlar, Lianozovlar, Aramyanç, Tavetosyan, Mantaşev və digər erməni ailələri 55 və ya 32,9 faiz təşkil edən iri və orta müəssisələrə nəzarət edirdilər. 1900-cü ilə qədər Bakı quberniyası ərazisində fəaliyyət göstərən 115 sənaye müəssisəsinin 29 faizi ermənilərə, yalnız 18 faizi isə azərbaycanlılara məxsus idi. Şərabçılıq, balıq emalı, tütünçülük, unçuluq, düyü təmizləmə sənayesi, Naxçıvanın duz mədənləri kimi sahələrdə erməni kapitalı Azərbaycan kapitalı ilə müqayisədə daha güclü mövqelərə malik idi. Bənzər disproporsiyalar fəhlə qüvvəsində də müşahidə olunurdu: Bakıda bütün fəhlələrin 17,5 faizini təşkil edən ermənilər yüksək ixtisas tələb edən vəzifələrin 25 faizini tuturdular. Müsəlman azərbaycanlılar, ləzgilər, farslar və Volqaboyu tatarları isə əsasən - 70 faizdən çoxu - aşağı maaşlı, ixtisassız fəhlələrdən ibarət idi. Bundan əlavə, ermənilər arasında fərdi qaydada işləyənlərin böyük və artmaqda olan təbəqəsi mövcud idi ki, bu da onların ümumi sayının 4,83 faizini təşkil edirdi.

Birinci Dünya müharibəsi ərəfəsində, 1913-cü ildə Bakı şəhərinin və onun inzibati hüdudlarının ümumi əhalisi hər iki cinsdən 214 679 nəfər təşkil edirdi. Onlardan azərbaycanlılar 45 972 nəfər və ya 21,3 faiz, ermənilər 41 685 nəfər və ya 19,5 faiz, ruslar 76 229 nəfər və ya 36 faiz, digər əhali qrupları isə 50 793 nəfər və ya 23,2 faiz idi. 1860-cı il siyahıyaalınması ilə müqayisədə Bakı və ona bitişik ərazilərin etnik tərkibində köklü dəyişiklik baş vermişdi. Üstəlik, daimi yaşayış yeri olmayan və buna görə də şəhərin neftli əraziləri və digər yerlər arasında hərəkət edən gəlmə əhalinin payı 1904-cü ilin məlumatlarına görə 60 faiz təşkil edirdi. Daimi məskunlaşmayan bu gəlmə əhali arasında ermənilər də az deyildi.

Erməni əhalisinin sayının artmasında həm daxili, həm də xarici miqrasiya prosesləri mühüm rol oynadı. Ermənilərin əhəmiyyətli bir hissəsi qazanc dalınca Yelizavetpol, İrəvan və Bakı quberniyasının Bakıya yaxın qəzalarından şəhərə gəlirdi. Digər hissəsi isə XIX əsrin 90-cı illərinin ikinci yarısında baş vermiş məlum hadisələrdən sonra Osmanlı imperiyası ərazisindən miqrasiya etmişdi. Nəticədə, XIX əsrin ortalarında Bakıda yalnız tək-tük erməni məhəlləsinə rast gəlmək mümkün olduğu halda, Bakı quber-

natoru D. A. Odintsovun Qafqazda mülki hissənin baş rəisi Q. S. Qolitsına 21 may 1902-ci il tarixli təqdimatına görə, şəhərdə bütöv erməni yaşayış məntəqələri - "Erməni koloniyası" adlanan məhəllələr meydana gəlmişdi.

Məhz bu gəlmə erməni kütləsi 1905-ci il avqustun 20-dən sentyabrın 1-dək Bakıda baş vermiş növbəti erməni-azərbaycanlı toqquşmaları zamanı "Daşnaksütyun" partiyasının və erməni kilsəsinin əlində əsas vasitəyə çevrildi. Balaxanı-Sabunçu polis idarəsinin məlumatlarına görə, bu toqquşmalar zamanı ümumilikdə 160 nəfər öldürülmüş, 30 nəfər yaralanmışdı. Hakimiyyət orqanları hadisələrin qızışdırılmasında azərbaycanlıları günahlandırır, guya onların neft mədənlərində yanğınlar törətdiyini və bununla da dövlətə böyük ziyan vurduğunu bildirirdilər. Hətta Abşeronun bir sıra mədən kəndlərindən azərbaycanlıların köçürülməsi planı da hazırlanmışdı. Bu təşəbbüslə Qafqaz canişini İ. Vorontsov-Daşkov çıxış etmiş və o, 1905-ci il sentyabrın 7-də Bakıya gəlmişdi.

Sentyabrın 11-də İ. İ. Vorontsov-Daşkov II Nikolaya Bakıya dörd günlük səfəri barədə hesabatını əks etdirən teleqram göndərdi. Canişinin sözlərinə görə, avqust hadisələrinə təkan inqilabçılar tərəfindən verilmiş, yaranmış iğtişaşlardan isə qonşu kəndlərin azərbaycanlıları və "ruslar da daxil olmaqla, bütün millətlərdən olan fəhlələrin pis ünsürləri" istifadə etmişdilər.

Diqqət çəkən məqam ondan ibarətdir ki, canişin ermənilərdən, ümumiyyətlə, bəhs etməmiş, hətta konka işçisi olan ermənilərin iğtişaşlara başladıqlarını və qoşunlara və azərbaycanlılara ilk olaraq atəş açdıqlarını belə qeyd etməmişdi. O, azərbaycanlıların da ermənilər qədər zərər çəkdiyi faktını da susaraq keçmişdi. Əvəzində, həmin teleqramda İ. İ. Vorontsov-Daşkov imperatora Bakıda şəhər idarəsi - qradonaçalstvo yaratmaq və mədən rayonundan onun "həmişə quldurluq edən kəndlər" adlandırdığı azərbaycanlıları köçürmək niyyətində olduğunu bildirmişdi. İ. İ. Vorontsov-Daşkov bu kəndlərin adlarını da göstərmişdi: Keşlə, Əhmədli, Zığ, Sabunçu, Balaxanı, Ramana, Zabrat və s. Beləliklə, Abşeron yarımadasının yerli azərbaycanlı əhalisi görünməmiş miqyasda genişmiqyaslı bir tədbirə məruz qalmalı idi.

1905-ci ilin sentyabr ayının sonunda Bakı general-qubernatoru S. A. Fadeyev Balaxanı, Sabunçu, Ramana və Zabrat kəndlərinin sakinlərinə canişinin həmin kəndlərdə hərbi hissələrin yerləşdirilməsi və ekzekusiya tədbirlərinin həyata keçirilməsi barədə sərəncamını elan etdi. Kəndlərin nümayəndələri bu sərəncamın ləğv edilməsi xahişi ilə canişinə müraciət etdilər. Sərəncamın ləğvi barədə vəsatət qaldırmaq üçün kəndlərin hər birindən iki nəfər olmaqla, ümumilikdə 8 nəfərdən ibarət nümayəndə heyəti Tiflisə, canişinin qəbuluna yollandı. Müraciətlərin təsiri altında, həmçinin, ehtimal ki, bu tədbirin iqtisadi nəticələrini və Cənubi Qafqazda milli münasibətlərin onsuz da kəskinləşdiyi bir şəraitdə müsəlman əhalinin göstərəcəyi reaksiyanı nəzərə alan hakimiyyət orqanları dörd kəndin sakinlərinin köçürülməsi məsələsini gündəlikdən çıxardılar.

Beləliklə, yuxarıda göstərilən faktlar sübut edir ki, ermənilərin Bakıda və onun ətrafında intensiv məskunlaşması XIX əsrin birinci qərinəsində Rusiya-Qacarlar müharibələrinin başa çatmasından və Rusiya imperiyasının Şimali Azərbaycanda möhkəmlənməsindən sonra başlanmışdır. Lakin yalnız XIX əsrin ikinci yarısından etibarən, Bakı tədricən dünya neft sənayesinin mərkəzinə çevrildikcə, ermənilər şəhərin iqtisadi və siyasi həyatında fəal rol oynamağa başlamışlar.



İlhami CƏFƏRSOY
AMEA İmadəddin Nəsimi adına Dilçilil İnstitutu,
filologiya elmləri diktoru

Prototürk
Bizans dövləti

Son yüz ildə yazılmış ensiklopediyalara, həsr olunan dərsliklərə inansaq, Avropa tarixçilərinin Bizans adlandığı dövlətin hökmdarları, Vizantiya adlandırdığı ölkənin hakimləri yunanlar olub.

Əslində isə qədim Ön Asiyanın elitar Türk nəsilləri idilər. Onlar Troya dövründə Turova mədəniyyətinin, Ellada dövründə İliada mədəniyyətinin, Bizans dövründə Buzan mədəniyyətinin yaradıcılarıdır.

XVIII-XIX əsrlərdə nəşr olunan tədqiqat əsərlərinə istinadən türkoloji tədqiqat üçün çox aktual olan belə bir problem elmi ictimaiyyətin müzakirəsinə çıxarılır ki, qədim türklərin Buzan və Duxa nəsilləri Anadoluda sonrakı dini xristianlıq olan Bizans xristian mədəniyyətinin yaradıcılarıdır.

Buzanların bir oymağı da Moiseyin Torasına tapınmış, Şimali Qara dəniz çöllərində, Xəzər xaqanlığının qərbində yaşamışdır.

Onlar bulqarlarla birləşərək Dunay Bulqar dövlətini yaradan tayfalardan biri olmuşlar.

O da elmi ictimaiyyətin müzakirəsinə çıxarılır ki, Duxa alpları və müdrikləri Bizans dövlətinin yaranışından çox qabaq e.ö. II minildə Şumerdə və Elamda hakimlər, kahinlər olmuşlar.

İndiyədək Tuva türkləri özlərini Duxa adlandırırsa, Başqurd folklorunda Duqa batır alp igidi varsa, Kumik folklorunda Duka obrazı varsa, Dədəmiz Qorqudun kitabında Duxa Qoca oğlu Dəli Domrul varsa, Duxa və Buzan qədim Avrasiyanın elitar Türk nədilləridir.

Ümumiləşmiş elmi fikirlərə görə Bizans yunanların dövləti, dövlətin imperatorları və vilayət hakimləri Duxa yunan nəslidir.

Əslində isə Buzan Ön Asiyanın qədim, Duxa çox qədim Türk xalqlarıdır. Buzan nəslinin elm və din xadimlərindən biri bəzi tarixçilərə görə IV, bəzilərinə görə V əsrdə yaşamışdır [Абегян: 1975.c.104].

Erməni dilçiləri, tarixçiləri onun adını Favtos Buzan kimi yazır və iddia edilər ki, o, ermənidir [Фавстос Бузанд: 1953.giriş; Абегян: 1975.c.104-105]. Ancaq əldə olan mənbələrin heç biri bu iddiaları təsdiq etmir.

Ona görə təsdiq etmir ki, o, erməni deyildi, xristian türklərin Buzan nəslindən idi. Ermənilər onu ermənilşdiriblər.

Akademik M.X.Abeğyan 1975-ci ildə nəşr etdirdiyi "Erməni ədəbiyyatı tarixi" kitabında o saxtakarlığı gizlədə bilməyib belə təqdim edir.

Favstos Buzand əsərin sonunda öz nəsli, soyu haqqında məlumat verəcəkdir, ancaq əsərin sonunda belə məlumat yoxdur [Абегян: 1975.c.104].

Ona görə yoxdur ki, onu kitabın tərcüməsi nəşriyyata gedərkən çıxarıb atıblar. Çıxarıb atıblar ki, onun Bulqar türklərinin Buzan nəslindən olduğu bilinməsin.

Manuk Xaçaturoviç fikrinə davam edərək yazır: - Bilinmir ki, Favstos ermənidir, yoxsa Bizanslıdır. Əsərini yunan dilində yazıb, yoxsa erməni dilində [Абегян: 1975.c.105].

Onda sualın cavabı aydın görünür, tarixçinin yunan və ya erməni olduğu bilinmirsə o nə yunandır, nə erməni.

Əsərin nə yunan, nə erməni dilində yazıldığı təsdiq olunmursa, tarixçi nə yunandır, nə erməni, Türklərin Buzan nəslindəndir. İstinad etdiyimiz mənbələr və elmi əsərlər göstərir ki, Favstos yunanların və ermənilərin yox, xristian türklərin tarixçisidir.

Bizans tarixçilərinin özləri də ölkənin əsas sakinlərini Bizans yox, Buzan adlandırırlar.

"Bizans tarixçiləri" kitabının 1858-ci il Sankt Peterburq nəşrində yazılıb: - Xilafətin başçısı Məhəmməd Sarı Çin suvarilərini silahlandırıb Buzanların ölkəsini tutmağa göndərdi [Византийские историки: 1858.c.25-26].

İvrit mətnlərində Saruxen, xristian salnamələrində Sarıçin adı ilə yazıya alınmış proto-türk xalqı Misirlə İzrail arasında yunanların Anadoluya gəlişindən qabaq yaşayırdılar.

Onların bir hissəsi Buzanlarla yanaşı, İslam dinini qəbul edib, Səlcuq bəylərinə qoşuldu, bir hissəsi xristian olaraq qaldı və Qafqaz dağlarının ətəklərinə çəkildi.

Smbat Sparapet yazır ki, Məlik şahın əmiri Puzan bəy 1086-cı ildə Rerxa şəhərini tutdu [Слибат Спарапет: 1974.c.55].

Buzanların bir oymağı da sasanilərin Qafqaza gəlişindən qabaq Albaniyada yurd salmışdı. Musa Kaqan Katuklu yazır ki, Albaniya qəbilə başçılarından biri Pusan bex Varaz Trdatın kilsəyə bağışladığı kəndi keşişlərin əlindən tutub aldı [Albaniya tarixi: 1993.s.184-185].

Xristianlıqdan üz döndərib Səlcuqlara xidmət edən bəylərdən biri Buzan bəy idi. Bu barədə xristian Suriya salnamələrində maraqlı bilgilər var.

O salnamələrdə qeyd olunur ki, döyüşlərdə göstərdiyi igidliklərə görə Buzan bəy Suriyanın Edessa şəhərinə hakim təyin edilmişdir [Гусейнов: 1960.c.116, 157].

Elə bir tarixi sənədə təsadüf etmirik ki, Buzan nəslinin yunan və ya erməni mənşəyi



haqqında bir cümlə olsun. Bütün mənbələrdə onlar şərq oğulları, köçəri elatlar adlandırılır.

Buzan elatları tarixən Anadoluda və Suriyada yox, Qafqazda, Volqa, Don, Dunay çayları arasında yayılmışdılar. Osmanlı ordusu baş qərargahının 1721-ci ildə tərtib etdiyi Dəftəri müfəssəli Tiflisdə yazılıb köçəri Buzanlu elatı Gürcüstanın Ağca qala nahiyəsində yaşayır [Dəftəri müfəssəli Tiflisdə yer adları:1984.s.162, 164].

Buzanların bir oymağı da XIX əsrdə ermənilərin Zəngəzur adlandırdığı Zəngi mahalında yaşayırdı. Onlar özləri özlərini Puşanlu adlandırırdılar [Гейбуллаев: 1986.c.75].

Xristian türklərin Zirək nəslindən olan Ananiya - Ananiya Şirakatsi yazır ki, Pusan Arsaxın bir vilayətidir [Мамедов: 1993.c.31].

Ermənilər öz gizli niyyətləri ilə Pusan etnotoponimlərini Psank kimi yazırlar, -k çoxluq və etnik mənsubluq bildirən şəkilçidir.

Buzanların cəsur bir nəsli də Xəzər xaqanlığının qonşuluğunda, Dunay çayı ilə Azov dənizi arasında yaşayırdı. Xəzər xaqanı İosifin Kür Tuba - Kordova xəlifəsinin vəziri Xasday ibn - Şafruta məktubunda bildirilir ki, Buzan Bolqar tayfa başçılarından biridir [Артамонов: 1962.c.476].

Onlar Bolqar deyildilər, bolqarlara qohum olan, Bolqar tayfa ittifaqına qoşulan Türk tayfalarından biri idilər.

Vest Qot kralı I Alarixin (370-410) zamanında Kazençi şəhəri yaxınlığındakı bir çay Buzento [Словарь антигпости: 1989.c.22], yəni Buzanlı adlanırdı. Bu məlumat onu göstərir ki, Buzanlı türklərin bir tayfası qotların gəlişindən qabaq hardasa Dunay çayı ilə Dnepr çayı arasında yaşayırmış.

VIII-IX əsrlərdə Don çayının aşağı axarı Buzan adlanırdısa [Плетнева: 1986.c.11, 47] deməli, onlar bir müddət Don çayı boyunun hakim tayfalarından biri olmuşdular.

Xəzər xaqanlarının hakimiyyəti illərində sonralar Volqa adlandırılan Bulqar çayının bir qolu Buzan adlanırdısa [Небольсин: 1852.c.28], Ural dağlarından başlayıb Xəzər dənizinə tökülən Ag Tuba çayının bir qolu Buzan adlanırdısa [Путешествие по Дагестану: 1852.c.10], indi Rusiya adlanan ölkənin yarıdan çoxu biz türklərin tarixi torpaqlarıdır.

Buzan etnonimi pozan hərbi ləqəbi əsasında yaranmışdır. Koroglu eposunda düşmənin alaylarını dağıdan, pozan alp igidlərdən birinə Halay Pozan adı verildiyini görürük.

Çox qədim, arxaik Türk düşüncəsinə görə Buzan Car İlan Qoanın, üç oğlundan biridir. Q.Berezinə istinadən Baron Brambaus ləqəbli Senkovski yazır ki, qoa gözəl qız deməkdir [Сенковскtй: VII. 1859.c.34-35].

Qoa Türk dillərindəki gözəl sözünün köküdür. Çox gözəl qız olan İlan Qoanı Bayana ərə verirlər. Onun Bayandan üç oğlu olur. Oğlanın birinə Buzan Çar adı qoyurlar [Сенковскtй: VII: 1859.c.34-35].

Buzan Çarın atası Bayan, bəzi mənbələrdə Bayatdırsa, Bayan və Bayat Türk etnonimləri, teonimləridir.

Buzan Alpın Çar titulu türkoloji tədqiqat üçün xüsusilə maraqlıdır. Mifik Türk şəcərəsinə görə Buzan Çar Çingiz xanın əcdadlarından biridir [Сенковскtй: VII. 1859.c.34-35].

Ancaq Çingiz xanın dünyaya gəlişindən çox qabaq Azərbaycanda Çar, Carlı, Bala Car, Krar Car adlı tayfalar yaşayırdı. Mxitar Qoş yazır ki, Albaniyanın bir vilayəti onların adı ilə Caraberd [Alban salnaməsi: 1993.s.249], yəni Car qalası adlanırdı.

Əhməd bəy Cavanşir yazır ki, Qara Çarlı tayfası Pənah xanın zamanında Qarabağda və qonşu xanlıqlarda yaşayırdı [Əhməd bəy Cavanşir: 1960.s.20].

Carlıların 1 qolu olan Bala Carlılar Sasanilərlə vuruşa-vuruşa Kür və Araz arasından Qafqaz dağlarının ətəyinə çəkilmişdilər. Sasanilərin süqutundan sonra yenidən Qarabağa qayıtdılar.

Təbəri (839-923) yazır ki, Xosrov Ənuşirəvan ərəblərin gəlişindən qabaq Çor keçidi (Dərbənd - İ.C) yaxınlığında Cor tayfası ilə müqavilə bağlayıb Balancar (Bala Car - İ.C.)

tayfasını məğlub etdi [Артамонов: 1962.c.125].

Çar, Qara Çar kimi Çor, Qara Çor da arxaik Türk titullarıdır [Гумилев: 1967.c.238; Санан Азер: 1942.c.12; Минорский: 1963.c.52].

Totemik tanrıları Çar, Çor, Bayan Car, Buzan Car olan babalarımız Anadoluda yunanlardan qabaq Duka bəylərinin qılıncı altında Buzan dövlətini yaratdılar. Biz indi yabançı düşüncəsini təsiri altında Buzan dövlətinə Bizans, Buzan ölkəsinə Vizantiya deyirik.

Buzanların ölkəsinin I Dukadan başlamış XVI Duksya qədər imperatorlarının adlarını unutmuşuq.

İlk öncə onu nəzərə almaq lazımdır ki, e.ö. III-II minillərdə teonim mənşəli Duka, Car mifoloji obrazları Şumer, Xett panteonunda var idi.

Duka Bizans imperiyasının imperator nəslidir. Dünyada çox az aristokratik nəsil tapmaq olar ki, bu qədər uzun müddətə ölkədə hökmranlıq eləsin.

Həmin nəsildən I Duka Anadoluda yaşayan Almanların qalasını mühasirəyə almış, güclü donanma yaradıb Siciliyanı tutmuşdu [Византийские историки: 1858.c.4, 9; Византийские историки: 1859.c.IV, VII].

Duka Konstantin 1059-1067-ci illərdə hakimiyyətdə [Сысоев: 1925.c.22], Duka Mixail 1072-1078-ci illərdə hakimiyyətdə olmuşdur [SMOMPK: IV. 1890.s.51].

Prototürk Duka nəslindən krallar, qoşun başçıları yox, şairlər, elm və din xadimləri, yazıçıları, tarixçilər çıxmışdır. Onlardan biri XV əsrdə yaşamış Mixail Duka idi [Кеппен: 1890.c.369; Клюгков: 1983.c.103].

Avropa tarixçiləri kimi erməni tarixçiləri iddia edirlər ki, Bizans hökmdarları, o cümlədən Konstantin Duka yunandır [Брюсов: 1989.c.103]. Əslində isə o, xristian Türk imperatorlarından biridir.

Dədəmiz Qorqudun kitabında Duxa Qoca oğlu Dəli Domrul eponimi var. Dəli Domrul quru çayın üstündən körpü salıb. ●

Ədəbiyyat:

Türk dillərində

1. *Albaniya tarixi: 1993 - Albaniya tarixi. Bakı, Elm. 1993.*
2. *İslam Sadıq: 2015 - İslam Sadıq. Şumer epik mətnləri və Türk xalq yaradıcılığı. Doktorluq dissertasiyası. Bakı, 2015.*
3. *KDQ: 1988 - Kitabi-Dədə Qorqud. Bakı, Yazıçı, 1988.*
4. *Baharlı: 1993 - Baharlı Məhəmməd Həsən. Azərbaycan, Bakı, 1993.*
5. *Dəftəri - müfəssəli - Tiflis: 1984 - Dəftəri - müfəssəli - Tiflisdə yer adları. Azərbaycan filologiyası məsələləri. Bakı, 1984, s. 106-114.*
6. *Faruk Sümər: 1992 - Faruk Sümər. Oğuzlar. Bakı, Yazıçı, 1988.*
7. *Əhməd bəy Cavanşir: 1960 - Əhməd bəy Cavanşir. Qarabağın siyahısı tarixinə dair. Bakı, Azərbaycan EA nəşriyyatı. 1993.*
8. *Solmaz Qaşqay: 2006 - Solmaz Qaşqay. Qədim Azərbaycan tarixi mixiyazılı mənbələrdə. Bakı, Təhsil. 2006.*
9. *Sanan Azer: 1942 - Sanan Azer. İran türkleri. İstanbul İşil matbaası, 1942.*
10. *Təhmasib: 1973 - Təhmasib Məhəmmədhəsən. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı, Maarif, 1973.*

Rus dilində

11. *Абегян: 1975 - Абегян М.Х. История древнеармянской литературы. Ереван, 1975.*
12. *Аджиев: 1975 - Аджиев А.М. Кумыкский йыр. Москва, 1975.*
13. *Арутюнян: 1985 - Арутюнян Н.В. Топонимика Урарту. т. 1, Ереван, 1985.*
14. *Авраам Норов: 1854 - Авраам Норов. Путешествие по Сицилии. т. 1, Санкт Петербург, 1854.*
15. *Артамонов: 1962 - Артамонов М.И. История Хазар. Ленинград, 1962.*
16. *Башкирские народные сказки: 1986 - Башкирские народные сказки. Уфа, 1986.*

17. *Брюсов Валерий: 1989 - Брюсов Валерий. Леторис исторических судеб армянского народа. Ереван, Айастан, 1986.*
18. *Византийские историки: 1858 - Византийские историки. Санкт Петербург, 1858.*
19. *Византийские историки: 1859 - Византийские историки. Санкт Петербург, 1859.*
20. *Византийские историки: 1860 - Византийские историки. Санкт Петербург, 1860.*
21. *География Грузии: 1904 - Царевигт Вахушти. География Грузии. Тифлись, 1904.*
22. *Гейбуллаев: 1986 - Гейбуллаев Т.А. Топонимика Азербайджана. Баку, Элм, 1986.*
23. *Гумилев: 1967 - Гумилев А.Н.Древние тюрки. Ленинград, Наука, 1967.*
24. *Гусейнов: 1960 - Гусейнов Г. Сирийские источники об Азербайджане. Баку, 1960.*
25. *Даврижеци: 1973 - Даврижеци Аракел. Книга истории. Москва, Наука, 1973.*
26. *Джаукян: 1964 -*
27. *Джаукян: 1988 - Джаукян Т.Б. О соотношении хаясского и армянского языков. Историко-филологический жунал, 1988. №1, с. 37-59.*
28. *История греческих путешествий: 1824 - История греческих путешествий. ч.2. Москва, 1824.*
29. *Коковцев: 1932 - Коковцев Н.К. Еврейско - Хазарская переписка в X веке. Ленинград, 1932.*
30. *Кеппен: 1837 - Кеппен Петр. Крымский сборник. Санкт Петербург, 1837.*
31. *Клюцков: 1983 - Клюцков И.С. Позднеавиланский список поэтов и ученных. Москва. Вестник древней истории, 1983.*
32. *Мамедов: 1993 - Мамедов Т.М. Кавказская Албания в ЫВ-ВЫЫ вв. Баку, Маариф, 1993.*
33. *Масперо: 1911 - Масперо Г. Древниий Восток. Москва, 1911.*
34. *Минорский: 1969 - Минорский В.Ф. История Иревана и Дербента. Баку, Элм, 1969.*
35. *Любский: 1978 - Любский Я.Н. Тримечания. Хронография. Москва, Наука, 1978.*
36. *Краткое руководство кг древней географии: 1973 - Краткое руководство кг древней географии. Санкт Петербург, 1973.*
37. *Небольсин: 1852 - Небольсин Павел. Очерки Волжского низовья. Санкт Петербург, 1852.*
38. *Плетнева: 1986 - Плетнева С.А. Хазары, Москва, Наука, 1986.*
39. *Путешествие по Дацестану: 1852 - Путешествие по Дацестану. Москва, 1852.*
40. *Пселл Михаил: 1978 - Пселл Михаил. Хронография. Москва, 1978.*
41. *Ремезов: 1889 - Ремезов Н.В. Очерки жизнии дикой. Москва, 1889.*
42. *Фавстос Бузанд: 1953 - Фавстос Бузанд. История Армении. Ереван, 1953.*
43. *Саттаров: 1980 - Саттаров Г.Ф. Этнотопонимы Татарстана. Советская тюркология, № 3, Баку, 1989. с. 28-37.*
44. *Сенковский: 1859 - Сенковский (Барон Брамбаус). Сочинение, т. ВЫ, Санкт Петербург, 1859.*
45. *СМОМПК: ЫХ. 1890 - Список для описания местиостей и плелен Кавказа. вып. ЫХ. Тифлис, 1890.*
46. *Словарь античности: 1989 - Словарь античности. Москва. Изд-во Прогрес, 1989.*
47. *Смбат Спарапет: 1974 - Смбат Спарапет. Летопись Ереван, 1974.*
48. *Сыркин: 1964 - Сыркин А.Я. Поэма о Тегенисе Акрите. Москва, Наука, 1964.*
49. *Сысоев: 1925 - Сысоев В.М. Краткий путеводитель по древностям. Баку. 1925.*
50. *Сысоев: 1928 - Сысоев В.М. Лачин. Баку, 1928.*
51. *Сысоев: 1930 - Сысоев В.М. Краткий путеводитель по древностян Азербайджана Баку, 1930.*
52. *Умняков: 1938 - Умняков И.И. История Фахраддина Мубарак шаха. Вестник древней истории. Москва, 1938. №1. С. 42-54.*
53. *Ямпольский: 1999 - Ямпольский А.Ю. Сказание о Бамсы Бейреке. В кн. Книга моего деда Коркута. Баку, УНЕ ХХЫ. 1999. С. 154-176.*

Yaşar RƏHİMOV
AMEA Naxçıvan Bölməsi,
tarix üzrə fəlsəfə doktoru



Əcəmi Naxçıvaninin ilk məlum abidəsi- *Yusif Küseyir oğlu türbəsi*

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev 2025-ci il 22 dekabr tarixdə 2026-cı il üçün Azərbaycan Respublikasında "Şəhərsalma və Memarlıq İli" haqqında Sərəncam imzalamışdır. Sərəncamın lap əvvəlində yazılmışdır: "Azərbaycanda şəhərsalma və memarlıq ənənələrinin çoxəsrlik zəngin bir keçmişi vardır. İpək Yolu üzərində yerləşən və mühüm ticarət, sənətkarlıq, mədəniyyət mərkəzləri kimi Şərq ölkələri ilə sıx iqtisadi, siyasi və mədəni əlaqələr quran iri şəhərlərimizin özünəməxsus simasının formalaşmasında qiymətli memarlıq abidələri müstəsna rol oynamışdır.

Azərbaycan şəhərsalma və memarlıq sənətinin bariz nümunələri olub daim yüksək inkişaf səviyyəsinə görə seçilən tarixi şəhərlərimiz ötən dövrlərin memarlıq tendensiyalarına uyğun böyüyüb genişlənməklə bərabər, yerli mədəniyyətin əsas xüsusiyyətlərini qoruyub saxlamışdır.

Bu gün ölkə ərazisində dövlət tərəfindən mühafizə olunan müdafiə qalaları, karvansaralar, məscid, məbəd və türbələr milli memarlığın parlaq ənənələrini əks etdirir. Bədii-memarlıq həllinin kamilliyi baxımından iftixar hissi doğuran dünya əhəmiyyətli tarix və mədəniyyət abidələrindən Möminə xatun türbəsi, Xudafərin körpüsü, "Atəşgah" kompleksi və digər bu kimi misilsiz nümunələr Azərbaycanın memarlığının rəmzlərinə çevrilmişdir.

UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş nadir sərvətlərimiz - qədim və orta əsrlərin şəhər mədəniyyətini özündə təcəssüm etdirən İçərişəhər və Şirvanşahlar sarayı kompleksi, əzəmətli ruhunu indiyədək qoruyan Qız Qalası, Şəkinin tarixi mərkəzi və Xan sarayı Azərbaycan şəhərsalma və memarlıq sənətinin dünya inciləri sırasında layiqli yer tutan yadigarlarıdır.

900 illiyi UNESCO çərçivəsində yubileyləri keçirilən böyük şəxsiyyətlər siyahısına daxil olunan qüdrətli sənətkar Əcəmi Naxçıvaninin Azərbaycan və Yaxın Şərq ölkələrinin orta əsrlər memarlığına güclü təsir göstərmiş yaradıcılığı dövrün memarlıq məktəbinin ən yüksək zirvəsidir.

Bu sərəncamın işığında Azərbaycanın, o cümlədən Naxçıvanın tarixi-memarlıq abidələrinin tədqiq edilməsi qarşıda duran əsas vəzifələrdəndir.



Beş min il bundan əvvəl şəhər kimi formalaşan Naxçıvan çox böyük inkişaf yolu keçib, XII əsrdə burada Azərbaycanın Naxçıvan memarlıq məktəbi formalaşmış, çoxlu tarix-memarlıq abidələri yaradılmışdır. Belə abidələrdən biri də Naxçıvan memarlıq məktəbinin banisi Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən Naxçıvan şəhərində 1162-ci ildə inşa edilən Yusif Küseyr oğlu türbəsidir. El arasında "Atababa günbəzi" kimi də tanınan abidə yeraltı sərdabədən və yerüstü türbədən ibarətdir. Daxildən və xaricdən səkkizguşəli şəkildə ucaldılan türbə piramida şəkilli günbəzlə örtülmüşdür. Naxçıvanın türk-islam mədəniyyətinin ən dəyərli nümunələrindən olan Yusif Küseyr oğlu türbəsi Azərbaycanın qülləvari türbələri içərisində yeganə abidədir ki, üst piramida örtüyü zəmanəmizədək tamamilə salamat vəziyyətdə gəlib çatmışdır.

Məqbərənin giriş qapısının baş tərəfində dörd sətirdə yazılan kitabədən aydın olur ki, türbə hicri təqvimi ilə 557-ci ildə (1162-ci il) Yusif Küseyr oğlunun xatirəsinə inşa etdirilmişdir. Məqbərənin qurşağında “Qurani-Kərim”in "Al-i İmran" surəsindən 15-17-ci ayələr, tağı üzərində isə "Bənna Əcəmi Əbubəkr oğlu Naxçıvaninin əməlidir" sözləri yazılmışdır. Yusif Küseyr oğlu kitabədə "tanınmış rəis", "mömin", "islamın gözəlliyi", "şeyxlərin başçısı" titul və epitetləri ilə təqdim olunmuşdur. Yusif Küseyr oğlunun tutduğu şəhər rəisi vəzifəsi o dövrdə kifayət qədər nüfuzlu idi.

Azərbaycan memarlığının görkəmli nümayəndəsi Əcəmi Əbubəkr oğlu Naxçıvanı də Naxçıvanın görkəmli tarixi şəxsiyyətlərindəndir. Əcəmi Əbubəkr oğlu Naxçıvani yalnız Şərqdə deyil, eyni zamanda Qərb dünyasında yaxşı tanınan memarlardan biridir. O, orta əsrlərdə Azərbaycanda yetişmiş və dünya şöhrəti qazanmış memardır. Əcəmi Naxçıvaninin adı Azərbaycan memarlığının ən görkəmli nümayəndəsi və Naxçıvan memarlıq məktəbinin banisi kimi mədəniyyət tariximizə əbədi həkk olunmuşdur. O, sənət dühası ilə orta əsrlər Azərbaycan memarlığına yeni təkan vermis, Səlcuqlular dövrü memarlığının sərt üslubuna incəlik və dinamizm bəxş etmiş, Yaxın Sərq memarlığına güclü təsir göstərmişdir. Kamil sənətkar Əcəminin adı həm də Azərbaycan ictimai fikir tarixində şərəfli yer tutur. Böyük memar Əcəminin ilk məlum abidəsi Yusif Küseyir oğlu türbəsidir.

Yusif Küseyir oğlu türbəsi memar Əcəminin ilk məlum əsəridir. Yaratdığı abidələrin üzərindəki kitabələrdə özünü "Əbubəkr oğlu Əcəmi, Naxçıvanlı memar" adlandıran sənətkarın təsviri sənəti və mühəndisliyi memarlıqda üzvi şəkildə birəşdiyi aydın görünür. Şərqin böyük dühaları onu "Şeyxül-mühəndis" (mühəndislərin başçısı) adlandırıblar.). Əcəminin yaradıcılığı XII əsrdə qüdrətli Azərbaycan Atabəylər dövlətinin paytaxtı Naxçıvanla bağlı olub.

Xalq arasında "Atababa günbəzi" və ya "Atababa türbəsi" adı ilə məşhur olan 864 yaşlı bu türbə Naxçıvan şəhərinin cənub-şərq tərəfində yerləşir. Əsrlərin təsiri nəticəsində türbə son dərəcədə aşınmış bir vəziyyətdə idi. Ötən əsrin 50-ci illərinin sonu və 60-cı illərinin əvvəllərində aparılan bərpa işləri nəticəsində türbənin dağılmış hissələri düzəldilmiş, mühəndis qurğuları möhkəmləndirilmişdir.

Şərq memarlığı incilərindən sayılan abidə yeraltı sərdabədən və yerüstü qülləvarı hissədən ibarətdir. Planda abidənin yerüstü hissəsi daxildən və xaricdən səkkizbucaqlı şəklindədir. Divarların qalınlığı 80 sm-dir. Pəncərələri yoxdur, hündürlüyü 8 metrə yaxındır. Divarlara qalınlığı 12 sm olan plitələrdən üz çəkilmişdir.

Türbənin səkkizbucaqlı gövdəsi piramida şəkilli kərpic günbəzlə örtülmüşdür. Yusif Küseyir oğlu türbəsində biz ikiqat günbəz quruluşunun ən görkəmli və bizim zəmanəmizə qədər əvvəlki şəklini mühafizə etmiş yeganə bir nümunəsini görürük.

Azərbaycan milli memarlığının möhtəşəm abidəsi olan türbənin səthi müxtəlif şəkilli həndəsi ornamentlə bəzənmişdir. Kiçik kərpicdən quraşdırılmış bu ornament gəc məhlulu ilə tavalar şəklində bütövləşdirilərək səthlərin üzərində bərkidilmişdir. Türbənin yalnız yan və qərb tərəfə baxan səthi başqa şəkildə quraşdırılmışdır. Burada türbənin çatmatağ şəkilli giriş qapısı yerləşdirilmiş və bu qapının ətrafında haşiyələr şəklində verilmiş çıxıntılar vasitəsilə bu hissə bir baştağ-portal şəkli almışdır. Türbənin rəis Yusif Küseyir oğlu üçün hicri 557-ci ildə, yəni eramızın 1162-ci ilində tikildiyini göstərən kitabə bu səthin yuxarı hissəsində yerləşdirilmişdir. Türbənin səthlərindən yuxarı hissə qurşaq şəklində ayrılmış və burada da kitabə yerləşdirilmişdir. Giriş qapısından sol tərəfdə kufu xətlə ərəbcə memarın adı yazılmışdır: "Əməli Əcəmi bin Əbubəkr; əlbənan ən Naxçıvanı" yəni "bənna Memar Əcəmi Əbu Bəkr oğlu Naxçıvaninin əməlidir". Yazının hərfləri 20 x 20 x 4 sm ölçülü kərpiclərdən düzəldilərək, onun fonunu əmələ gətirən friz müstəvisindən 2 sm irəli çıxır. Frizin əsas müstəvisini isə kiçik ölçülü kərpiclər təşkil edir. Bu kərpiclərin şaquli tikişləri ensiz, üfüqi tikişləri isə enlidir.

Türbənin üzərindəki digər bir kitabədə isə yazılıb: "Bu türbə xacə, şanlı rəis, dinin zəkası, islamın camalı, şeyxlər başçısı Yusif Küseyir oğlunundur."

Yusif Küseyir oğlu türbəsi həcm etibarılə bir o qədər böyük tikinti olmasa da, memarlıq bəzəyi nisbətən sadə olsa da, öz ümumi kompozisiyasının aydınlığı və hissələrinin mütənasibliyi etibarılə və eləcə də inşaat işlərinin diqqətlə aparılması cəhətdən gözəl bir memarlıq nümunəsidir. Memar Əcəmi şəkilcə müxtəlif olan ornamentlərdə bir ahəng yaratmağa müvəffəq olmuş və ornament bəzəyinin müxtəlifliyi nəticəsində türbə səthlərinin ala-bəzək görünməsinə yol verməmişdir.

Memarlıq üzrə fəlsəfə doktoru Q.Əliyev türbənin kitabələrindən və quruluşundan bəhs edərək yazır: "İlk baxışdan təmiz həndəsi biçimi və gözəl harmonik quruluşu ilə diqqəti cəlb edir. İkiqatlı olan türbənin hər iki qatı planda düzgün səkkizbucaqlıdır. Səkkizüzlü

plana uyğun olan sərdabə yastı günbəzlə örtülmüşdür. Üst qüllədə isə səkkizüzlünün həm içəri, həm də bayır üzləri dayaz taxçalar əmələ gətirmiş, daxili məkan sferokonik bayır prizmatik tutum isə səkkizüzlü uca piramidal günbəzlə örtülüb. Türbənin divarları o qədər qalın olmasa da (80 sm), künclərin konstruktiv möhkəmliyi onun uzunömürlülüyünü təmin edir. Konstruktiv həllinin yüksək olmasının nəticəsidir ki, Azərbaycan qülləvari türbələri içərisində üst piramidal örtük 800 ildən artıq bir müddətdə dağılmamış qalıb. Türbənin taxçaları kərpicdən yığılan həndəsi ornamentlərlə örtülüb. Taxçalarının üstünü isə gövdəni dövrələmə yazı qurşağı qapayır. Türbənin quzey üzü fərqli kompozisiyaya malikdir. Bu üzdə yerləşən qapının üst hissəsi böyük kitabə ilə bəzədilib. Türbənin bütün kitabələri keyfiyyətli bişmiş kərpicdəndir" (4, s, 95-96).

Abidənin gövdəsindəki frizdə (haşiyə) kufi xətlə Qurandan ayələr yazılmışdır. Prizma şəkilli "Atababa günbəzi"nin divarları yanı üstə qoyulmuş kərpiclər vasitəsilə həndəsi naxışlarla bəzədilmişdir. Həndəsi quruluşlu bu naxışların dəqiq düzülə bilməsi Əcəminin həndəsə və ümumiyyətlə, riyaziyyat elmləri ilə yaxından tanışlığını göstərir. Memar bu kərpiclərə rəng vurmadan onlardan böyük məharətlə istifadə etmiş, işıq və kölgə salmaq yolu ilə yüksək bədii sənət nümunəsi yaratmışdır.

XX əsrin 20-ci illərində Naxçıvanda olmuş rus müəllifi V.M.Sısoyev türbənin quruluşu haqqında yazırdı: "Qüllə qırmızımtıl kərpicdən tikilib və ölçüsü 19 x 10 x 4-dür. Hər yan taxçanın daxildə eni 1,8 m-dir; taxçalar bir-birindən kiçik bir pilastrla ayrılıb: 10 + 20-10 sm. Xaricdə, hər bir fasetdə pilastrlarla 3,3 mm enində dayaz taxçalar da var: 10 + 28 + 28 + 10 sm. Divarların qalınlığı təxminən 0,6 m-dir. Qərb tərəfində giriş açılmışdı, lakin indi bağlanıb; giriş qapısının uclu kil formalı tağı var idi. İndi qüllə həyətin sahibi tərəfindən tövləyə çevrilib: ot və digər məişət əşyaları burada saxlanılır. İndi onlar şimal tərəfindəki yeni qapıdan daxil olurlar. Təsvir edilən yuxarı mərtəbənin altında, yer səviyyəsindən aşağıda, aşağı mərtəbə, əsl məzar, dəfn qayası var... Aşağı otaqda hazırda qaçqın sakinlər yaşayır. Yerli sakinlər iddia edirlər ki, aşağı otaqda vaxtilə kərpiclə üzlənmiş və yaşıl kərpic mozaikası ilə bəzədilmiş bir məzar olub. Ümumi hündürlüyü 8 metrə qədərdir. Pəncərələr yoxdur" (9, s.101).

Abidənin üzərindəki yazını bir daha xatırlayaq: "islamın camalı, şeyxlər başçısı". Şeyxlər başçısı orta əsr Azərbaycan dövlətlərində ən yüksək dini rütbə olub və bu şəxs islam dininə uyğun fitvaların verilməsi ilə məşğul idi. AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Hacı Fəxrəddin Səfərliyə görə "şeyx" titulu ilə orta əsrlər zamanı xanəgah rəhbərlərinə, təriqət başçılarına, dini rəhbərlərə müraciət edilirdi. Həmçinin kitabədə adına əlavə edilən "Şeyxlərin başçısı" sözləri isə Yusif Küseyir oğlunun şəhərdə yaşayan ali ruhani təbəqəsinə və həmin vaxt Naxçıvan şəhərində fəaliyyət göstərən müxtəlif sufi təriqətlərinə mənsub xanəgahların başçılarına rəhbərlik etdiyini göstərir (7, s.71). Yeri gəlmişkən Naxçıvanın Orta Əsrlər tarixinin müxtəlif sahələrinə dair obyektiv və sanballı tədqiqatlar Fəxrəddin müəllimə məxsusdur.

"Şanlı rəis" ifadəsi də Yusif Küseyir oğlunun öz dövrü üçün böyük nüfuz sahibi olduğundan xəbər verir. "Azərbaycan Atabəyləri dövləti" kitabında dövlətin idarəçilik sistemindən bəhs edən mərhum akademik Ziya Bünyadov yazırdı: "Rəislər bir qayda olaraq, yerli tanınmış nəsildən seçilirdi. Onların vəzifəsi həmişə irsi olurdu. Ətrafdakı mahal və kənd rəisləri şəhər rəisinə tabe idilər. Naxçıvanda həmçinin yerli şeyxlərin başçısı Yusif

ibn Kəsirin (Qüseyrin) məqbərəsi də yerləşmişdi. O, hicri 557-ci ilin şəvval ayında (13.09-11.10.1162) tikilmişdir" (3, s.162, 170).

Görkəmli memar Əcəmi Naxçıvaninin doğulduğu tarix dəqiq məlum olmadığı üçün "Naxçıvan ensiklopediyası"nda onun doğum tarixi XII əsrin 20-ci illəri kimi qeyd olunmuşdur (5, s.150). Təəssüflə qeyd etməliyik ki, mənbələrdə, tarixi ədəbiyyat və sənədlərdə bu məşhur və tanınmış naxçıvanlı sənətkarın haqqında heç bir məlumata rast gəlinmədiyi üçün onun şəxsiyyəti barədə ətraflı bilgilər əldə etmək mümkün deyil.

O dövrün hörmətli şəxslərindən biri Yusif Küseyir oğlu olub. Bu tikili məhz onun şərəfinə inşa etdirilmişdir. Fikrimizcə, bu abidə memar Əcəmi Naxçıvaninin ilk əsəridir. Yusif Küseyir oğlu türbəsi üzərində olan ornamentlərin nisbətən öz sadəliyi ilə seçilməsi bizim bu qənaətə gəlməyimizə əsas verir. Türbə ustad memarın bu günümüzə gəlib çatan böyük əsəri kimi çox qiymətlidir.

Qadir Əliyevin yazdığı "Memar Əcəmi Naxçıvani yaradıcılığında ahəngdarlıq" adlı kitabda Yusif Küseyir oğlu türbəsi barədə aşağıdakı məlumatlar verilir: "Memarlıq dekorunda girih naxışların aparıcı rol oynaması baxımından Yusif Küseyir oğlu turbəsi Azərbaycan memarlığında yeni mərhələdir. Səkkizüzlü gövdəsi olan bu abidənin üz taxçaları mürəkkəb quruluşlu kərpic girih naxışlar sistemi ilə örtülmüşdür. Yusif Küseyir oğlu türbəsinin memarlıq quruluşunun inkişaf edərək Möminə xatun türbəsinin mürəkkəb quruluşuna keçməsi və burada ən yüksək səviyyəyə çatması qanununa uyğun olaraq ornamentlərin quruluşları da müvafiq surətdə inkişaf edir və Möminə xatun türbəsində ən yüksək zirvəyə çatır. Belə ki, sonra görəcəyimiz kimi türbələrin quruluşuna uyğun olaraq Yusif Küseyir oğlu türbəsi üzlərindəki həndəsi ornamentlərin düzgün altıbucaqlı, kvadrat və bu mənbədən yaranan mütənasiblik sistemlərinə uyğun quruluşları inkişaf edərək Möminə xatun türbəsinin həndəsi ornamentlərinin quruluşunu müəyyən edən qızıl bölgü mütənasiblik prinsipinə (düzgün onbucaqlı) çevrilir" (4, 121).

Rahibə Əliyevanın "Memar Əcəmi Əbubəkir oğlu Naxçıvani" adlı kitabında oxuyuruq: "Yusif Küseyir türbəsi həcm etibarilə bir o qədər böyük tikinti olmasa da, ümumi kompozisiya aydınlığı, yüksək səviyyəli inşaat işləri, gözəl daş nəqqaşlıq işləri memar Əcəminin yüksək sənətkarlığından xəbər verir. Türbənin taxçalarının səthində kərpic dekorun "girih" adlanan xüsusi həndəsi ornamentlərindən istifadə olunmuşdur. Girih naxışlarını əmələ gətirən elementlər həndəsi formalardan (çoxbucaqlar, yaxud ulduzlardan) ibarətdir. Ciddi riyazi qanuna tabe olan bu naxışlar bütünlüklə xətlərin bir-biri ilə bağlı ahəngdar birləşməsindən yaranır".

Bu abidə haqqında, onun yerləşdiyi ərazi, quruluşu, ölçüləri və s. barədə müxtəlif əcnəbi mənbələrdə, o cümlədən rus mənbələrində də müəyyən qeydlər vardır. Xüsusilə rus müəllifi V.M.Sısoyevin Naxçıvanla bağlı tədqiqatlarında abidə ilə bağlı nisbətən ətraflı məlumatlar verilmişdir: "Atabəy məqbərəsindən yarım kilometr şərqdə, dar və tənha bir ərazidə Naxçıvanın ikinci kiçik qülləsi və ya Ata-Baba məqbərəsi yerləşir. Bu, tipik səkkizguşəli gumbəzdır. Daxili diametri 6 metrdir və hər bir üzünün içərisində dayaz bir taxça var. Dairəvi günbəz tağının başlanğıcına qədər daxili hündürlüyü 5 metr, günbəz tağının özü isə 2 metr hündürlükdədir. Günbəz daxildən dairəvi, xaricdən isə səkkizguşəli piramida formasındadır; hazırda bir leylək günbəzin üstündə yuva qurub və orada bir ayağının üstündə səliqəli şəkildə dayanır, dimdiyi titrəyir" (9, s.101).

Kompazisiyasına, tektonik aydınlığına, hissələrinin mütənasibliyinə, mühəndis quruluşunun səviyyəsinə görə türbə yüksək bədii-memarlıq nümunəsidir. Həm yerli əhali, həm də Naxçıvan şəhərinə gələn turist və əcnəbilər Əcəminin fəaliyyətini onun yaratdığı abidələrdən və bu abidələrin üzərindəki kitabələrdən öyrənə bilirlər. Bu nəhəng simanın yaradıcılığının həqiqi önəmini və mənasını yaxşı düşünsək görərik ki, əsərlərinin mənası haqdır. Haqq olan hər hansı bir şey özünü birbaşa və dolayı yolla göstərir (4, s.19). Əcəminin yaratdığı memarlıq abidələri Azərbaycan xalqının mədəniyyət xəzinəsinə həmişəlik daxil olmuşdur.

Naxçıvanda olarkən türbə ilə yaxından tanış olan V.M. Sısoyev də türbə üzərində kufi xətlə yazılmış yazılardan bəhs etmişdir: "Qərb tərəfində, indi kərpiclə hörülmüş girişin üstündə, kiçik hərflərlə yazılmış üç sətirlik ərəbcə kufi kitabəsi var və bu kitabə kiçik kərpiclərdən yonulmuşdur. Günbəzin konusunun bir az aşağısında, karniz boyunca, böyük hərflərlə yazılmış başqa bir ərəbcə kufi kitabəsi var" (9, s.101).

Deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, Yusif Küseyr oğlu türbəsi Naxçıvanın türk-islam mədəniyyətinin ən dəyərli nümunələrindən biridir. Naxçıvan-Marağa memarlıq məktəbinin və ümumilikdə Azərbaycan memarlığının ən böyük nümayəndələrindən biri olan memar Əcəmi Naxçıvaninin bu əsəri möhtəşəm tarixi memarlıq abidəsi olmaqla yanaşı, onun müəllifinin yüksək qabiliyyətinin nəticəsi kimi də diqqət çəkir.

Bu gün Yusif Küseyir oğlu türbəsi Azərbaycan memarlıq irsinin qiymətli nümunələrindən biri kimi qorunmaqla yanaşı, həm yerli, həm də xarici tədqiqatçılar tərəfindən öyrənilməkdə davam edir. Bu abidə Naxçıvanın zəngin tarixi-mədəni irsini və orta əsr Azərbaycan memarlığının yüksək inkişaf səviyyəsini əyani şəkildə nümayiş etdirir.

Son illərdə muxtar respublikada tarixi abidələrə göstərilən dövlət qayğısı Yusif Küseyir oğlu türbəsini də əhatə edib. Belə ki, şəhərin Şahab məhəlləsində yerləşən türbənin içərisinə elektrik xətti çəkilərək işıqlandırma sistemi qurulub. Abidənin ətrafında isə abadlıq işləri aparılıb, ərazidə yaşıllaşdırma tədbirləri həyata keçirilib, oturacaqlar qoyulub. ●

Ədəbiyyat

1. *Azərbaycanın tarixi abidələri. Bakı: Azərb. SSR Elmlər Akademiyası nəşriyyatı, 1968, səh.48.*
2. *Abdullayeva, S. Azərbaycanın dövlətçilik və mədəniyyət tarixində Naxçıvanın yeri və rolu / 525-ci qəzet, 18.09, 2014.*
3. *Bünyadov, Z. Azərbaycan Atabəylər dövləti. Bakı: Elm, 1985, 268 s.*
4. *Əliyev, Q. Memar Əcəmi Naxçıvani yaradıcılığında ahəngdarlıq. Bakı: Şərq-Qərb, 2007, 163 s.*
5. *Naxçıvan ensklopediyası. 2 cilddə, cid 1, Naxçıvan, 2005, 361 s.*
6. *Naxçıvan abidələri ensklopediyası, Naxçıvan, 2008, s.478-482.*
7. *Hacıfəxrəddin, Səfərli. Naxçıvanın türk-islam mədəniyyət abidələri. Naxçıvan: Əcəmi NPB, 2017, s.69-71*
8. *"Yeni Azərbaycan" qəzeti, 23 dekabr.2025-ci il, s.2*
9. *Сысоев, В.М. Нахичевань на Араксе и древности Нахичеванской ССР (отчет о поездке летом 1926 г.). Известия "Азкомстарис"а, выпуск 4 (тетрадь 2). Баку, 1929, с.87-121.*
10. *Сысоев, В.М. Древности Нахичеванской ССР. Отдельный оттиск из 4-го выпуска Известии "Азкомстарис"а. Баку, 1928, стр.123-215.*



Rizvan QARABAĞLI
AMEA Memarlıq və İncəsənət İnstitutu,
memarlıq üzrə fəlsəfə doktoru, dosent

Müasir şəhərsalma və memarlıqda klassik ənənə və modernləşmə

Müasir dünyada şəhərlər sürətli urbanizasiya, demoqrafik artım və texnoloji inkişafın mərkəzinə çevrilmişdir. Bu dinamik proses şəhərsalma və memarlıq qarşısında ciddi çağırışlar qoyur. Bir tərəfdən, qloballaşmanın gətirdiyi "unifikasiya" (eyniləşmə) meylləri şəhərləri bir-birinə bənzədir və yerli kimliyi təhdid edir; digər tərəfdən isə əhalinin artan ehtiyaclarını qarşılamaq üçün innovativ, "ağıllı" və dayanıqlı həllərə ehtiyac yaranır. Bu kontekstdə klassik ənənə ilə modernləşmə arasındakı münasibətlərin tənzimlənməsi memarlığın ən aktual problemlərindən biridir. N. Bulloskinin təbi ilə desək: "keçmişin memarlıq irsini sadəcə bir muzey eksponatı kimi qorumaq kifayət deyil, onu müasir şəhər həyatına inteqrasiya etmək və yeni memarlıq formalarında ənənənin ruhunu yaşatmaq vacibdir." [1] Əks təqdirdə qloballaşma və şəhər kimliyinin itirilməsi təhlükəsi yarana bilər.

XXI əsrin memarlığı çox vaxt şüşə, polad və betondan ibarət olan, dünyanın istənilən metropolunda rast gəlinə bilən göydələnlərlə xarakterizə olunur. Bu üslub memarlıq ədəbiyyatında çox vaxt "Beynəlxalq Üslub" un davamı və ya qlobal korporativ memarlıq kimi qiymətləndirilir. Bu da məkan hissinin itirilməsi deməkdir. Bu barədə R. Relphın fikirləri də önəmlidir. O yazır: "coğrafi məkandan və yerli mədəniyyətdən asılı olmayaraq, eyni tipli binaların tikilməsi şəhərlərin özünəməxsusluğunu yox edir". [4] Bu fikrin davamı olaraq qeyd edək ki, mədəniyyətlərin unifikasiyası, yəni klassik memarlıq elementlərinin (məsələn, regional materiallar, ornamentlər, iqlimə uyğun formalar) kənara itələnməsi şəhərlərin tarixi yaddaşını zəiflədir. Halbuki klassik ənənə və müasir memarlığın sintezi regionalizm səviyyədə özünü göstərməlidir.

Klassik ənənə dedikdə yalnız antik və ya intibah dövrünün formaları deyil, həm də əsrlər boyu formalaşmış regional tikinti mədəniyyəti, yerli materiallardan istifadə və ekoloji mühitə uyğunlaşma nəzərdə tutulur. Müasir çağırışlara cavab olaraq memarlıqda kritik regionalizm nəzəriyyəsi meydana çıxmışdır. Bununla bağlı K. Frampton belə yazır: "Kritik regionalizm qlobal memarlıq texnologiyalarını qəbul edir, lakin eyni zamanda onları yerli kontekstin (işıq, iqlim, topoqrafiya və mədəniyyət) süzgəcindən keçirərək tətbiq edir." [2]

Klassik ənənə və modernləşmənin memarlıq parametrləri üzrə müqayisəsinin izahını aşağıdakı kimi verə bilərik:

- *Parametrlər: klassik ənənə modernləşməyə müasir yanaşma.*
- *Materiallar: yerli daş, kərpic, ağac, təbii gəc şüşə, polad, beton materiallar.*
- *İqlimə uyğunluq: passiv ventilyasiya, qalın divarlar, daxili həyətlər, aktiv kondisiyalaşdırma, HVAC (binalarda və digər qapalı məkanlarda havanın temperaturunu, rütubətini və təmizliyini idarə edən mərkəzi mühəndislik sistemi) sistemləri, smart fasadlar.*



- *Estetika: simmetriya, mütənasiblik, regional ornamentlər, Asimmetriya, funksionallıq, minimalist formalar.*
- *Şəhər miqyası: insan miqyasına uyğunluq, piyada yönümlülük makro miqyas, avtomobil və yüksək texnologiya yönümlülük.*

Dayanıqlı inkişaf ənənəvi memarlıq və müasir memarlığın ən böyük çağırışlarından biri ekoloji böhrandır. Maraqlıdır ki, klassik və ənənəvi memarlıq prinsipləri mahiyyətcə bugünkü "yaşıl bina" standartları ilə üst-üstə düşür. Digər tərəfdən o da maraqlıdır ki, ənənəvi memarlıq əsrlər boyu enerjiyə qənaət edən və yerli iqlim şəraitinə tab gətirən formalar inkişaf etdirmişdir (məsələn, Şərq memarlığındakı şəbəkə pəncərələr, daxili həyətli evlər və s.).

Memarlıqda materialların təkrar dövriyyəsi maraqlı sahədir. Bu baxımdan, klassik tikinti materialları (daş, kərpic və s.) təbiətə zərər vermir və uzunömürlüdür. Bununla bağlı B. Giddingsin qeydləri maraqlıdır və o bu barədə belə yazır: "müasir modernləşmə prosesi bu prinsipləri süni intellekt və yeni texnologiyalarla birləşdirərək "Ağıllı və Dayanıqlı Şəhərlər" modelini yaratmalıdır [3]

Bu gün Qarabağda iri miqyaslı yenidənqurma və bərpa işləri aparılır. Əgər burada tarixi şəhər mühitinin reabilitasiyası və regenerasiyası, yəni modernləşmədə, şəhərlərin köhnə hissələrinin tamamilə sökülməsi və yenidən tikilməsi (gentrifikasiya) baş versə sosial və mədəni qopuqlara səbəb olar. Əslində, müasir şəhərsalmanın əsas çağırışı tarixi şəhər mühitinin regenerasiyasıdır, yenidən istifadəsidir. Bu baxımdan, tarixi binaların funksiyası dəyişdirilərək müasir tələblərə uyğunlaşdırılması (məsələn, köhnə bir sənaye zavodunun incəsənət mərkəzinə çevrilməsi) vacibdir. Bu yanaşma, həm tarixi qoruyur, həm də iqtisadi cəhətdən səmərəlidir. Digər tərəfdən, yeni tikilən müasir binalar fonunda, tarixi mühitin vizual və məkan strukturuna (siluetinə, miqyasına) hörmətlə yanaşmalıdır.

Nəticə etibarı ilə onu qeyd etmək olar ki, "Klassik ənənə" və "modernləşmə" bir-birini inkar edən deyil, əksinə bir-birini tamamlayan iki qüvvə kimi qəbul edilməlidir. Müasir şəhərsalma və memarlığın qarşısında duran əsas çağırış-keçmişin memarlıq fəlsəfəsini, onun insana və təbiətə yönəlmiş prinsiplərini dərk edərək, onları müasir texnologiyanın və mühəndisliyin imkanları ilə sintez etməkdir. Gələcəyin uğurlu şəhərləri yalnız göydələnlər ilə deyil, həm də öz mədəni kimliyini və tarixi köklərini gələcək nəsillərə ötürə bilmək qabiliyyəti ilə qiymətləndiriləcəkdir.

Ədəbiyyat:

1. *Bullock, N., & Lucan, J. (2004). The Rehabilitation of the Historic City: Concepts and Practices. Routledge.*
2. *Frampton, K. (1983). Towards a Critical Regionalism: Six Points for an Architecture of Resistance. In Hal Foster (Ed.), The Anti-Aesthetic: Essays on Postmodern Culture. Bay Press.*
3. *Giddings, B., Hopwood, B., & O'Brien, G. (2002). Environment, economy and society: fitting them together into sustainable development. Sustainable Development, 10(4), 187-196.*
4. *Relph, E. (1976). Place and Placelessness. Pion Limited.*
5. *Rossi, A. (1982). The Architecture of the City. MIT Press.*




Samirə MİR-BAĞIRZADƏ
AMEA Memarlıq və İncəsənət İnstitutu,
filologiya üzrə fəlsəfə doktoru, dosent

Qədim dövr və orta əsrlər memarlıq və incəsənətin qısa tarixi

Memarlıq, dünyada isə - "architecton" - yunan sözüdür, mənası - yüksək usta, memar deməkdir. Memarlıq - inşaat incəsənətidir. Gözəllik qanunu əsasında - gercəkliyi formalaşan yaradıcılıq növüdür.

İnsan cəmiyyətinin inkişaf tarixi - dünya sivilizasiyasının bütün mərhələlərində memarlıq abidələrində əks olunurdu. Memarlıq tikililəri - ən böyük və müşahidə etmək üçün - açıq, əlverişli dövrün abidələridir. Onlar - şəhərin görkəmini formalaşdırır. Qədim Roma memarlıq nəzəriyyəçisi - Vetruviy tərəfindən üclük qanununu (möhkəmlik, xeyir, gözəllik) yazmışdır. Binaların tipləri - birdən birə yaranmamışdır, onlar - ölkənin siyasi quruluşu, dini və ideoloji tələbləriilə, xalq ənənələrilə müəyyənləşirdi. Bəzi tipli binalar - yox olurdular, onlar - yenisi ilə əvəz edilirdi (məsələn, yaşayış binalarının görkəmi dəyişirdi).O - memarlıq dövrün xarakterini əks etdirirdi.



Kolizey

İbtidai icma cəmiyyətinin əsas öyrənmə mənbəyi - arxeoloji abidələri, etnoqrafiya, geologiyanın məlumatları, antropologiya, mifologiya, folklor olmuşdur.

Qədim Misir memarlığının inkişaf tarixi -bir neçə dövrlərə bölünür. Təsəvvür edilən ölü dünyası - qədim Misirlilər tərəfindən adi yer həyatı kimi başa düşülürdü. Ona görə ölən adamı - canlı həyatdakı kimi - əşyalar ilə təmin edirdilər.



Firon məbədlərinin, saraylarının, varlıların sərdabələrinin bədii formaları və təsvir motivləri - təbiətdən götürülürdü: günəş, müqəddəs olan lotos və papirus, palma, aslan və s. buna misaldır.

Qədim Misir memarlığının abidələri və ona tabe olan incəsənətin başqa növləri - bütün tarix boyu məbəd mənası daşıyırdı. Qədim hökümranlığın (b.e. əvvəl XXVIII-XXIII əsrlər) ən məşhur memarlıq abidələri - fironun tanrılaşdıran monumental ehramları və varlıların sərdabələri (mastaba), mə-



Ehramlar


bədləri - lotos, palma və papirus, görkəmli sütunları ilə məşhur olmuşdur. Relyef incəsənəti də inkişafda idi. Qizada olan məşhur fironların ehramları - Xeopsun ehramı (memar Xemiun, b.e.ə. XXIII əsr), Xefrenin, Mikerinin ehramları - qorunub saxlanılırdı.

Ən böyük olan ehramın uzunluğu - 150 metr idi. Ehramın formaları və proporsiyaları işlənilmiş, dəqiq və lakonikdir. Onlar görkəmli və təntənəli fironun sərdabə ideyasını əks etdirirdi. Arxeoloji qazıntılar şəhərin mərkəzini küçələrilə dəqiq təşkilatçılığı ilə göstərirdi. Mərkəzdə saray və müqəddəs yerlər ilə anbarlar, kazarmalar, varlıların evləri, kənarda isə sənətkarların evləri və kasıbların evcikləri yerləşirdi. Sonrakı dövrdə (b.e.ə. XI-IV əsr) Misiri- assuriyalılar, farslar zəbt etdilər, lakin memarlıq ənənələri, hətta Yunan-Makedon işğalından sonra da dəyişmədi. Antik memarlığının təsirindən məbədlərin ümumi görünüş təntənəsi azalmağa başladı.



Knoss sarayı

Aralıq dənizində Yunan-Roma mədəniyyəti xüsusi yer tutur. Egey (Krit-Miken) mədəniyyəti arxeoloji tədqiqat materialları əsasında qurulur. XIX əsrin 70-90-cı illərində alman arxeoloqu Q.Şliman (Troya, Peloponnes, Miken, Kikladı adası) və XX əsrin əvvəli İngiltərəli arxeoloq A.Evans (Mikey mədəniyyəti - Krit adası). Akropol - Yunanıstanın Orta Minoy dövrünün mərkəzi, o cümlədən dini və siyasi meydanıdır.



Qədim Yunan erkən dövrünün tarixi (b.e.ə. XI-VI əsr) Homer dövrü adlandırılırdı, çünki onun əsas mənbəyi - Homerin "İlliada" və "Odissey" əsərləridir. Memarlıq tikililərindən yalnız xarabalıqlar qalıb. Bu dövrdə məbədlər tanrılara həsr olunurdu. Məbədlər - siyasi, mədəni, iqtisadi əlaqələrin mərkəzi idi. Belə ki, Olimpiyada oyunları keçirilən Zevs məbədində b.e.ə.766-cı ilindən başlayaraq, hər 4 ildən bir - Olimpiya oyunları təşkil olunurdu. Yunan memarlıq orderinin əsas elementləri: özül, bazadan ibarət olan sütun və kapiteldən ibarətdir. Yunan memarlığı formalaşma prosesində əvvəlcədən 2 əsas - dorik və ionik, bir az gec isə-korinf (Bassda Appolon məbədi) orderləri yaranmışdır. Do-

rik memarlığı- sadəliyi, ionik memarlığı - yüngüllüyü, incəliyi, korinf memarlığı isə böyük dekorativliyi ilə seçilirdilər.

Roma memarlığı - yüksək inkişaf etmiş şəhərin planlaşması ilə, akveduklar(su kəmərli yollar,körpülər), arxivlər, kitabxanalar, arenalar və arkaları(tağlar) ilə zəngindir.



Qarsda akveduk



Titın arkası

Orta əsrlər memarlığı 395-ci ildə Roma imperiyasını 2 yerə: Şərqi Bizans və Qərbi Romanın bölünməsinə gətirdi. Memarlıqda əsas yeri kilsələr tuturdu.



Vatikan

Ərəb-müsəlman mədəniyyəti- müxtəlif xalqların qədim mədəniyyətini və bədii ənənələrini özündə cəmləşdirir. "Qurani-Kərim"in incəsənətin bütün növlərinə, xüsusən memarlığa böyük təsiri olmuşdur. Bu kitabda dünyanın əsas qanunları öz əksini tapmışdır. Müsəlman incəsənətinin bütün əsərlərində Allahın sözü "Qurani-Kərim"in ayələrində izlənilir (memarlıq abidələrində, dekorativ-tətbiqi incəsənətində və kitab incəsənətində bunu görmək olar).

Feodal-dini hökuməti - ərəb xilafəti işğalının nəticəsində yaranmışdır. Onun hüdudları - çiçəklənən Roma imperiyasından kənar idi. VIII əsrdən bu vahid dövlətdən müstəqil hökumətlər yaranmağa başladı. Buna baxmayaraq, ərəb mədəniyyəti ən yüksək zirvəyə catmışdı.

Ərəb dünyasının hər bir bölgəsinin memarlığı - Səudiyyə Ərəbistanın, İraqın, Türkiyənin, İranın, Azərbaycanın, Suriyanın, Fələstinin, Misirin, Məqribin, Cənubi İspaniyanın yerli köklə-



Əl-Hambra


rindən yaranırdı. Hər bir ərəb ölkələrinin özünəməxsus xüsusiyyətləri olmuşdur. Buna görə də Suriyanın abidələri İraqın və İranın abidələrindən, orta əsr Əndəluz-Məqrib regionundan seçilirdi. Ərəblər fəth etdikləri xalqların məbədlərinin (Roma,Yunan və Zərdüşt məbədlərinin) yerində gözəl məscidlər yaradırdılar.

100 il ərzində Ərəb xilafətini Məhəmmədin bir qolu olan Əməvilər idarə edirdi. Dəməşq-Ərəb hökumətinin paytaxtı olub (Məkkə isə Ərəb hökumətinin siyasi paytaxtı kimi qalırdı). Dəməşq gözəl sarayları, məscidləri, su kəməri və fontanları ilə məşhur idi. Sonralar Əməvilər İspaniyaya köçərək, burada İspan-Portuqal-Ərəb mədəniyyətini bir neçə əsrlər boyu yaşadırlar. Məhz bu dövrdə memarlıqda yeni - məqrib üslubu yaranır. Onun əsas forması - palmanın obrazından götürülmüş: ərəb tikililəri palma meşəsinə bənzədilirdi. Məqrib incəsənəti Şimali Afrikada və Əndəlusda (İspaniyanın Cənubu) XI-XV əsrlərdə çiçəklənir.

Məqrib incəsənəti - memarlığın, rəngkarlığın və heykəltəraşlığın dekorativ formalarından, xəttatlıqdan, ornamentdən, təbiətin elementlərindən, su incəsənətindən, poetik sözündən - mürəkkəb vəhdət yaratmışdır. Məqrib incəsənətində - sütunlar, tağlar (arka) və künbəzlərdən istifadə edilirdi. Müsəlman dünyasının bir sıra regionlarında müxtəlif tipli tağlara (arka) üstünlük verilirdi: nal formalı - Suriyada, Misirdə, İspaniyada, Azərbaycanda; ox formalı - İranda; üçkünclü - Mərakeşdə, İspaniyada, Əlcəzairdə; bir-birinə keçən tağlar isə - İspaniyada. Məqrib memarlığının incisi Əl-Hambradır, o İspaniyada Qranadanın (Əl-Viranın) kənarında ucalır.

Müsəlman memarlığının əsas və vacib xüsusiyyətlərindən biri də - ibadət üçün tikilən bina məsciddir.

Ərəb məscidlərinin gözəl memarlığı, xüsusən namaz qılınan otaqlarda bu hiss olunur - burada saysız sütunlar sıx olan meşəyə bənzəyir. Müsəlman şəhərlərində şəhər ətrafı qala divar-



Kordova-Cəmi məsçidi

larında ribatlar yaranırdı. Burada məscidlər, karvansaralar və başqa binalar (Bakı, İçəri şəhər) yerləşirdi. İslam şəhərlərində çoxu öz ənənəvi şəhərsalma strukturunu və orta əsrlər memarlıq, dekorativ incəsənətinin abidələrini qoruyub saxlamışdır.

Ədəbiyyat:

1. *Mir-Bağırzadə S.A.İncəsənət tarixi,- Bakı,2012,-S.114.*
2. *Mir-Baqirzade S.A. İslamskoe iskusstvo, Baku,-Teknur,-2009,-S.124.*
2. *Искусство. Энциклопедия. в 3-х томах,-Москва,-1998-2000.*
3. *История мировой культуры. Справочник, -сост. Ф.С.Капица и др., Москва,-1996.*



Qorxmaz ƏLİLİCANZADƏ
AMEA Memarlıq və İncəsənət İnstitutu,
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent

Azərbaycan musiqisində aranjiman problemi

Azərbaycan musiqisində muğam üçlüyündən (trio) başlayaraq bu günümüzə qədər müxtəlif növ ansambllar yaranmışdır. Janrından asılı olaraq xalq musiqi alətləri ansamblı, xalq musiqi alətləri orkestri, simfonik orkestr, kamera orkestr, estrada ansamblı, estrada simfonik orkestr, caz qrupları və sairə. XX əsrə qədər trio və kvartet, kvinto tərkibli yığcam qruplar olub. Böyük məclislərdə (böyük toy, kiçik toy) xanəndə, tar, kaman, qaval, balaban, dəmkeş, kiçik məclislərdə isə muğam üçlüyü dəvət olunub.

Avropa musiqisində orkestrlərdə mütləq orkestratorçu (orkestrovşik) olub. Orkestrdə hər növ alətlərə aid not partiyaları olurdu. Bu partiyaları bir yerdə ifa edəndə orkestrdə polifonik səslənmə yaranırdı. Alətlərin tembrinə və tonallığa uyğun səslənmə 4-5 oktavanı əhatı edirdi. Misal üçün, əsərin kantasını violalar ifa edəndə, ikinci planda, digər alətlər ikinci, üçüncü səsləri ifa edirdilər. Azərbaycan musiqisində kiçik musiqi qruplarında polifoniya üslubunda ifa mümkün deyildi. Xalq musiqi alətləri ansambllarında qarmon, klarnet, pianino, elektro-gitara alətləri daxil olduqdan sonra ansamblın adı dəyişib oldu instrumental ansambl. Bu variantda ansamblın bəzi alətləri yalniz kantanın ikinci səsini (terso) ifa edə bilirdilər.

XX əsrin sonu, XXI əsrin əvvələrində texnika inkişaf etdikdə ionika və sintizatorlar meydana gəldi. Ansambllar rayona qastrol səfərinə gedəndə çox klublarda pianino ya olmurdu, ya da kökdən düşmüş, bərbad vəziyyətdə olurdu. İonika sonradan sintizatorlar ansamblların tərkibində bu problemləri aradan qaldırmış oldu. Sintizatorlar getdikcə təkmilləşdirildi və o dərəcəyə çatdı ki, iki sintizator bütün ansamblı əvəz etməyə qadir oldu.

Azərbaycanda aranjimançı, xüsusi ilə sovetlər dövründə çox vaxt ayrıca titul kimi yox, musiqi rəhbəri, orkest rəhbəri, konsertmeystr kimi qeyd olunurdu. Aranjiman işini bəstəkar, orkestr rəhbəri, musiqi rəhbəri və ya konsertmeystr icra edirdi. XX əsrin ən öndə olanlardan Tofiq Quliyev, Rauf Hacıyev, Cahangir Cahangirov, Niyazi, Vaqif Mustafazadə, Rafiq Babayev, Nazim Əhmədov və digərlərinin adlarını sadalaya bilərik.

Əvvəllər səhnədə ansambl və müğənni canlı ifa edərdilər. Hətta səsyazma studiyalarında ansambl müğənnini canlı müşayət



edərdi. Olurdu ki, ansambl ayrıca yazılardı, sonra müğənni fonoqrammanın üstünə oxuyardı. İndi zəmanə dəyişib, dövlət ansamblları maddi durum üzündən bağlanıblar, hətta özfəaliyyət ansamblları ləğv edilib. Bu səbəbdən aranjimançıların hörməti və işi artıb. Bütün müğənnilər və instrumentalistlər (solo ifaçılar) aranjimançılara üz tutublar. Bir aranjimançı sintizatorda bütün musiqi alətlərində ifa edir, sonra müğənni və solo instrumentalistlər fonoqramın üstünə ifa edirlər. Bəzən olur ki, sintizatorda yazılan aranjimanların üstünə bir neçə musiqi alətlərinin səsini canlı yazırlar ki, ümumi səslənmə təbii səslənmənin effektini versin.

Son 20-25 ildə Vaqif Gərayılzadə, Yaşar Baxış, Mazim Əhmədov, Əvəz Muradov, Osman Həmidov, Xalis Xan, Rasim Müzəffərli, Cavid Cavadoğlunun və bir çoxlarının adını çəkmək olar. Mən adlarını sadaladıqlarımdan Cavid Cavadoğlunu xüsusi qeyd etmək istərdim. Bəstəçi, aranjimançı, orkestratorçu (orkestrovşik), kreativ-aranjiman üslubunda yanaşmağı ilə digər aranjiman və orkestratorçulardan fərqlənir. Nahaq yerə demirlər ki, mahnının 4 müəllifi var: şair, bəstəkar, aranjimançı və müğənni. Cavid Cavadoğlu musiqi əsərini aranjiman edəndə əsərin xarakterini müəyyənləşdirir, hansı musiqi alətlərində səslənə bilər, ritmlərin üzərində xüsusi iş aparır. 5-6 zərb alətlərinin tonikalarını, tembr uzlaşmalarını, musiqinin xarakterinin ritmik prinsiplərini, tempini, ümumi ahəngin vəhdətini qurmağa nail olur. Bütün musiqi alətlərini özü ifa edir. Mükəmməl polifonik səslənməyə nail olur. Hər bir musiqi alətinin xarakterik ifa üslubunu bilir və onu sintizatorda canlandırır. Səs rejissoru kimi peşəkar biliyə malikdir. Müğənni və xanəndələrlə, hətta solo ifa edən istrumentalistlərlə də yaradıcılıq işlərini icra edir. İfaçının səsini yazarkən bütün incəliklərə fikir verir və tələb edir ki, aranjimanın ümumi ahənginə uyğun ifa etsinlər və onların ifa tərzlərinini üsluba uyğunlaşdırır.

Cavid Cavadoğlunun xalq artistləri Ramiz Mirişli, Faiq Sücəddinov, əməkdar incəsənət xadimləri Tahir Əkbər, Vaqif Gərayzadə, Nailə Mirməmmədli və digərləri ilə birgə yaradıcılıq - iş birlikləri olmuşdur. Xalq yazıçısı Anarın sözlərinə bəstəkar Şahin Musa oğlunun bəstələdiyi "Zəngilan" mahnısını


(Yazıçılar birliyinin sədri Anarın məktubla müraciəti əsasında) və Pikə Axundova, Ramal İsrafilov, Tünar Rəhman oğlu, Nazim Məmmədov, Aynur Adil qızı, İlhamə Adil qızı və sairə bəstəkarların əsərlərini aranjiman etmişdir. Xalq artistləri Alim Qasımov, Azər Zeynalov, Brilyant Dadaşova, Nazpəri Dostəliyeva, Gülyaz Məmmədova, Gülyanaq Məmmədova, Samir Cəfərov, Ağadadaş Ağayev, Röya Ayxan, Aftandil İsrafilov, Rafiq Hüseynov (Rəmiş), Əməkdar artistlərdən Ramil Qasımov, Nurlan Növrəsli, Teymur Əmrah, Aybəniz Haşımova, Baloğlan Əşrəfov, Qorxmaz Əlilicanzadə, Həsənağa Sadıxov, İnarə Babayeva, Səlim Abbasov, Elman Əzimov və sairə bəstəkar, müğənni və musuqiçi-instrumentalistlərlə iş birliyi olub. Bütün proyektlərdə aranjimanla bərabər şəxsən səs rejissoru kimi müğənnilərin ifasını yazmışdır.

Xalq artistləri Rasim Balayev, Alim Qasımov və müğənni Samir İsayevlə "Ya Allah" musiqili-bədii kompozisiyanı layihə çərçivəsində işləmişdir. Bəstəkar Tamilla Əhədovanın "Beş qapı" musiqili tamaşanı kreativ yaradıcı aranjiman üslubunda işləyib ərsəyə gətirmiş və AR Mədəniyyət Nazirliyi, Azərbaycan Dövlət İncəsənət Universitetinin birgə təşkilatçılığı ilə Heydər Əliyev Sarayında nümayiş etdirilmişdir.

"Heydər baba", musiqisi Ağadadaş Abdullayev, sözləri Oktay Zəka, ifaçı Cavad Rəcəbov, "Heydər ata" musiqisi Xalq artisti Ramiz Mirişli, sözləri Vahid Əziz, ifaçı Xalq artisti Brilyant Dadaşova, 2012-ci ildə (ilk dəfə Prezidentə həsr olunmuş mahnı "İlham Əliyev" musiqisi və sözləri Ehtiram və İntiqam Rüstəmov qardaşlarına məxsus, "Vətən oğlu" musiqisi Cavid Cavad oğlu, sözləri Tükəzban Cahangirova, ifaçı Cavid Cavad oğludur.

"Quranı Kərim"i səsləndirən aktyorlar Xalq artistləri Əliabbas Qədirov, Rasim Balayev, İlham Əsgərov, Nurəddin Mehdixanlı olmuşdur. Mətnə uyğun, abı-hava yaradan, sərbəst, improvizə üslubunda, melodiya bəstələnən fon musiqisi Cavid Cavad oğluna məxsusdur. Həm də səs rejissoru kimi proyektdə iştirak edib.

Son zamanlar süni intellektin meydana gəlməsi ilə musiqi dünyasına da təsiri olub. Buna iki bucaqdan baxmaq olar. Musiqi dünyasına bəs bunların xeyiri və ziyanı nədir? Əvvəlcə xeyirindən danışaq. Bildiyiniz kimi aranjimanlar üzərində neçə gün, neçə həftə yaradıcılıq işləri aparılır. Amma süni intellekt bu işi bir dəqiqəyə həll edir. Bundan əlavə, aranjmanın çoxlu variantlarını yaradır və bəyənilən variantı seçmək olur. Sonra müğənninin səsini fonoqrammadan ayırıb, təmiz minusovka, yəni müğənnisiz aranjmanı əldə edib, onun üzərinə oxuya bilirsən. Hətta hər hansı bir şeiri Sİ-ə təqdim edirsən, musiqinin janrını, üslubunu, ritmini, musiqi alətlərinin adını təqdim edirsən və qısa müddətdə sənə çoxlu variantda mahnılar təqdim edir. Hətta mövzu təqdim edirsən sənə yeni şeir təqdim edir. Sonra da Sİ-də mahnının video klipini hazırlayırsan. Belə baxanda hər şey əladı. AMMA .... Sİ heç vaxt canlı insanı əvəz edə bilməz. Mənfi cəhəti odur ki, musiqiçi, xanəndə, müğənni, aranjiman sənətini məhvə aparır. Zaman gələcək, insanlar el şənliklərinə DJ dəvət edəcəklər. Beş min, on min manata musiqiçi dəstəsini gətirməyəcək, ucuz qiymətə DJ dəvət edəcək, fanaqrammalarla məclislərini yola verəcəklər. İnsanlar canlı ifadan uzaqlaşacaq. Necə ki, barlarda, restoranlarda internet vasitəsi ilə muxtəlif musiqi əsərləri səslənir. Camaat rəqs edib, şənlənəcək, yorulanda isə Sİ-də hazırlanmış mahnılara və musiqilərə qulaq asacaq. Mənim fikrimcə, heç bir Sİ canlı insanı əvəz edə bilməz. Sİ-də yaradan insandı. Canlı insanı heç bir robot əvəz edə bilməz. Nə qədər insan var, həyat da var! ●



Райха АМЕНЗАДЕ,
завотделом истории и теории архитектуры Института архитектуры и искусства НАНА доктор архитектуры, профессор

Мавзолей ученого и мыслителя, суфия Сейида Яхьи Бакуви

22 октября 2013 года в Париже в штаб-квартире ЮНЕСКО по инициативе Фонда Гейдара Алиева состоялся организованный Госкомитетом по работе с религиозными структурами посвященный великому азербайджанскому мыслителю Сейиду Яхье Бакуви международный симпозиум на тему "Сейид Яхья Бакуви: выражение толерантности".

Конец 14-начало XV века отмечено выбором Баку в качестве столицы государства Ширваншахов и строительством здесь дворца для правящей династии - зримого символа сильного государства. Дворец Ширваншахов - один из очень немногих, сохранившихся почти в целостном виде ансамблей с четкой планировочной и объемно-пространственной идеей, в котором с наибольшей полнотой воплощены творческие методы и композиционные приемы выдающихся зодчих.

Ансамбль занимает господствующее положение на вершине и склонах холма, на участке с сильно выраженным рельефом, главным пунктом наблюдения и обороны города. Величественные массы строений определили высотный и объемный силуэт всего дворца. Архитектурной целостности ансамбля способствует единомасштабность всех зданий, общий колорит застройки из благородного камня известняка. Композиция ансамбля поражает выразительным нарастанием архитектурных форм с отовсюду видимыми объемами, ориентированными в основном по




странам света, неизменно следующими четкости разбивки и организации плана, подчиненного единому архитектурному замыслу. Живописная планировка как нельзя лучше отвечает функционально-бытовому назначению строений, единообразных по своим абсо-

лютным размерам, и которые сосредоточены в нескольких небольших двориках.

Изначально заданную художественную систему зодчие дополнили и развили с огромным тактом и изяществом. Исходная ландшафтная ситуация с ярко выраженной ярусностью не снивелирована, не "перебита", а превосходно решена. На относительно небольшой площади (около 1 га) размещены и гармонично взаимоувязаны типологически разные, композиционно не повторяющиеся монументальные строения - собственно дворец, диванхане, дворцовая мечеть, тюрбе, мавзолей Шейха тариката "Халватийа" в Баку, ученого Сейида Яхьи Бакуви, мечеть Кей-Кубада (утрачена), "Восточные" портал-ворота, хамам (утрачен), составившие единство и целостность всей композиции.

На бесконечных просторах Дар-эль-Ислама "местами единения суфиев от мира с целью поклонения Всевышнему" (Кириллина С. А.,1989) были завийа, такийе (текке), кубба, даира, даргях, рибат (Тримингэм Дж., 1989). Вместе с тем, исследователи отмечают, что "функции этих мусульманских заведений далеко не всегда однозначны, также как различны их архитектурные выражения" (Стародуб С.Х., 1989). И это вполне закономерно, поскольку на их композиционном решении сказалось социально-политическое развитие, этноконфессиональные особенности, специфика культурного субстрата. Ханегах возводились в городах и в небольших населенных пунктах, хотя нередко их строительство велось в довольно уединенной местности.

Усыпальница Шейха (пир - эпоним) является идейно-смысловым центром этого дворцового комплекса; она конструктивно взаимоувязана с мечетью Кей-Кубада. Это один из наиболее часто встречающихся композиционных приемов органического сочетания мавзолея и поминальной мечети в ханегах: лишь миновав мечеть, было возможно переступить порог мавзолея, обычно акцентированного порталом. Так было и



здесь до утраты мечети Кей Кубада в 1918 году.

Ярким примером устойчивости и силы изобразительного начала в архитектуре возможно проиллюстрировать подкупольной зоной в интерьере восьмигранного (2,15 м - 1.51 м одна сторона, склеп - высота 2,66м, общая высота - 10м), увенчанного шатром, мавзолея Шейха Сеида Яхьи Бакуви (XV в.), купол которого образован плавной кривой повышенного эллиптического начертания. Здесь, во внутренней отделке, использована цветная штукатурка - светло-серая, красно-коричневая и черная - приближающаяся по технике исполнения к "сграффито", где с мастерской уверенностью, смелыми линиями четко прорисованы тромповые гроздья в углах октогона. Арочки, которые ритмично обводят небольшую камеру четкого абриса, устроены на уровне своеобразного барабана пирамидального шатра. Здесь идея перехода к куполу создана живописными средствами; естественно, не воспринимая тяжести купола, она создает лишь ее зрительную иллюзию.

Yer kürəsinin forması tədricən dəyişir

Saloniki Aristotel Universitetinin alimləri aşkar ediblər ki, planetdə kütlənin yenidən bölüşdürülməsinin təsiri altında Yer kürəsinin forması tədricən dəyişir, planetin bərk qabığı qütblərdə daha az yastılaşır, cazibə qüvvəsi forması isə əksinə, daha yastılaşır.



Bu araşdırma "Journal of Geophysical Research: Solid Earth" (JGR) jurnalında dərc olunub.

Yer ideal kürə formasında deyil. Öz oxu ətrafında fırlanması səbəbindən planet ekvator ətrafında bir qədər genişlənib, qütblərdə isə yastılanıb. Tədqiqatçılar 1997-2015-ci illər ərzində qlobal peyk naviqasiya stansiyaları şəbəkəsinin (GNSS) məlumatlarından istifadə edərək bu formanın zamanla necə dəyişdiyini araşdırıblar.

Məlum olub ki, qütb bölgələrində Yer səthinin qalxma sürəti təxminən iki dəfə artıb. 1990-cı illərin sonunda qütblər ildə təxminən 0,5 mm qalxırdısa, 2015-ci ilə qədər bu göstərici təxminən 1 mm-ə çatıb.

Tədqiqatçılar dəyişikliklərin səbəblərindən biri kimi Qrenlandiya və Antarktidada buzlaqların əriməsini göstərirlər. Böyük buz kütlələri yox olduqda, onların altında yerləşən Yer qabığı yükdən azad olaraq tədricən qalxır. Eyni zamanda ərimiş sular okeanlara axaraq digər bölgələrdə, xüsusilə ekvatora yaxın ərazilərdə səthə düşən təzyiqi artırır və həmin ərazilərin tədricən çökməsinə səbəb olur.

Nəticədə Yerin bərk səthi daha az yastılanmış formaya keçir - sanki planet bir qədər "açılır". Lakin kütlənin yenidən paylanması Yerin qravitasiya sahəsinə fərqli təsir göstərir: suyun qütblərdən aşağı enliklərə doğru hərəkəti planetin qravitasiya formasının daha çox yastılanmasına səbəb olur.

İnsan beyninin sirri açıldı

Stanford Universitetinin alimlərinin apardığı araşdırma insan beyninin inkişafı ilə bağlı yeni nəticə ortaya qoyub.

Tədqiqatçılar beynin ön və arxa hissələrinin embrional inkişafın çox erkən mərhələsində fərqli progenitor hüceyrə qruplarından əmələ gəldiyini müəyyən ediblər.

Əvvəllər bütün beynin tək bir əsas progenitor hüceyrə qrupundan inkişaf etdiyi düşünülürdü. Lakin alimlər embrional inkişafın kritik mərhələsi olan qastrulyasiya zamanı iki fərqli hüceyrə qrupunun yarandığını müəyyən ediblər. Bu qruplardan biri beynin ön, digəri isə arxa hissəsini əmələ gətirir.

Tədqiqat zamanı bu hüceyrə qruplarının genetik təlimatlarının da fərqli şəkildə təşkil olunduğu müəyyən edilib. Buna görə beynin ön və arxa bölgələri inkişaf zamanı fərqli bioloji yolları izləyir.



Stanford Universitetinin inkişaf bioloqu Kayl Loh beynin iki ayrı hissədən ibarət olmasının çox qədim inkişaf mexanizminin nəticəsi ola biləcəyini bildirib.

Tədqiqatçılar bu strukturun təkamül tarixinin də olduqca qədim ola biləcəyini düşünürlər. İnsanlarla uzaq ortaq əcdadı olan bəzi dəniz orqanizmlərində oxşar sinir sistemi strukturunun olması bu inkişaf modelinin yüz milyonlarla il əvvələ aid ola biləcəyini göstərir.

Arxa beyin ürək döyüntüsü, nəfəsalma və yuxu kimi avtomatik bədən funksiyalarında rol oynayır. Ön və orta beyin isə dil, məntiq və mücərrəd düşüncə kimi daha mürəkkəb funksiyalardan məsuldur.

Tədqiqatın diqqətçəkən nəticələrindən biri kök hüceyrələri ilə bağlı olub. Alimlər arxa beyindəki hüceyrələrin necə inkişaf etdiyinə dair əldə etdikləri məlumatlar sayəsində insan kök hüceyrələrini laboratoriya şəraitində funksional arxa beyin motor neyronlarına çevirə biliblər.

Bu metod arxa beyindəki motor neyronlarının zədələndiyi amiotrofik lateral skleroz (ALS) və onurğa əzələ atrofiyası (SMA) kimi neyrodegenerativ xəstəliklərin laboratoriya şəraitində modelləşdirilməsinə kömək edə bilər.

Tədqiqatçılar yaranan motor neyronların gələcəkdə bu xəstəliklərin mexanizmlərini daha yaxşı başa düşmək və potensial müalicə üsulları hazırlamaq üçün istifadə edilə biləcəyini bildirirlər.

Əcdadlarımız belə olub - Alimlər təsvir etdilər

Alimlər təxminən 315 min il əvvəl yaşamış erkən Homo sapiens nümayəndəsinin üz cizgilərini rəqəmsal üsulla bərpa ediblər.



Söhbət Mərakeşdə yerləşən Jebel Irhoud arxeoloji ərazisindən aşkar olunan insan fosillərindən gedir. 2017-ci ildə "Nature" jurnalında dərc olunan araşdırmada bu qalıqlar erkən Homo sapiens nəslinə aid edilib və onların yaşı 315 ± 34 min il olaraq müəyyənləşdirilib.

2026-cı ilin sentyabrında "Heritage" jurnalında yayımlanan yeni elmi işdə isə həmin fosillər əsasında üzün rəqəmsal forensik rekonstruksiyası təqdim olunub. Tədqiqatçılar Jebel Irhoud ərazisindəki bir neçə fosildən hazırlanmış üçölçülü kompozit kəllə modelindən istifadə ediblər.

Araşdırmada kəllənin anatomik xüsusiyyətləri əsasında üz cizgiləri müəyyənləşdirilib və iki fərqli görüntü hazırlanıb. Onlardan biri sümüklərlə uyğunluğu göstərən elmi rekonstruksiya, digəri isə dəri rəngi və üz tükləri əlavə edilmiş bədii təsvir olub.


Qeyd edək ki, Jebel İrhoud fosilləri Homo sapiensin təkamülünün ilkin mərhələləri barədə mühüm məlumat verən tapıntılar sırasında yer alır. 2017-ci ildə aparılan araşdırma onların müasir insanın formalaşmasının daha əvvəlki dövrlərə gedib çıxdığını göstərmişdi.

NASA Marsda sirli strukturlar aşkar edib

NASA-nın 14 ildir Marsın Geyl kraterində tədqiqat aparan "Curiosity" kosmik aparatı planetin geoloji keçmişinə işıq salacaq qeyri-adi bir kəşfə imza atıb.

Sulfatla zəngin təbəqələrə malik "Valle Grande" bölgəsindəki Şarp dağına dırmaşan komanda yerdə təxminən 1 santimetr enində dayaz və kiçik dəliklər qeydə alıb. Bu çuxurları əvvəlkilərdən fərqləndirən əsas cəhət ətraflarında eroziya nəticəsində aşınmış çınqıl və ya mineral yataqlarının tapılmamasıdır. Son dərəcə dayaz və geniş olan bu strukturlar qırmızı planetdə indiyə qədər məlum olan eroziya proseslərindən tamamilə fərqli bir modelin mövcudluğuna işarə edir.

Hazırda kəşf edilən obyektlərin fotoları aktiv şəkildə təhlil olunur. "Curiosity" komandası dəliklərin əmələ gəlmə mexanizmini anlamaq üçün roverin gövdəsindəki kameraları işə salıb. Ərazidən çəkilmiş yaxın plan şəkilləri və üçölçülü səth modelləri əsasında araşdırmaların davam etdiyi bildirilir. Şarp dağına qalxarkən 1000 metrlik yüksəklik həddini aşan "Curiosity" bölgədəki müxtəlif qaya təbəqələrinin kimyəvi tərkibini və eroziya xüsusiyyətlərini öyrənməyə davam edir. Alimlər bu strukturların hələ elmə məlum olmayan bir eroziya prosesinin, yoxsa süxurların fərqli fiziki xüsusiyyətlərinin nəticəsi olduğunu müəyyənləşdirməyə çalışırlar.



Lütviyyə ƏSGƏRZADƏ
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,
filologiya elmləri doktoru

Əbdülkərim ağa Qayıbovun "İslam təqvimi"nin riyazi metodologiyası

Azərbaycanın ictimai-siyasi, mədəni və elmi fikir tarixinə nəzər saldıqda, bəzi soyların bütöv bir xalqın təfəkkür coğrafiyasını formalaşdırdığını görürük. Bu cür köklü və şan-şöhrətli nəsillər sırasında Qazax mahalının yetirdiyi Qayıbovlar (Zadəganlar) şəcərəsi müstəsna yer tutur. Kökləri XVIII əsr poeziyamızın fəlsəfi zirvəsi olan Molla Vəli Vidadiyə bağlanan bu nəsil, tarixin müxtəlif dönəmlərində millətin tərəqqi və maariflənmə missiyasını çiyinlərində daşımışdır. Qafqazın dini və mənəvi rəhbəri, görkəmli maarifçi və təzkirəçi Müfti Hüseyn əfəndi Qayıbov, ilk şəfqət bacısı Nigar xanım Şıxlinskaya, ilk peşəkar qadın pianoçumuz Xədicə xanım Qayıbova və Birinci Dünya müharibəsində göyləri fəth edən əfsanəvi hərbi təyyarəçi Fərrux ağa Qayıbov məhz bu ocağın yetirmələridir.

Lakin bu nəslin daxili intellektual potensialını araşdırarkən çox mühüm bir məqam, bu ailənin hərbi, mədəni və bədii uğurlarının arxasında həm də çox güclü bir analitik zəka, dəqiq elmlərə bağlılığı da üzə çıxır. XIX əsrin ikinci yarısında bu nəslin elm bayraqdarı, öz elmi dühası ilə dövrünü qabaqlayan və millətin taleyini rəqəmlərin məntiqi ilə dəyişməyə çalışan qəhrəmanı isə dahi Nəsirəddin Tusidən gələn böyük elmi ənənəni yeni dövrün tələbləri ilə davam etdirən, Azərbaycanın modern dövr ilk peşəkar riyaziyyatçı - astronomlarından biri olan Əbdülkərim ağa Qayıbov olmuşdur.

1851-ci ildə Qazax qəzasının Orta Salahlı kəndində anadan olan Əbdülkərim bəy Nəsib ağa oğlu, ilk baxışda fərqli bir taleyə malik idi. O, ilkin təhsilini Tiflis Kadet Korpusunda və daha sonra Sankt-Peterburq Topçuluq Məktəbində hərbi sahə üzrə almış, 21 yaşında hərbi-topoqrafiya məktəbini əla qiymətlərlə başa vuraraq məzun olmuşdur. XIX əsrdə imperiyanın bu rəsmi hərbi ocaqlarında topçu və topoqraf kadrların hazırlanması birbaşa sferik həndəsə, loqarifmik hesablamalar və ali riyaziyyat kursları ilə bağlı idi. Bu baxımdan, alimin sonradan istefaya çıxaraq Tiflisdə yaşamağa başlaması və özünü tamamilə dünyəvi elmlərə həsr etməsi, onun hərbi elmlərdən gələn analitik təməli böyük uğurla tətbiqi sahəyə transfer etdiyini nümayiş etdirir.

Əbdülkərim ağanın riyazi dühasının və ömrünün ən böyük abidəsi - onun 1886-cı ildə böyük əmək sərf edərək ərsəyə gətirdiyi iki cildlik "İslam təqvimi" əsəridir. XIX əsrin sonlarında müasir hesablama texnologiyalarının mövcud olmadığı bir dövrdə göy cismlərinin hərəkətini, Ayın Yer ətrafındakı tsikllərini, Miladi və Hicri təqvimlər arasındakı mürəkkəb gün fərqlərini hesablamaq üçün insan beyninin riyazi analitik gücündən istifadə olunurdu. Əbdülkərim ağa bu əsərdə sferik triqonometriya və riyazi interpolyasiya metodlarından istifadə edərək Qafqaz və Yaxın Şərq coğrafiyası üçün unikal riyazi alqoritmlər qurmuşdur.

Alim "sinodik və siderik ay tsikllərini riyazi kəsrlər vasitəsilə tənzimləmiş, Ayın hərəkətindəki mikrosaniyəlik yayınmaların təqvimdə xəta yaratmaması üçün "kabısə" (artıq) illərin dəqiq alqoritmini tərtib etmişdir. Fevral ayının hansı illərdə 28, hansı illərdə isə 29 gün olmasını müfəssəl cədvəllərlə göstərən müəllif, həmçinin fərqli gün sayına

malik Hicri, Rumi, Şəmsi və Miladi təqvimləri bir-birinə bağlayan universal keçid matrisləri kəşf etmişdir". Bu sistem dövrün dövlət idarələri, din xadimləri və ziyalıları üçün tarixləri saniyəlik dəqiqliklə tənzimləməyə imkan verən elmi kompasa çevrilmişdi.

Əbdülkərim ağa Qayıbovu sadə bir təqvimçi hesab etmək olmaz. O, müsəlman Şərqinin riyaziyyat və astronomiya nəhəngləri olan Nəsirəddin Tusi və Uluqbəyin açdığı elmi cığırın XIX əsrdəki son parlaq davamçısıdır. Əbdülkərim ağa "İslam təqvimi"ni tərtib edərkən, Uluqbəyin və Ömər Xəyyamın təqvimlərindən fundamental elmi mənbə kimi istifadə etmişdir. Məlumdur ki, Nəsrəddin Tusi "Zic-i İlxani"ni, Uluqbəy isə "Zic-i Cədid-i Sultani" əsərini böyük rəsədxanalarda aparılan vizual və mexaniki müşahidələr əsasında qurmuşdular. Qazax mühitində belə bir fiziki rəsədxana qurmaq imkanından məhrum olan Əbdülkərim ağa isə bu boşluğu öz qeyri-adi riyazi təfəkkürü ilə doldurdu. "O, klassik Şərq astronomlarının kəşf etdiyi koordinat cədvəllərini XIX əsr Avropa elminin analitik cəbr və sferik triqonometriya qanunları ilə yenidən işləyərək təkmilləşdirmiş, Şərqin kosmik dünyagörüşünü Qərbin tətbiqi riyaziyyat metodları ilə mükəmməl şəkildə sintez etmişdir".

Əsərin daha bir maraqlı tərəfi onun dil və filoloji innovasiyası ilə bərabər, böyük elmi sanbalı ilə bağlıdır. Görkəmli şərqşünas alim Məmmədağa Sultanovun hələ 16 aprel 1948-ci ildə "Kommunist" qəzetində dərc olunmuş araşdırmasında qeyd edildiyi kimi, "İslam təqvimi" əsəri 1940-cı ildə Sankt-Peterburqda Dövlət Ermitaj Muzeyi tərəfindən akademik İ.Orbelyanın (1940-cı ildə akademik İosif Orbelyan məhz bu möhtəşəm muzeyin direktoru idi və rəhbərlik etdiyi qurumun elmi nəşriyyatında həmin sinxronik təqvim cədvəllərini çap etdirmişdi) redaktəsi ilə nəşr edilmiş məşhur sinxronik cədvəllərdən heç də geri qalmır" (Sultanov, Məmmədağa. XIX əsrin görkəmli riyaziyyatçısı // "Kommunist" qəzeti, 16 aprel 1948-ci il, № 76) və "əsərdə işlədilən sadə Azərbaycan cümlələri, dövrün elmi dilində qəbul olunmuş ağır ərəb və fars tərkiblərindən qaçmaq baxımından dilçilik tariximiz üçün böyük yenilikdir".

Beləliklə, alim elmi kütləviləşdirmək və xalqın anlaya biləcəyi dilə gətirmək missiyasını ortaya qoymuşdur.

Qeyd edək ki, Əbdülkərim ağanın fəaliyyəti yalnız elmi kabinetlə məhdudlaşmırdı. Əbdülkərim ağa Qayıbov ilk milli mətbuat nümunələrimizdən



olan və 1883-1893-cü illərdə nəşr edilən "Kəşkül" qəzeti və jurnalı ilə sıx əməkdaşlıq etmiş, xarici dillərdən elmi-ədəbi mətnləri dilimizə çevirmişdir. O, həm də "Tiflisdə ilk teatr heyəti təşkil edən, 1887-ci ildə M.F.Axundovun komediyalarını səhnələşdirən bir maarif fədaisi idi". Onun yaxın qohumu Müfti Mirzə Hüseyn Qayıbzadənin Qori seminariyasındakı müəllimliyi, kasıb uşaqlar üçün açdığı məktəblər və yazdığı "Məsaili-ammil-hesab" (Hesabın ümumi məsələləri) dərsliyi də bu nəslin təhsilə və riyaziyyata kollektiv bağlılığının bariz nümunəsidir.

Görkəmli alim Əbdülkərim ağa Qayıbov 1894-cü ildə öz fundamental "İslam təqvimi" əsərini nəşr etdirmək məqsədilə Sankt-Peterburq şəhərinə səfər etmiş, lakin orada qəfildən xəstələnərək vaxtsız (43 yaşında) vəfat etmiş və "Volkov qəbiristanlığında dəfn olunmuşdur.

Alimin 1976-cı ildə yaxınları tərəfindən Respublika Əlyazmalar İnstitutuna təqdim edilən Əbdülkərim ağa Qayıbovun iki cildlik "İslam təqvimi" əsərinin orijinal əlyazma nüsxəsi Azərbaycanın dəqiq elmlər tarixinin ən dəyərli incilərindəndir.

Bu il Azərbaycan elmi təfəkküründün bu gizli qəhrəmanının, kainatın sirlərini rəqəmlərin dilinə köçürən böyük ziyalımızın, Əbdülkərim ağa Qayıbovun anadan olmasının 175 illiyidir. "Elm və həyat" jurnalının səhifələrindən onun əziz xatirəsini dərin ehtiramla yad edir, xalqımızın elmi oyanışı naminə qısa ömrünə böyük bir tarix sığdırmış bu böyük şəxsiyyətə Tanrıdan rəhmət diləyirik. Ruhu şad olsun!



Təranə TAĞI-ZADƏ
ATU II Uşaq xəstəlikləri kafedrası,
Azərbaycan Pediatrlar Assosiasiyasının sədri,
tibb üzrə fəlsəfə doktoru, dosent

Azərbaycan pediatriyasının memarı

Akademik Adilə Namazovanın səhiyyəmizə töhfələri sağlam gələcəyin qorunmasında uğurlu təməldir

Akademik Adilə Namazovanın 100 illik yubileyinin tarixi əhəmiyyəti

Bəzi yubileylər sadəcə təqvim hadisəsi olmur. Onlar bir ömrün deyil, bütöv bir məktəbin, bir düşüncə tərzinin, hətta bir milli məsuliyyət anlayışının yenidən xatırlanması üçün səbəbə çevrilir. Akademik Adilə Namazovanın anadan olmasının 100 illiyi də məhz belə yubileylərdəndir. Bu tarix, Azərbaycan tibb elminin inkişaf yolunda dərin iz qoymuş bir alimin xatirəsini yad etməklə yanaşı, həm də ölkəmizdə pediatriyanın necə milli missiyaya çevrildiyini göstərən mühüm bir mənəvi-siyasi hadisədir.

Adilə Namazovanın ömür yolu haqqında danışanda sadəcə bioqrafik ardıcıllıq kifayət etmir. Çünki onun həyatı və fəaliyyəti, görünən faktların fövqündə daha dərin və böyük mənanı ehtiva edir. Onun üçün həkimlik peşədən çox, xalq qarşısında cavabdehlik idi.

Adilə xanımın Ağdamın Seyidli kəndindən başlayan həkimlik yolu sonradan böyük elmi tribunalaradək uzandı, amma həmin yolun mənəvi başlanğıcı dəyişmədi. Uşağı müayinə edəndə o, təkcə klinik tablo görmürdü, orada ailənin ağrısını, cəmiyyətin gələcəyini, millətin sabahını görürdü.

1949-cu ildə Tibb İnstitutunu bitirib doğma Ağdama qayıdan gənc həkim böyük arzularla yaşayırdı. Rayon uşaq məsləhətxanasında çalışan, gündəlik qayğılarla üz-üzə qalan, amma artıq daha geniş üfüqlərə baxan bir mütəxəssis. Müxtəlif bölgələrdən gələn valideynlər onu sadəcə həkim kimi yox, güvənilən insan kimi yanaşırdılar. Həmin etimad sonradan onun elmi məktəbinin də gizli təməl daşına çevrildi. Çünki Adilə Namazovanın sonrakı bütün elmi uğurlarında canlı klinik müşahidənin, xəstə ilə həkim arasında qurulan etibarın xüsusi payı vardı.

Onun yubileyini əlamətdar edən cəhətlərdən biri də budur ki, bu tarix Azərbaycan qadınının elm tarixində tutduğu yüksək mövqeni də yada salır. 1971-ci ildə SSRİ Tibb Elmləri Akademiyasının müxbir üzvü seçilən ilk azərbaycanlı qadın alim olmaq böyük uğur idi. Eyni zamanda bu, Azərbaycan elmi mühitinin yetkinliyini, milli kadr potensialının və qadın intellektinin yüksək səviyyədə tanınmasını göstərirdi.

Adilə Namazovanın 100 illik yubileyinin əsl tarixi əhəmiyyəti onun keçmişdə qalmamasındadır. Onun ideyaları bu gün də aktualdır. Uşaq sağlamlığına strateji baxış, səhiyyənin elmi əsaslarla inkişafı, həkim hazırlığında intizam və humanizmin vəhdəti, bioetikaya həssas yanaşma bu gün də Azərbaycan səhiyyəsinin müasir gündəliyində yaşayan prinsip kimi qalır. Ona

görə də bu yubiley keçmişə ehtiram olduğu qədər, gələcəyə baxışın da parlaq ifadəsidir.

Alimin Azərbaycan elmi, səhiyyəsi və dövlətçiliyində rolu

Akademik Adilə Namazovanın Azərbaycan elmi və səhiyyəsində rolunu yalnız "görkəmli alim", "tanınmış pediatr", "böyük təşkilatçı" kimi ifadələrlə izah etmək yetərli deyil. O, bir sahəni inkişaf etdirən mütəxəssis olmaqdan daha artıq idi. Adilə xanım bir sistem düşüncəsi formalaşdırmışdı. Onun fəaliyyətində klinika, elm, təhsil, dövlət siyasəti və ictimai məsuliyyət birbirindən ayrı xətlər kimi yox, bir-birini tamamlayan istiqamətlər kimi görünürdü. Bu rolun ən mühüm təzahürlərindən biri Azərbaycan pediatriya elmi məktəbinin yaradılması idi. Bir vaxt ölkədə belə bir məktəbin olmaması onu ciddi düşündürürdü. Alim mövcud boşluğu sadəcə müşahidə etmədi, onu doldurmaq üçün elmi və təşkilati mexanizm qurdu. Sonralar E.Əfəndiyev adına 2 saylı şəhər xəstəxanasında xüsusi biokimyəvi laboratoriyanın və ürək-tənəffüs sisteminin funksional fəaliyyətini araşdıran elektrofizioloji mərkəzin yaradılması həmin prosesin mühüm mərhələsi idi.

O dövrün tarixi mənzərəsini təsəvvür etsək, bir tərəfdə Sovet dövrünün məhdud imkanları, digər tərəfdə isə pediatriyanı dünya səviyyəsinə çıxarmaq iddiası dayanırdı. Adilə Namazova həmin mərkəzə gənc həkimləri, tələbələri cəlb edir, onları müşahidə aparmağa, düşünməyə, müqayisə etməyə, nəticə çıxarmağa sövq edirdi. Başqa sözlə, o, təkcə elmi müəssisə yaratmırdı, təfəkkür laboratoriyası qururdu. Onlarla fəlsəfə və elmlər doktorluğu dissertasiyalarının müdafiəsi, 60-dan artıq alimin onun məktəbinin yetirməsi olması da bunun nəticəsi idi.

Adilə xanımın elmi fəaliyyətində uşaqlarda ürək-damar sistemi xəstəlikləri, xüsusən anadangəlmə ürək qüsurlarının tədqiqi xüsusi yer tuturdu. XX əsrin ortalarında bu sahə dünyanın bir çox yerlərində belə son dərəcə mürəkkəb sayılırdı. Adilə Namazova isə çətinliyin qarşısında dayanmaq əvəzinə, məhz ən mürəkkəb sahəyə yönəldi. Hələ Moskva elmi mühitində



apardığı tədqiqatlar zamanı oksigemometriya, pnevmotaxometriya, venoqrafiya, pletizmoqrafiya, daha sonra vektorkardioqrafiya, rentgen-elektrokimoqrafiya, angiokardioqrafiya kimi metodlardan istifadə etməsi onun nə qədər yenilikçi düşüncəyə malik olduğunu göstərir.

Bu tədqiqatlar sayəsində o, uşaqlarda revmatizmin fəal mərhələsində ürəkdə baş verən dəyişiklikləri elmi əsaslarla izah etdi, anadangəlmə ürək qüsurlarının diaqnostikasını dəqiqləşdirdi, kiçik qan dövranında durğunluğun dərəcəsini və təzyiq göstəricilərini qiymətləndirdi, cərrahlara və pediatrlara praktik istifadə üçün təsnifat və yanaşmalar təqdim etdi. Adilə xanımın işlədiyi metodikalar sadəcə nəzəri maraq doğurmurdu, bunlar uşaqların taleyinə birbaşa təsir edən qərarların elmi əsasını möhkəmləndirirdi.

Adilə Namazova elmdəki yeniliklərinə görə SSRİ Dövlət İxtira Komitəsindən 5 ixtira vəsiqəsini əldə edib. Alimin elmi-tədqiqat işlərinin nəticələri beynəlxalq elmi jurnallarda dərc olunub, Yaponiya, ABŞ, İngiltərə, Hindistan, Əlcəzair, Avstriya, İtaliya, Türkiyə, Fransa, Almaniya, Rusiya, İsrail, Argentina, Belçika, İspaniya, Misir və digər xarici ölkələrdə keçirilən elmi konqres və konfranslarda dinlənilərək yük-



sək qiymətləndirilib. Adilə xanım 350-dən çox məqalənin, 30-dan çox monoqrafiya, dərslik və kitabın, eyni zamanda MDB məkanında "Tibbi etika" adlı ilk dərsliyin müəllifidir.

Görkəmli alim elmi-ictimai fəaliyyətinə və xidmətlərinə görə Ulu Öndər Heydər Əliyevin sərəncamı ilə 1996-cı ildə "Şöhrət" ordeni, 2011-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Şərəf" ordeni və Azərbaycanda tibb elminin inkişafında roluna, tibb kadrlarının yetişdirilməsində uzunmüddətli səmərəli fəaliyyətinə görə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilib.

Adilə Namazovanın dövlətçiliklə bağlı rolunu anlamaq üçün onun yalnız elmi kabinetlərdə deyil, taleyüklü ictimai anlarda da necə davrandığına baxmaq kifayətdir. 1990-cı ilin Qanlı Yanvar günlərində Bakı küçələrində baş verən faciə ölkənin mənəvi tarixində silinməz iz qoydu. Həmin ağır günlərdə o, sadəcə etiraz edən ziyalı deyildi, təhlükənin içinə girən insan idi. Bəstəkar Arif Məlikov və fəhlə Sara Vəzirova ilə birlikdə o zamankı "Salyan" kazarmasına gedərək zirzəmilərdə saxlanılan yüzlərlə azərbaycanlının azad olunmasına nail olması onun xarakterindəki cəsarətin, vətəndaş məsuliyyətinin və humanist qətiyyətin canlı təzahürü idi.

Eyni qətiyyəti o, Qarabağ həqiqətlərinin müdafiəsində də göstərirdi. Keçmiş SSRİ-nin yüksək tribunalarında, mürəkkəb siyasi mühitdə Azərbaycan torpaqlarının işğalı və soydaşlarımızın faciəsi ilə bağlı mövqeyini açıq şəkildə ifadə etməsi elm adamının susmayan vicdanı kimi yadda qaldı. O, dövlətçiliyi insan taleyi ilə birbaşa bağlı olan böyük məsuliyyət kimi dərk edirdi.

Adilə Namazovanın səhiyyə siyasəti ilə bağlı mövqeyi də xüsusi mahiyyət daşıyır. Vaxtilə Ülu Öndər Heydər Əliyevlə görüşündə tibb üzrə elmi istiqamətlərdə kadr çatışmazlığını, elmi-tədqiqat institutlarının aşağı statusunu açıq şəkildə dilə gətirməsi göstərirdi ki, o, problemləri gizlədən yox, onları dövlət səviyyəsində həllə çıxaran alim idi. Bu ənənə sonrakı mərhələdə də Azərbaycan səhiyyəsinin inkişaf fəlsəfəsi ilə səsləşdi.

Müstəqillik dövründə Ulu Öndər Heydər Əliyevin yüksək diqqət və etimadı Adilə xanımın rəhbərlik etdiyi Azərbaycan Pediatrlar Assosiasiyasının fəaliyyətinə də güclü təkan verib. Bu gün Assosiasiya akademik Adilə Namazovanın davamçısı, ATU-nun II Uşaq xəstəlikləri kafedrasının dosenti, tibb üzrə fəlsəfə doktoru Təranə Tağı-zadənin rəhbərliyi ilə beynəlxalq səhiyyə qurumları ilə inteqrasiyada olan, zəngin fəaliyyət yolu keçmiş, böyük nüfuz qazanmış təşkilatlardan biri kimi respublikamızı beynəlxalq aləmdə şərəflə təmsil edir.

Eyni zamanda, akademik Adilə Namazovanın Türkiyənin görkəmli elm adamlarından biri, ictimai-siyasi xadim, Ümumdünya Pediatrlar Cəmiyyətinin sədri, professor İhsan Doğramacı ilə sıx dostluq əlaqələri Azərbaycan Pediatrlar Assosiasiyasının ilk dəfə beynəlxalq tədbirlərdə təmsil olunmasına əlverişli zəmin yaradıb.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə səhiyyə sahəsində həyata keçirilən islahatlar da məhz elmin, infrastrukturun və insan amilinin birgə inkişafına söykənir. Prezident İlham Əliyevin "Azərbaycanda səhiyyə sistemində aparılan islahatlar, görülən işlər dünya səviyyəsində gedir. Hətta deyə bilərəm ki, biz artıq Azərbaycan standartlarından da danışa bilərik"

fikri bu sahəyə verilən dövlət qiymətinin ifadəsidir.

Son illərdə icbari tibbi sığorta mexanizminin geniş tətbiqi, səhiyyə idarəçiliyində yeni təşkilatların formalaşdırılması, müasir xəstəxana və diaqnostika mərkəzlərinin yaradılması, beynəlxalq təşkilatlarla əməkdaşlığın genişlənməsi, rəqəmsal səhiyyə innovasiyaları bu siyasətin sistemli xarakter daşıdığını göstərir.

Dövlət səviyyəsində tibb işçilərinin təkmilləşdirilməsinə, əhalinin sağlamlıq göstəricilərinin yaxşılaşdırılmasına və gələcək nəsillərin müdafiəsinə yönələn proqramlar da bu yanaşmanı tamamlayır. Əslində, Adilə Namazovanın ömrü boyu müdafiə etdiyi "uşaq sağlamlığının milli inkişafın əsası olması" fikri bu gün dövlət siyasətində daha geniş miqyasda davam etdirilir.

Xüsusilə işğaldan azad olunmuş ərazilərdə qurulan yeni həyat səhiyyə məsələsinə də yeni məzmun verib. Müasir tibb ocaqlarının yaradılması, tibbi xidmətin insanların yaşadığı məkana qədər çatdırılması, ən son texnologiyaların bölgələrə aparılması dövlət prioriteti kimi irəli çəkilir. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində qəsəbə və kəndlərdə ailə sağlamlıq mərkəzləri və tibb məntəqələrinin təşkili ilə doğma torpaqlara qayıdan insanların sağlamlıq təhlükəsizliyi dövlət tərəfindən əsaslı şəkildə düşünülür.

Beləliklə, Adilə Namazovanın Azərbaycan elmi, səhiyyəsi və dövlətçiliyində rolu təkcə keçmişin böyük xidmətləri ilə məhdudlaşmır. O, bu gün də davam edən səhiyyə quruculuğunun başlanğıcında dayanan simadır. Onun adı ilə bağlı olan elmi məktəb, yetişdirdiyi kadrlar, müdafiə etdiyi ideyalar və sərgilədiyi vətəndaş mövqeyi müasir Azərbaycanın səhiyyə fəlsəfəsində yaşayır.

Uşaq sağlamlığı milli təhlükəsizlik və insan kapitalının əsas komponenti kimi

Akademik Adilə Namazovanın irsində ən uzaqgörən cəhətlərdən biri uşaq sağlamlığına yalnız tibbi problem kimi yox, milli təhlükəsizlik məsələsi kimi yanaşmasıdır. Bu fikir bu gün çox aktual səslənsə də, onun elmi və ictimai fəaliyyətə başladığı dövrlərdə belə sistemli şəkildə irəli sürülməsi xüsusi uzaqgörənlik tələb edirdi. O, yaxşı anlayırdı ki, zəif uşaqlıq sağlam gələcək doğurmur, sağlam nəsil isə təsadüfən yox, düşünülmüş dövlət siyasəti, güclü səhiyyə sistemi və savadlı cəmiyyət hesabına formalaşır.

Adilə xanım üçün pediatriya yalnız xəstə uşağın müalicəsi deyildi. Bu sahə onun üçün eyni zamanda, xalqın sabahına cavabdehlik idi. O, uşağın xəstəliyinə diaqnoz qoyarkən təkcə tibbi nəticəni yox, sonrakı taleyi də düşünürdü ki, uşaq necə böyüyəcək, hansı həyat keyfiyyətinə sahib olacaq, cəmiyyətə necə inteqrasiya olunacaq, hansı peşəni seçəcək? Onun tədqiqatlarında belə uşaqların gələcək həyat şəraiti, davranışı, sosial faydalılığı haqqında tədbirlər kompleksinin işlənməsi bu baxışın nə qədər dərin olduğunu göstərir.

Difteriya epidemiyası dövründə profilaktik tədbirlərə verdiyi önəm, peyvənd proqramlarının inkişafına töhfəsi, ictimai səhiyyə sahəsindəki liderliyi də məhz bu strateji yanaşmadan doğurdu. O, xəstəliyin qarşısını almağı, onu sonradan müalicə etməkdən daha böyük dövlət müdrikliyi hesab edirdi. Bu gün profilaktika, immunizasiya, erkən diaqnostika və maarifləndirmə dünyanın bütün müasir səhiyyə sistemlərinin əsas prinsipləri sayılırsa, Adilə Namazova bu prinsipləri Azərbaycan şəraitində çox erkən dövrdə elmi və praktiki müstəviyə çıxarmışdı.

Adilə xanımın bioetika sahəsində fəaliyyəti də uşaq sağlamlığının geniş mənada qorunmasına xidmət edirdi.

2000-ci ildən ölkəmizdə tibbi bioetikanın elmi istiqamət olaraq tibb təhsilinə inteqrasiyasına nail olunub və dünya təcrübəsindən, beynəlxalq əməkdaşlıqdan faydalanaraq tibbi bioetikanın tədrisinin müvəffəqiyyətlə həyata keçirmək istiqamətində mühüm addımlar atılıb. Xüsusilə, akademik Adilə Namazova və dosent Təranə Tağı-zadə UNESCO-nun bioetikanın Azərbaycanda tədrisinin vəziyyəti və perspektivlərinə həsr olunmuş beynəlxalq layihəsində fəal iştirak ediblər. Layihə ABŞ, Macarıstan, Rusiya, Gürcüstan və digər ölkələrdə, bioetikaya həsr



olunmuş beynəlxalq tədbirlərdə, UNESCO-nun tibbi bioetikaya həsr olunmuş XVIII sessiyasında, MDB Parlamentlərarası Assambleyasında, V Bakı Beynəlxalq Humanitar Forumunda və digər nüfuzlu tədbirlərdə müzakirə edilərək dəstəklənib.

Tibbi bioetika Azərbaycan Pediatrlar Assosiasiyasının üzvü olan həkimlər tərəfindən öncə problem və mühazirələr kimi, 2020-ci ildən isə seçim fənni kimi tədris olunur. Tibbi etika və deontologiyanı tələbələrin yaxşı mənimsəmələri, təhlil etmələri üçün çoxsaylı məsələ, situasiya sualları, işgüzar oyunlar tərtib edilir. Artıq 26 ildən çoxdur ki, Azərbaycan Tibb Universitetində "Tibbi bioetikanın əsasları" fənninin tədrisi uğurla davam etdirilir.

Tibbi bioetikanın tibb tədrisinə daxil edilməsi, Azərbaycan dilində vəsaitlərin hazırlanması, həkimin yalnız müalicə edən yox, həm də mənəvi məsuliyyət daşıyan şəxs kimi yetişdirilməsi, əslində, insan kapitalının keyfiyyətinə yatırılan sərmayə idi.

Alimin sədrliyi ilə Azərbaycan Pediatrlar Assosiasiyasının fəaliyyəti çərçivəsində uşaq hüquqları ilə bağlı maarifləndirmə layihələrinin həyata keçirilməsi də eyni məntiqə söykənir.

Uşaq hüquqlarını qorumaq sağlam cəmiyyət quruculuğunun mühüm şərtidir. Bu mənada Adilə Namazovanın elmi irsi təkcə pediatrlar üçün deyil, hüquqşünaslar, müəllimlər, sosial işçilər və dövlət idarəçiləri üçün də əhəmiyyətli düşüncə qaynağıdır. Onun adı Azərbaycan tibb tarixində yalnız böyük pediatr alimin adı kimi deyil, milli düşüncədə sağlam gələcəyin elmi və mənəvi memarlarından biri kimi yaşayır.

Yüz illik zaman məsafəsindən baxanda akademik Adilə Namazovanın ömrü bir insan taleyindən daha böyük görünür. O, şəfa ilə elmi, zəka ilə mərhəməti, vətəndaşlıqla müəllimliyi bir ömürdə birləşdirən nadir simalardan idi. Bu gün onun 100 illik yubileyini qeyd edərkən, yetirmələrinin, davamçılarının və bütövlükdə Azərbaycan tibb ictimaiyyətinin düşüncəsində bir həqiqət yenidən səslənir: Adilə xanım bu dünyadan getsə də, onun işığı hələ də minlərlə uşağın taleyində, yüzlərlə həkimin düşüncəsində və milli səhiyyəmizin yaddaşında yaşayır.



Səbuhi QƏHRƏMANOV
AMEA-nın "Elm" nəşriyyatının direktoru,
filologiya üzrə fəlsəfə doktoru


İnformasiya və biliyə xidmət edən ömür

Əliyusif Məmmədov - 70

Universitet illərində mühazirələrini sevə-sevə dinlədiyim, öyrətdiklərindən peşə həyatımda və dünyagörüşümün formalaşmasında pay götürdüyüm bir ziyalı haqqında yubiley məqaləsi yazmaq mənim üçün xoş və bir o qədər də məsuliyyətlidir. Əliyusif Məhəmməd oğlu Məmmədov mənim üçün məhz belə müəllimlərdəndir. Vaxtilə tələbəsi olduğum Əliyusif müəllimin 70 illik yubileyi münasibətilə onun keçdiyi ömür yoluna bu gün həm də müəllim həmkarı, informasiya, sənədləşmə, nəşriyyat və kitabxana işi sahəsində standartlaşdırma, elmi jurnal fəaliyyəti və digər istiqamətlərdə birgə çalışdığım iş yoldaşı kimi nəzər salmaq mənim üçün xüsusilə əlamətdardır. Zaman keçdikcə daha aydın anlayırsan ki, yaxşı müəllimin verdiyi bilik illər sonra tələbəsinin fəaliyyətində, düşüncə tərzində, peşəyə münasibətində yaşayır, bəzən isə müəllimlə tələbəni eyni peşə və fəaliyyət müstəvisində yenidən qarşılaşdırır.

Əliyusif Məmmədovun ömür yolu istehsalatdan elmi-texniki informasiyaya, kitabxana-biblioqrafiya fəaliyyətindən informasiya proseslərinin avtomatlaşdırılmasına, ali məktəb auditoriyasından əqli mülkiyyət, patent və standartlaşdırma sahələrinə qədər uzanan çoxşaxəli bir fəaliyyət tarixidir. Onun yetmiş illik ömrü Azərbaycanda informasiya və kitabxana-informasiya fəaliyyətinin, ali təhsilin, sənəd menecmentinin və bu sahələrdə gedən modernləşmə proseslərinin ayrı-ayrı mərhələlərini özündə əks etdirən zəngin və maraqlı bir həyat məktəbidir. Bu həyat məktəbinə nəzər saldıqda ötən illərin arxasında daim öyrənmək, öyrətmək, yeniliyi izləmək və əldə olunan biliyi başqaları ilə bölüşmək prinsipinə söykənən ardıcıl fəaliyyət xətti aydın görünür. Məhz bu ardıcıllıq onun müxtəlif illərdə və fərqli sahələrdə gördüyü işləri vahid məqsəd ətrafında birləşdirir: biliyə, informasiyaya və onun insanlara xidmət etməsinə töhfə verməkdir.

1956-cı il sentyabrın 12-də anadan olmuş Ə.Məmmədov əmək fəaliyyətinə hələ gənc yaşlarında başlamışdır. Onun peşəkar həyatının ilk mərhələsi istehsalatla bağlı olmuş, sonrakı fəaliyyəti isə tədricən elmi-texniki informasiya, kitabxana işi, informatika, informasiya proseslərinin avtomatlaşdırılması, pedaqoji fəaliyyət, əqli mülkiyyət və standartlaşdırma kimi bir-biri ilə sıx əlaqəli istiqamətləri əhatə etmişdir. Bu yolun diqqəti cəlb edən mühüm



xüsusiyyətlərindən biri nəzəri biliklə praktiki fəaliyyətin daim yanaşı addımlamasıdır. Əliyusif Məmmədov 1977-ci ildən 2002-ci ilədək Səttarxan adına (əvvəllər leytenant Şmidt adına) neft maşınqayırma zavodunda texniki nəzarətçi, istehsalat şöbəsinin mühəndisi və direktorun istehsalat məsələləri üzrə köməkçisi vəzifələrində çalışmışdır. Bu illər ona real istehsalat mühitini, texniki prosesləri və idarəetmənin praktik tərəflərini yaxından öyrənmək imkanı vermişdir. Əsasən ikinci və üçüncü növbələrdə - axşam və gecə saatlarında işləyərək, eyni zamanda təhsilini davam etdirməsi, daha sonra gecə zavodda, gündüz isə elmi və pedaqoji sahədə çalışması onun məqsədyönlü və zəhmətkeş xarakterinin göstəricisidir.

İstehsalatda çalışdığı illərdə onun ixtiraçılığa və əqli mülkiyyətə marağı da formalaşmışdır. Keçmiş İttifaqda bu istiqamətdə yeganə təhsil müəssisəsi olan Azərbaycan İxtira Yaradıcılığı İctimai İnstitutunda - AZOİT-də təhsil alması sonralar patent, əqli mülkiyyət və texniki informasiya sahəsindəki fəaliyyətinin əsasını təşkil etmişdir.

Əliyusif Məmmədov 1983-cü ildə Azərbaycan Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsinin əyani şöbəsini bitirmişdir. Tələbəlik illərində kitabxana-biblioqrafik fəaliyyətlə yanaşı, onun xüsusi maraq göstərdiyi sahələrdən biri informatika idi. Həmin dövrdə informatika anlayışının daha geniş mənada işlədilərək elmi və texniki informasiyanın nəzəriyyəsi ilə bağlı olması, kompüterləşdirmənin isə onun texniki bazası kimi qəbul edilməsi Əliyusif Məmmədovun bu seçiminin sonrakı peşə yolunda nə qədər əhəmiyyətli olduğunu göstərir. Təsadüfi deyil ki, onun diplom işi də məhz informatikanın aktual problemlərinə həsr edilmişdi.

Universiteti bitirdikdən sonra informatika və patent sahəsindəki hazırlığı nəzərə alınaraq "Neftmaş" Xüsusi Konstruktor Bürosunun Elmi-Texniki İnformasiya və Patent şöbəsinə mühəndis qəbul edilən Əliyusif Məmmədov az sonra Azərbaycan Elmlər Akademiyasının İctimai Elmlər üzrə Elmi İnformasiya Mərkəzinə - SİNİON-a dəvət olunmuşdur. Burada əvvəlcə Biblioqrafik tədqiqatlar şöbəsində Azərbaycanda ictimai elmlər üzrə sənəd axını və kütləsinin biblioqrafik təhlili ilə məşğul olmuş, bu sahə üzrə əvvəlcə ənənəvi resursların - kartoteka və göstəricilərin, sonra isə elektron sənəd-informasiya resurslarının hazırlanmasında iştirak etmişdir. Onun həmin dövrdəki fəaliyyətinin məhsulu bir sıra elmi-köməkçi biblioqrafik göstəricilər, o cümlədən "Azərbaycanda ictimai elmlərin inkişafı" seriyası altında nəşr edilmiş, 1920-1980-ci illərdə çıxmış hüquq elmi və praktikası üzrə nəşrləri əhatə edən fundamental "Hüquq" biblioqrafik göstəricisi olmuşdur.

Daha sonra SİNİON-un İnformasiya Proseslərinin Avtomatlaşdırılması şöbəsində çalışan Əliyusif Məmmədov Azərbaycanda ilk dəfə olaraq paylaşdırılmış biblioqrafik verilənlər bazasına əsaslanan Avtomatlaşdırılmış İnformasiya-Axtarış Sisteminin yaradılmasında iştirak etmişdir. Həmin sistem Azərbaycanda ictimai elmlər üzrə dərc edilən kitab və məqalələri əks etdirən biblioqrafik informasiyanın elektron mühitdə formalaşdırılması üzrə ilk təcrübə idi.

SİNİON-dakı fəaliyyət onun peşəkar bioqrafiyasında xüsusi mərhələ təşkil edir. İnfor-

masiya-biblioqrafik proseslərin avtomatlaşdırılması, elektron informasiya resursları və verilənlər bazasının yaradılması, elmi işçilərə informasiya xidmətinin təşkili kimi işlərdə iştirakı Əliyusif Məmmədovun hələ 1980-ci illərdə informasiya texnologiyalarının gələcək rolunu praktik şəkildə dərk edən mütəxəssislərdən biri olduğunu göstərirdi. Məhz həmin dövrdə Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsinin Biblioqrafiya kafedrasının müdiri, mərhum professor Zöhrab Əliyevin təklifi ilə kafedra nəzdində yaradılmış Biblioqrafik informasiya-axtarış sistemləri laboratoriyasına rəhbərlik etmək üçün universitetə dəvət olunmuşdu. 1987-ci ildə BDU-ya keçən Əliyusif Məmmədov həmin ildən pedaqoji fəaliyyətə də başlamışdır. Beləliklə, onun həyatında istehsalat, elmi informasiya və ali təhsil bir-birini tamamlayan vahid peşəkar istiqamətə çevrilmişdir.

1991-ci ildə biblioqrafiyaşünaslıq ixtisası üzrə əyani aspiranturaya daxil olan Əliyusif Məmmədov 1994-cü ildə təhsilini başa vurmuş, 1995-ci ildən Biblioqrafiyaşünaslıq kafedrasında assistent kimi fəaliyyətini davam etdirmişdir. 2006-cı ildə baş müəllim vəzifəsinə təyin edilmişdir.

2007-ci ildən isə BDU-dakı pedaqoji fəaliyyəti ilə yanaşı, Prezident Kitabxanasında kitabxana fəaliyyətinin avtomatlaşdırılması prosesində yaxından iştirak etmiş, burada kitabxana-biblioqrafik fəaliyyətin zamanın tələblərinə uyğun qurulmasına yönələn ardıcıl metodiki iş aparmışdır. Əliyusif Məmmədov 2007-2022-ci illərdə bu iki istiqamətdə fəaliyyətini paralel şəkildə davam etdirmiş, 2022-ci ildə Prezident Kitabxanasından təqaüdə çıxdıqdan sonra BDU-da, həmişə çalışdığı fakültədə tam ştatda pedaqoji fəaliyyətini davam etdirmişdir.

Əliyusif müəllimin pedaqoji fəaliyyətini səciyyələndirən mühüm cəhətlərdən biri yeniliyə və müasir informasiya texnologiyalarına açıq olmasıdır. Fakültədə fəaliyyətinin ilk illərində kompüterlə işləmək bacarığı və ingilis dilində peşəkar fəaliyyət göstərmək imkanlarına malik müəllimlərdən biri olmuş, sonralar Azərbaycan və rus dilləri ilə yanaşı, ingilis dilində də tədris aparmışdır. Bu hazırlıq və innovativ yanaşma ona xarici ölkələrin aparıcı ali məktəblərinin təcrübəsini yaxından öyrənmək imkanı yaratmışdır. 2002-ci ildə Fransanın Lion şəhərində kitabxanaçılıq və informasiya fəaliyyəti üzrə ixtisaslaşmış ENSİB-də ixtisasartırma və akademik mübadilə proqramında iştirak etmiş, 2003-cü ildə isə ABŞ Dövlət Departamentinin dəstəklədiyi BDU-İndiana Universiteti əlaqə proqramı çərçivəsində İndiana Universitetinin Kitabxanaçılıq və İnformasiya fakültəsində bir semestr təcrübə keçmişdir. İndiana Universitetində tədris prosesini və proqramları öyrənərək kitabxanaçılıq təhsilinin təkmilləşdirilməsi və yeni ixtisas - informasiya mütəxəssisi ixtisasının yaradılması ilə bağlı təkliflər hazırlaması xüsusilə diqqətəlayiqdir.

ABŞ-də olduğu müddətdə üç elmi konfransda iştirak etmiş, onlardan birində tezisi dərc olunmuşdur. Əliyusif Məmmədov, həmçinin digər azərbaycanlı həmvətənləri ilə birlikdə "Amerika-Azərbaycan Təhsil və Mədəniyyət Fondu"nun yaradıcılarından biri olmuşdur. Kitabxana və informasiya fəaliyyəti sahəsində dünyanın əsas beynəlxalq təşkilatlarından olan İFLA-nın dünyanın müxtəlif şəhərlərində - Boston, Milan və Vrotslavda keçirilən konfranslarında iştirakı da onun peşəkar dünyagörüşünün formalaşmasında mühüm rol oynamışdır.

Əliyusif Məmmədovun fəaliyyətinin daha bir mühüm istiqaməti əqli mülkiyyət, patent və standartlaşdırma sahəsidir. Mühəndislik təcrübəsi, ixtiraçılıq üzrə aldığı xüsusi hazırlıq və AZPATENT-in seminarlarında iştirakı ona bu sahədə ekspert kimi fəaliyyət göstərmək imkanı vermişdir. O, müxtəlif əqli mülkiyyət obyektlərinin təkmilləşdirilməsi və qeydiyyatına yardım etmiş, patent-texniki araşdırmalar və

təhlillər aparmış, standartlaşdırma və sertifikatlaşdırma işlərində iştirak etmişdir. Əqli mülkiyyət obyektinin qiymətləndirilməsi istiqamətində həyata keçirdiyi işin beynəlxalq səviyyədə müsbət qiymətləndirilməsi bu fəaliyyətin mühüm nəticələrindən olmuşdur. Peşəkar fəaliyyətin müxtəlif istiqamətlərində qazanılmış zəngin təcrübə zamanla auditoriyalarda tələbələrinə ötürülmüşdür. Təsadüfü deyil ki, fakültədə "Normativ-texniki və patent sənədlərinin biblioqrafiyası" fənninin tədrisi ona həvalə edilmiş və Əliyusif müəllim uzun müddət həmin fənni tədris etmişdir.

Hazırda o, həm də Azərbaycan Standartlaşdırma İnstitutunun "İnformasiya, sənədləşdirmə, nəşriyyat və kitabxana işi" üzrə Texniki Komitəsinin üzvü kimi fəaliyyət göstərir. Beynəlxalq standartların Azərbaycan dilinə tərcüməsi və redaktəsində iştirakı, eləcə də Beynəlxalq Əmək Təşkilatının himayəsi ilə ölkədə peşə standartlarının hazırlanması prosesinə qoşularaq kitabxanaçı-biblioqraf peşəsi üzrə milli peşə standartının hazırlanmasında iştirak etməsi bu fəaliyyətin davamıdır.

Əliyusif müəllimin pedaqoji təcrübəsində yeni fənlərin yaradılması xüsusi yer tutur. O, bir sıra mövcud fənlərin proqramlarını köklü şəkildə yeniləmiş, eyni zamanda "Normativ-texniki və patent sənədlərinin biblioqrafiyası", "İqtisadi biblioqrafiya", "Ekologiyanın biblioqrafik informasiya təminatı", "Turizmin biblioqrafiyası", "Azərbaycan kitabxanalarının biblioqrafik informasiya resursları", "Kitabxanaların elektron informasiya resursları", "Sənədşünaslıq", "Sahəvi biblioqrafiya" və digər fənlər üzrə proqram və mühazirə materialları hazırlamışdır. Ümumilikdə onun fəaliyyəti nəticəsində çoxsaylı yeni tədris proqramlarının meydana gəlməsi fakültənin tədris məzmununun yenilənməsinə mühüm təsir göstərmişdir.

2022-ci ildə fakültədə ilk dəfə ingilis dilində magistratura təhsilinə başlanarkən bu istiqamətdə əsas ixtisas fənlərinin tədrisi də Əliyusif Məmmədova həvalə edilmişdir. O, magistratura üçün bir çox fənn üzrə orijinal proqramlar, sillabuslar və mühazirə materialları hazırlamışdır. Beləliklə, yeni tədris məzmunu yaratmaq uzun illər ərzində onun pedaqoji fəaliyyətinin əsas istiqamətlərindən birinə çevrilmişdir.

Son illər onun tədris fəaliyyətində rəqəmsal texnologiyalarla bağlı mövzuların xüsusi çəkisi daha da artmışdır. "Elektron informasiya resursları", "İnformasiya sistemləri", "Rəqəmsal bilik və tədqiqat bacarıqları", "İnformasiya konsaltinqi və logistikası" kimi fənlərin Azərbaycan, rus və ingilis dillərində tədrisi onun peşəkar yolunun başlanğıcından - kitabxanalarda və kitabxanalardan xaric sənəd-kommunikasiya proseslərinin təkmilləşdirilməsi, biblioqrafik təminat, elmi-texniki informasiyanın avtomatlaşdırılması məsələlərindən - bu günün rəqəmsal informasiya mühitinə qədər uzanan məntiqi inkişaf xəttini göstərir.

Əliyusif Məmmədov uzun müddət kitabxana sahəsində fəaliyyət göstərən aparıcı ictimai təşkilat olan Azərbaycan Kitabxana İşinin İnkişafı Assosiasiyasında layihə meneceri və xarici əlaqələr üzrə koordinator kimi çalışaraq kitabxana işinin inkişafına yönəlmiş layihələrin həyata keçirilməsinə böyük töhfə vermişdir. Bundan başqa, o, hazırda Avropa Elmi Redaktorlar Assosiasiyasının Azərbaycan bölməsinin fəal üzvü kimi, akademik nəşriyyat redaktorluğu, elmi tədqiqatların səmərəliliyinin artırılması, müəlliflər və məqalələr üçün etik normalar, elmi ünsiyyətdə süni intellektdən istifadə və s. müxtəlif istiqamətlər üzrə çalışır, Azərbaycanı forum və konfranslarda layiqincə təmsil edir.

Ə.Məmmədov, eyni zamanda müxtəlif qurumların yerli və beynəlxalq layihələrində bazar araşdırmaları, texnologiyaların cari vəziyyətinin təhlili, patent araşdırmaları, iş yerlərində treninqlərin keçirilməsi kimi fəaliyyətlərdə iştirak etmişdir. O, dəfələrlə ekspert-məslə-

hətçi qismində respublikanın bir sıra universitet kitabxanalarının fəaliyyətinin təkmilləşdirilməsinə yönələn təkliflər vermiş, metodik yardım göstərmişdir.

Müxtəlif qurumlara əqli mülkiyyət obyektlərinin, o cümlədən əmtəə və xidmət nişanlarının qeydiyyatında yardım göstərməsi, AZPATENT-in tədbirlərində fəal iştirakı, Ümumdünya Əqli Mülkiyyət Təşkilatının Azərbaycanda keçirilən tədbirlərindən birində ölkəmiz tərəfindən əsas məruzəçi kimi çıxış etməsi onun praktiki fəaliyyətinin miqyasını daha aydın göstərir. Standartlaşdırma və sertifikatlaşdırma üzrə məsləhət xidmətləri göstərməsi də onun çoxşaxəli peşəkar fəaliyyətinin tərkib hissəsidir.

Bu gün informasiya cəmiyyətinin yeni mərhələyə qədəm qoyduğu, rəqəmsallaşmanın iqtisadiyyatın və idarəetmənin bütün sahələrinə nüfuz etdiyi bir zamanda Əliyusif Məmmədovun uzun illər ərzində formalaşdırdığı peşəkar təcrübə xüsusi aktuallıq kəsb edir. Onun fəaliyyəti informasiya resurslarının toplanması və saxlanılması ilə kifayətlənməyərək onların idarə olunması, avtomatlaşdırılması, elektron mühitdə istifadəsi və müxtəlif sahələrin informasiya təminatında tətbiqi istiqamətində inkişaf etmişdir.


Hazırda Əliyusif Məmmədov BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsində pedaqoji fəaliyyətini davam etdirir. Fakültənin bugünkü inkişaf istiqamətləri - informasiya resurslarının idarə edilməsi, elektron xidmətlər, informasiya menecmenti və rəqəmsal bacarıqlar - onun uzun illər ərzində fəaliyyət göstərdiyi peşə sahələrinin müasir mərhələdəki davamı kimi diqqəti cəlb edir.

70 illik yubiley Əliyusif Məmmədovun keçdiyi zəngin və çoxşaxəli yola nəzər salmaq üçün gözəl bir fürsətdir. İstehsalat mühəndisindən informasiya mütəxəssisinə, elmi informasiya sistemlərinin avtomatlaşdırılması üzrə praktik işçidən ali məktəb müəllimino, patent və standartlaşdırma üzrə ekspertdən universitet təhsili üçün yeni nəsil fənlərin müəllifinə qədər uzanan bu yol onun peşəkar axtarışlarının ardıcıllığını, daim yeniliyə və inkişafa can atdığını aydın şəkildə göstərir. Mənim üçün isə bu zəngin bioqrafiyada ayrıca və doğma bir məqam var: Əliyusif Məmmədov hər şeydən öncə qayğıkeş pedaqoq, biliyini və təcrübəsini tələbələri ilə səxavətlə bölüşən, onların uğurlarına ürəkdən sevinən əsl müəllimdir. İnsan özü də peşə həyatında müəyyən yol keçdikcə ona bilik verən, istiqamət göstərən müəllimlərinin əməyinin dəyərini daha dərindən dərk edir. Əliyusif müəllim kimi ziyalıların ömrü yalnız yaşadıqları illərlə ölçülmür. Müəllimin öyrətdikləri tələbələrinin biliyində, peşə fəaliyyətində, dünyagörüşündə, formalaşdırdığı düşüncə və dəyərlərdə yaşadıqca onun ömrü də davam edir. Əliyusif müəllimin uzun illər ərzində yetişdirdiyi tələbələr, hazırladığı proqramlar, tədris etdiyi fənlər, yaratdığı informasiya resursları, həyata keçirdiyi layihələr və bölüşdüyü zəngin peşəkar təcrübə bu mənada onun mənalı ömür yolunun davam edən səhifələridir.

Belə bir deyim var: "Müəllim tələbəni deyil, tələbə müəllimi seçir". Mənə görə müəllim üçün ən böyük yubiley, bəlkə də, illər sonra tələbəsinin onu minnətdarlıqla "mənim müəllimim" deyə xatırlamasıdır. Yetmiş illik yubileyi münasibətilə dəyərli müəllimim Əliyusif Məhəmməd oğlu Məmmədovu səmimiqəlbdən təbrik edir, ona möhkəm cansağlığı, uzun ömür, yeni yaradıcılıq və pedaqoji fəaliyyətində uğurlar arzulayıram. Arzu edirəm ki, onun zəngin təcrübəsi, peşəkar biliyi, elmə, təhsilə və informasiya sahəsinə uzun illər ərzində verdiyi töhfələr bundan sonra da tələbələrin, gənc mütəxəssislərin və bütövlükdə informasiya cəmiyyətinin inkişafına xidmət etsin.



Şahvələd ƏLİYEV
AR Elm və Təhsil Nazirliyi, Coğrafiya İnstitutu, biologiya elmləri üzrə fəlsəfə doktoru




Bahar ƏLİYEVA
Azərbaycan Dövlət İqtisad Universiteti, iqtisadçı

Samux rayonunun mədəni irsi, turizm-rekreasiya ehtiyatları, onlardan səmərəli istifadə yolları və toponimləri

Azərbaycan Respublikasında inzibati rayonlardan biri də Samux rayonudur. Gəncə-Daşkəsən iqtisadi rayonuna daxil olan Samux rayonu 40°50 şimal en, 46°30 şərq uzunluğunda yerləşir. Bu rayonun ərazisi1 455 km², əhalisinin sayı 61 000 nəfərdir. Samux rayonu cənubdan Gəncə şəhəri, qərbdən Şəmkir rayonu, şimal-qərbdən Tovuz rayonu, cənub-şərqdən Goranboy rayonu, şimal-şərqdən Qax rayonu, şərqdən Yevlax rayonu, eləcə də Mingəçevir su anbarı vasitəsilə Mingəçevir şəhəri, şimaldan isə Gürcüstan Respublikası ilə həmsərhəddir.

Samux rayonunun ərazisi Qafqaz Albaniyası dövlətinin tərkibində olmuşdur. XVIII əsrdə Samux Gəncə xanlığının dörd vilayətindən biri idi. Xanlıqlar dönəmində Samux mahalı Qazanı dağlarının ətəyində Qanlı Qobu və Qabırrı vadiləri arasında Kür çayının sahilindəki əraziləri əhatə edirdi. O, çar Rusiyası dönəmində Azərbaycanın müvafiq inzibati bölümlərinə tabe olmuş, sovet hakimiyyəti illərində isə bir müddət Səfərəliyev adını daşımışdır.



Şək. 1. Samux rayonu ölkə mövqeyində

Səfərəliyev rayonu Azərbaycan SSR Ali Sovetinin 24 yanvar 1939-cu il tarixli 4 saylı qərarı ilə Kirovabad (indiki Gəncə) şəhərinin ərazisində yaradılmış, Azərbaycan SSR Ali Sovetinin 16 yanvar 1940-cı il tarixli 11 saylı qərarı ilə Kirovabad şəhər rayonlarının tərkibindən çıxarılaraq respublika rayonlarının tərkibinə daxil edilmişdir. 1948-ci ildən başlayaraq Mingəçevir Su Elektrik stansiyasının tikintisi ilə əlaqədar ərazisinin çox hissəsi su altında qalmışdır.

8 avqust 1930-cu il tarixində yaradılmış keçmiş Samux rayonu Azərbaycan SSR Ali Sovetinin 28 yanvar 1954-cü il tarixli qərarı ilə

ləğv edilərək Səfərəliyev rayonuna verilmişdir. Azərbaycan SSRİ Ali Sovetinin 4 dekabr 1959-cu il tarixli qərarı ilə Səfərəliyev rayonu müstəqil rayon kimi ləğv edilərək Gəncə şəhərinə birləşdirilmişdir. 1963-cü ilin yanvar ayından etibarən keçmiş Səfərəliyev rayonunun ərazisi Xanlar (hazırda Göygöl rayonu) rayonunun tərkibinə daxil edilmişdir.

Samux rayonu Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının 18 fevral 1992-ci il tarixli 72 saylı qərarı ilə mərkəzi Səfərəliyev şəhər tipli qəsəbəsi olmaqla keçmiş Səfərəliyev rayonunun ərazisində təşkil edilmişdir. Milli Şuranın 31 dekabr 1992-ci il tarixli qərarı ilə Səfərəliyev qəsəbəsinin adı dəyişdirilərək Nəbiağalı qəsəbəsi adlandırılmışdır. "Azərbaycan Respublikasının Samux rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 13 iyun 2008-ci il tarixli Qanunu ilə Nəbiağalı qəsəbəsi ilə Kolayır kəndi birləşdirilərək Samux qəsəbəsi adlandırılmış və Samux qəsəbəsinə şəhər statusu verilmişdir. Bu yaşayış məntəqəsi XVII əsrin ortalarında bina edilmiş və onu bina edən Nəbiağalı tirəsinin adı ilə əlaqədar Nəbiağalı adlandırılmışdır. XX əsrdə - sovet hakimiyyəti qurulduqdan az sonra bir müddət Sabirkənd, 1941-ci ildən isə inqilabçı Xanlar Səfərəliyevin (1885 - 1907) soyadı ilə əlaqədar olaraq Səfərəliyev adlanmışdır. 1992-ci ildə yaşayış məntəqəsinin keşmiş adı olan Nəbiağalı bərpa edilmişdir.

Təhlil və müzakirə

Rayon əhalisinin 98,5 faizini azərbaycanlılar, 1,5 faizini digər millətlər təşkil edir. Rayonun dəniz səviyyəsindən orta hündürlüyü 79 metrdir. Mərkəzi Samux şəhəridir. O, 1990-cı ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə yaradılan yeni inzibati ərazi vahidlərindən biridir.

Ərazisi əsasən düzənliklərdən ibarət olan Samux rayonunun iqlimi quru-kontinentaldır. Ərazinin bir hissəsi Kür çökəkliyinə, Ceyrançöl fiziki-coğrafi sahəsinə, Bozdağ massivinə düşməklə, şimalda Alazan vadisi ilə əhatə



Şək. 2. Samux rayonunun xəritə-sxemi

olunmuşdur. Rayonun ərazisindən Kür, Qabırrıçay (İori), Alazan (Qanıx), Gəncəçay və Qoşqarçay çayları keçir. Bu çayların ətrafı balıq və heyvan ovu üçün çox münasibdir.

Qabırrıçayın sol sahilində, Samux rayon ərazisində, dəniz səviyyəsindən 400 - 600 metr yüksəklikdə "Elləroyuğu" adlanan dağ silsiləsində, 392 hektar sahədə təbii halda yayılmış, yalnız bu ərazidə rast gəlinən relikt Eldar şamı meşəliyi yayılmışdır. Belə bir unikal sahə Qafqaz təbiətində ilk olaraq "Eldar Şamı" meşəliyi kimi hələ 1910-cu ildə qoruq ərazisi elan edilmişdir. Həmin ərazidə "Qırmızı kitab"a daxil edilmiş Eldar şamı ilə yanaşı, qiymətli ardıc və saqqız ağacları da inkişaf etmişdir. Respublika Nazirlər Sovetinin 16 may 1958-ci il tarixli qərarı ilə "Eldar Şamı" meşəliyi filial kimi Türyançay Dövlət Təbiət Qoruğunun tərkibində olmuş, 1965-ci ildə Göy-Göl Dövlət Təbiət Qoruğu bərpa edildikdən sonra, 16 dekabr 2004-cü il tarixədək filial kimi fəa-

liyyət göstərmişdir. 1901-ci ildə rus alimi S.Medvedyev "Eldar Şamı"nın dünyada analoqu olmayan relikt növ olduğunu bildirmişdir. Azərbaycan Respublikası Prezidentinin 16 dekabr 2004-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının xüsusi mühafizə olunan əraziləri şəbəkəsinin genişləndirilməsi, səciyyəvi, nadir təbiət komplekslərinin və obyektlərinin təbii vəziyyətdə saxlanılması məqsədilə Samux rayon inzibati ərazisində 1686 hektar sahədə "Eldar Şamı" Dövlət Təbiət Qoruğu yaradılmışdır. Bu qoruq məşhur Eldar şamı ağacının qorunub saxlanması və öyrənilməsi məqsədilə yaradılmışdır. Bura dünyada yeganə yerdir ki, quraqlığa və şoranlığa davamlı Eldar şamı təbii şəraitdə meşə halında bitmişdir. Qoruğun şimal-şərqindəki dağda məşhur "Koroğlu qalası" qülləsi, həmin qüllənin yaxınlığında isə müalicəvi əhəmiyyətə malik olan bulaq var. Nəbiağlı kəndinin ərazisindəki Xırmansuyu bulağının suyu kükürdlüdür. Bir sıra xəstəliklərin müalicəsində, əhalinin sağlamlığının qorunmasında bu suyun böyük əhəmiyyəti vardır.

Samux abidələrinə nümunə olaraq Liman, Gil tikintisi, Zazalı məbədi, Kurqanlar, İlan piri, Xasayeri qədim yaşayış məskəni, İmamzadə türbəsi və başqalarını göstərmək olar. Rayonun ərazisində çoxlu sayda kurqanlar vardır. Onların sırasında diametri 10 - 20 metr, hündürlüyü 1 - 1,5 metr olan Nəbiağalı kurqanları daha çox seçilir. Mütəxəssislərin qənaətinə görə, Nəbiağalı kurqanlarının yaranma tarixi tunc dövrünün sonuna və daş dövrünün başlanğıcına aid edilir.

Son Tunc - Erkən Dəmir dövrlərinə aid edilən, 38 metr uzunluğu və 4,5 metr eni olan qədim Zazalı məbədi Samux rayonunun Zazalı kəndində, rayon mərkəzindən 10 kilometr cənub-şərqdə yerləşir. Bu məbəd Azərbaycanın dünya əhəmiyyətli arxeoloji abidələri siyahısına daxildir. Onun 3000 ildən çox tarixi var. Ehtimal olunur ki, tikili ilkin dövrlərdə bütpərəst məbədi kimi istifadə edilmiş, daha sonra albanlar tərəfindən bərpa olunaraq xristian məbədi kimi də fəaliyyət göstərmişdir. Hazırda abidə dağılmaq təhlükəsi ilə üz-üzədir. O, torpağın altında qaldığından görünməz hala düşmüşdür. Zazalı kəndinin sakinlərinin dediklərinə görə, bu məbəd yer səthindən təxminən 3 metr aşağıda tikilmişdir və 50 il öncə onun içərisinə girmək mümkün idi.

Rayonda yaşı yüzilliklərlə ölçülən unikal təbii abidələr - çinar ağacları var. Bu ağaclardan birinin yaşı 1200 - 1300 ildir. Ağacın gövdəsində nal izinə oxşar izlər var. El arasında Düldül adı ilə məşhur olan bu ağac İmam Əlinin atının adı ilə əlaqədar olaraq belə adlanmışdır. İndi bura ziyarətgahdır; yerli sakinlər buraya gəlib nəzir də verirlər.

Samux rayonunun zəngin toponimik mənzərəsi var. Samux adının mənşəyi haqqında müxtəlif fikirlər mövcudur. Daha geniş qəbul olunmuş fikirlərə görə, "Samux" adının mənşəyi qədim alban toponimləri ilə əlaqədar olub, "meşəlik", "ağaclıq" mənasını verir. Tarixi sənəd və materiallardan aydın olur ki, Samux sözü qədim alban dilində "ov üçün meşəlik yer" mənasını verir.

Çobanabdallı kəndi (bəzən sənədlərdə adı Çoban Abdallı kimi də yazılır) eyniadlı inzibati ərazi vahidində, Kürəkçayın sahilində,Gəncə-Qazax düzənliyindədir. Yaşayış məntəqəsi çobanlar və ya çobanilərin abdallı tirəsinin burada məskunlaşması nəticəsində yaranmışdır. Tədqiqatçıların çoxu Abdal etnonimini hunlarla - eftalilərlə əlaqələndirir. Abdal - orta əsrlərdə yoxsul və dərvişsayağı həyat keçirənlərə deyilmişdir. Azərbaycan Respublikasında adının tərkibində abdal komponenti iştirak edən oykonimlərə Çoban Abdallı kəndi (Samux rayonu), Abdal kəndi (Ağdam və Tovuz rayonları), Abdalanlı kəndi (Ordubad rayonu), Abdallar kəndi (Laçın rayonu), Abdallı kəndi (Oğuz rayonu), Nic-Abdallı kəndi (Qəbələ rayonu) və başqalarını nümunə göstərmək olar.

Sərkar kəndi - Bolçalı inzibati ərazi vahidində iki kənd. Bu yaşayış məntəqələri keçmişdə Gəncə mahalında maldarlıqla məşğul olmuş Sərkar elatının adı ilə bağlıdır. Sərkarlar keçmişdə əsasən Şirvanda yaşayan Xançobanıların bir qoludur. Şirvan xanları bu tayfadan idilər.

S.s.	Oykonimlər	Quruluşu	Yerləşdiyi ərazi	Əvvəlki adı	Mənası
1.	**Samux**	Sadə	Gəncə-Qazax düzənliyi, Gəncə çayının sahili	Nəbiağalı, Sabirkənd, Səfərəliyev	*"Ov üçün meşəlik yer"*
2.	**Sərkar**	Sadə	Bolçalı inzibati vahidi	–	Elat adı (*etnotoponim*)
3.	**Lək**	Sadə	Lək inzibati ərazi vahidi	–	Tayfa adı (*etnotoponim*)
4.	**Aşağı Ağasıbəyli**	Mürəkkəb	Əli Bayramlı inzibati ərazi vahidi	–	Elat adı (*etnotoponim*)
5.	**Bağbanlar**	Sadə	İnstitut qəsəbə inzibati ərazi dairəsi	–	*Etnotoponim*
6.	**Çobanabdallı**	Mürəkkəb	Çobanabdallı inzibati ərazi vahidi	–	*Etnotoponim*
7.	**Hacıalılı**	Sadə	Hacıalılı kənd inzibati ərazi dairəsi	–	Tayfa adı (*etnotoponim*)
8.	**Köbər**	Sadə	Qaraağaclı qəsəbə inzibati ərazi dairəsi	Lüksemburq	*"Alçaq təpəlik", "düzənlikdə hündür yer"*

Tarixi hadisələr ilə əlaqədar Gəncə zonasına köçmüş Sərkarlar bu tayfanın tirələrindən olmuşdur. XIX əsrin əvvəllərinə aid olan bir sıra tarixi sənəd və materiallarda Sərkarların bəzi tirəsinin adı çəkilir və onlar haqqında məlumatlar verilir. Xançobanı tayfasının qollarından biri olan Sərkarlı tirəsi ilə bağlı hazırda Samux rayonunda Sərkar kəndi, Bərdə rayonunda Sərkarlar kəndi, Xaçmaz rayonunda Sərkarlı kəndi vardır. Sərkarlı tirəsinin nəsillərinə Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndində, Füzuli rayonunun Əhmədalılar və Mollaməhərrəmli kəndlərində və digər bölgələrdə də rast gəlinir. Samux rayonunun Sərkar kəndi ərazisindəki Zəhrə bulağının suyundan mədə-bağırsaq xəstəliklərinin müalicəsində istifadə edilir.

Nəticə

Məlumdur ki, turizm-rekreasiya iqtisadi baxımdan gəlirli və sürətlə inkişaf edən biznes sahələrindən biridir. Hər bir regionun rekreasiya ehtiyatlarının zənginliyi onun turizm məqsədilə istifadəsində əlverişli imkanlar yaradır. Bu mənada Samux rayonunun ərazisində də turizm sektorunun inkişaf etdirilməsi üçün əlverişli şərait vardır. Rayonun əlverişli iqlim şəraitinə malik olması, coğrafi mövqeyi, tarixi və mədəni sərvətləri, memarlıq abidələri, əmək ehtiyatları və s. burada turizm-rekreasiya ehtiyatlarının inkişafı üzün gözəl zəmin və əlverişli imkan yaradır. Bütün bunlar nəzərə alınaraq ilk dəfə rayonun Əli Bayramlı kəndi yaxınlığında beşmərtəbəli turist kompleksi inşa edilmişdir. Burada gün ərzində 100 nəfərə yaxın insanın müalicəsi üçün hər cür infrastruktur yaradılmışdır. Rayon əhalisinin ən çox istifadə etdiyi Əli Bayramlı kəndi yaxınlığındakı müalicəvi su yatağında yeni sanatoriya və turist bazasının tikintisi başa çatdırılmalıdır.

Samux rayonunun ərazisində zəngin müalicəvi su ehtiyatları vardır. Onlardan səmərəli istifadə olunması məqsədilə yeni kompleks tədbirlər planı işlənib hazırlanmalıdır. Rayonda çıxan müalicəvi su mənbələrinə yenidən baxış keçirilməli və onlardan səmərəli istifadə olunması qaydaları açıqlanmalıdır.



Akif MƏMMƏDLİ
AMEA Şəki Regional Elmi Mərkəzinin böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru



Həbib RAMAZANZADƏ
160 saylı Klassik Gimnaziyanın 11-ci sinif şagirdi

Azərbaycanda yaşayan avarlar: mədəniyyəti, adət-ənənələri

Azərbaycanın tarixini, mədəniyyətini dərindən öyrənmək üçün burada yaşayan xalqların, o cümlədən avarların tarixini və mədəniyyətini öyrənmək gərəkdir. Aparılan müşahidə və tədqiqatlar göstərir ki, avarların əsrlər boyu birlikdə yaşadığı ərazi bənzərsiz məhəlli xüsusiyyətlərə malikdir. Azərbaycanın şimal-qərb bölgəsi etnoqrafik, tarixi cəhətdən, həm də siyasi cəhətdən çox böyük maraq doğuran bölgədir. Dünyamızda yaşayan hər bir etnos, xalq kimi, avarların da öz mənşəyini, əcdadlarının həyat tərzini, onun inkişaf mərhələlərini öyrənmək arzusu təbiidir, təqdirə layiq haldır.

Sovetlər Birliyi dağıldıqdan sonra xalqların öz tarixini, mədəniyyətini öyrənmək istəyi daha böyük vüsət aldı. Çünki çarizm və sovetlər dövründə bu mümkün deyildi. Azərbaycan Respublikası Konstitusiyasının 19-cu maddəsinə görə "hər kəsin milli mənsubiyyətini qoruyub saxlamaq hüququ vardır, heç kəs milli mənsubiyyətini dəyişdirməyə məcbur edilə bilməz, hər kəsin ana dilindən istifadə etmək hüququ vardır, hər kəsin istədiyi dildə tərbiyə və təhsil almaq, yaradıcılıqla məşğul olmaq hüququ vardır, heç kəs ana dilindən istifadə hüququndan məhrum edilə bilməz" (1, Azərb. Resp.-nın Konstitusiyası, s. 13, Bakı-Qanun, 48 səh.). 1803-cü ildə Car-Balakən camaatlığının Rusiya tərəfindən işğalından sonra, bölgə xalqları ümumi adla "dağlı", "ləzgi" adlandırılmışlar. Bu kiçik tədqiqat işində bizim məqsədimiz avarların etnik mənşəyini araşdırmaq deyil, avar mədəniyyətini, onun özünəməxsus cəhətlərini, o cümlədən avar dilini dərindən necə öyrənmək və necə qorumaq olar? - sualına cavab tapmaqdır. Qeyd etmək lazımdır ki, Azərbaycan avarları, eləcə də Dağıstan avarları ilə bağlı olan XIX əsrə aid məlumatlarda, xüsusilə bölgəyə göndərilmiş Rusiya general və zabitlərinin hərbi raportlarında bütün dağlı xalqlar "ləzgi" adı ilə göstərilir.

Qeyd edilən bu qüsura baxmayaraq, həmin sənədlərdə yazılı materiallarda avarların sosial-iqtisadi həyatında, məişətində baş verən dəyişikliklərlə bağlı olan məlumatlar çox maraqlıdır. Bu dövrə aid raport və sənədlərin çoxu Qafqaz Arxeoqrafiya Komissiyası tərəfindən toplanmış və 1866-1904-cü illərdə 12 cilddən ibarət toplu şəklində nəşr edilmişdir (Акты, собранные Кавказской Археографической Комиссией. Архив главного управления наместника Кавказа. Тт. Ы-ХЫЫ. Под редакцией А. Берже. Тифлис, 1866-1904.) Rusiyanın işğalından sonra bölgənin tarixini araşdırmaq istəyən M. A. Kotsebu 1826-cı ildə burada olmuş, buranın sakinləri, o cümlədən avarlar, avar kəndləri, avar icmaları haqqında maraqlı məlumatlar verib (3. Яшников Т. Н. Выдержки из описания лезгино-джарских вольных обществ. 1830 г. ИГЭД. М., Наука, 1958). XIX əsrdə Zaqatala dairəsində silki-tor-

paq komissiyasının üzvü olmuş A. İ. Fon-Pslotto bölgədə topladığı məlumatlar əsasında "Zaqatala dairəsinin təbiəti və əhalisi" adlı məqalə yazmışdır və burada avarlar haqqında da maraqlı məlumatlar var (4. Фон-Плотто А. Природа и люди Закатальского округа (ССКГ. Выпуск ЫВ. Тифлис, Изд-во Кавказского Городского Управления 1870, с. 1-62.). Bu dövrə aid olan bir neçə belə müəllifin raport və məlumatları, məqalələri vardır ki, onlarla tanış olarkən diqqətli olmaq lazımdır. Çünki bu müəlliflər yazdıqlarını Rusiyanın imperiya maraqlarına uyğun yazmağa, yerli xalqları "vəhşi" kimi qələmə verməyə çalışmışlar. Daha öncədən də qeyd etdiyimiz kimi, bu müəlliflər Rusiya imperatoruna yaltaqlanmaq, xoş görünmək üçün digər xalqları aşağılamağa çalışmışlar. Lakin biz deyə bilərik ki, bölgədə yaşayan xalqlar onilliklər boyu Rusiyaya, onun işğalçı siyasətinə qarşı birgə mübarizə aparmış və oxşar taleyi yaşamışlar. Birgə mübarizə apardıqları kimi, birgə mədəniyyət yaratmışlar. Hər biri öz fərdi xüsusiyyətlərini saxlamaqla, bir də bölgəyə məxsus mətbəx mədəniyyəti, oxşar adət-ənənələr yaratmışlar.

Tədqiqatımızın "Avar mədəniyyəti" adlı bölümündə bu barədə ətraflı bəhs edəcəyik. Mədəniyyət "Hər bir etnos özünəməxsus maddi mədəniyyət (yəni, əmək alətlərinin, məişət əşyalarının, silahların məcmuəsini) və mənəvi mədəniyyət (dünyagörüşü, incəsənətin forma və üslubu, keçmişin qorunması üsulu, bilgilərin qeydə alınması metodu: yazı, yaxud əməllərin şifahi təlimi - folklor) yaradır" (Гумилев Л. Н. Тысячелетие вокруг Каспия. Баку Азернешр, 1990, 312 ъ, ъ. 32). İlk növbədə evlərdən, evlərin quruluşundan bəhs etsək, daha doğru olar. Avar evləri yaşadığı dağlıq relyefə uyğun şəkildə inşa edilirdi: bəzi evin üstü, arxadakı evin həyəti olurdu. Kəndin, aulun sonundakı evlər qala divarını, qalanı xatırladırdı. Qəfil hücum zamanı, bu evlər səngərə çevrilirdi. Avarların xarakterindəki emosionallıq da, onların yaşadığı şəraitdən, oradakı mühitdən asılı olmuşdur. Evlərin divarında rəflər və orada gərəkli məişət əşyaları olurdu. Qabqacaq sadə və az idi (Hacı Vaqif Carullah oğlu. Azərbaycan avarları, Bakı, 2013,



Oka ofset, 208 səh, səh. 95). Geyimlər: Azərbaycandakı başqa etnoslarda olduğu kimi, avarlarda da geyimlər özündə etnik xüsusiyyətləri və hətta sosial fərqləri də əks etdirirdi. Araşdırıcılar avar qadın geyimlərini, xüsusilə toy-düyündə qız-gəlin geyimlərinin üzərindəki işləmələri bənzərsiz sənət nümunələri kimi qeyd edirdilər.

Avar qadınlarının baş örtüyünə və paltarına xüsusi sənətkarlıqla hazırlanmış gümüş bəzəklər (imarət bəzəyi) xüsusi yer tutur və çox yaraşıq verirdi. Avar qadınlarının bəzək kimi istifadə etdiyi əşyalar: " sırğa - "gilgol" " üzük - "baq", "baqic" " kəmər - "kamar" " qızıl kəmər - "macı kamar" " sinəbənd - "qazıyaxa" adlanırdı. Mətbəx: Avarların, o cümlədən Azərbaycan avarlarının yaşadıqları təbii-coğrafi şərait, sərt iqlim və sənət relyef onların həyatının bütün sahələrinə olduğu kimi, yeməklərinə də təsir etmişdir. Avarlar daha çox heyvandarlıqla məşğul olduqları üçün onların yemək rasionunda heyvan mənşəli qida və yeməklər üstünlük təşkil edir. Xəmir xörəkləri də avarların çox sevdiyi yeməklərdəndir. Avarların xinqal dediyi - xəmirin bir neçə çeşidi var: " "hanal xingal" - ət xəmirli " "micul xingal" - cicitkən (gicitkən) xəmirli " "qibxil xingal" - balqabaq xəmirli " "coroquyal xingal" - yarpaq xingal Maxara isə bölgənin bütün xalqlarının, o cümlədən avarların çox sevdiyi sac yeməyidir. Süd məhsullarından "maqaş" adlanan, bölgəyə xas ərzaq da avar süfrəsinin sevilən yeməyidir. Mənəvi mədəniyyət Şərqdə ilk demokratik respublikanın qurucusu olan Məhəmməd Əmin Rəsulzadə yazdığı "Milli birlik" adlı əsə-



rində göstərir ki, "... lisanları (dilləri), adətləri, tarixləri, dinləri, vətənləri və s. bir olan insanlar bir milliyyət təşkil edərlər"(M. Ə. Rəsulzadə. Milli birlik. Çıraq, 2009, 176 s., səh. 29). Etnoqrafların belə bir deyimi var: Hər nəsil özündən əvvəlki nəslin məhsulu və özündən sonra gələn nəslin müəllimidir.

1991-ci ilin sonunda Sovetlər Birliyinin dağılması etnosların özünüdərketmə və özünütanıtma meylləri daha da artırdı. Hər hansı bir xalqın etnik özünüdərkində etnosun yaşadığı ərazi mühüm rol oynayır, yəni etnosda "doğma torpaq" təsəvvürü təşəkkül tapır və bunun əhəmiyyəti getdikcə artır. Bura doğma dil və doğma mədəniyyət də əlavə olunduqda etnosun özünüdərki üçün vacib olan ünsürlər vəhdət halına gəlir, tam olur. Etnosun bu və ya digər uğuru milli qürur hissi doğurur, onun hər hansı uğursuzluğu isə dərin kədər yaradır. Bunları nəzərə alaraq, Azərbaycan avarlarının etnik mənşəyi ilə bağlı məsələlərlə yanaşı, onların maddi və mənəvi mədəniyyətini də araşdırmağa çalışmışıq. Balakən-Zaqatala bölgəsində avarlar arasında müxtəlif təbiət cisimlərinə (dağa, daşa, suya və s.), ağaclara və s. qədim inancların izləri hələ də qalmaqdadır. Bu onu göstərir ki, avarlar özlərini təbiətin bir parçası hesab edir... Avar nağıl və əfsanələrinin əsas mövzusu qəhrəmanlıq, el-obaya məhəbbət, düşmənə qarşı mübarizədir.

Nadir şah Əfşarın (1736-1747) və onun qardaşı İbrahim xanın etdiyi yürüşlərə həsr olunmuş rəvayətlər, zərb-məsəllər də avar əhalisi arasında geniş yayılmışdır. Doğrudur, həmin rəvayətlərdə tarixi hadisələr bəzən təhrif edilir və yaxud bəzi hadisələr həddindən artıq şişirdilir. Avarların mədəniyyətini, mənəvi dünyasını öyrənmək üçün bu cür nağıl və rəvayətlər bir mənbə rolu oynayır. Dağıstanda və Balakən-Zaqatala bölgəsində yaşayan avarlar arasında Şeyx Şamilin rus işğalına qarşı apardığı mübarizəyə həsr olunmuş rəvayətlər çox geniş yayılmışdır. Bəzən bu rəvayətlər qədim musiqi aləti olan təmburla (avarlar - dambur deyir) müşayiət edilir. Təmburla oxunan mahnılara Balakəndə "hayla" deyilir. Bu cür haylalar avarların fikir dünyasını, həyat tərzini, qaynayıb-qarışdıqları Azərbaycan türklərinə mehriban, doğma münasibəti görmək olar:

Dağıstanın yolları,
Burma-burma yolları.
Gəldiyinizi bilsəydim,
Süpürərdim yolları.
O qızın ağ şalı var,
Ağ şala oxşarı var.
Özü avar balası,
Muğala oxşarı var.

Və yaxud tərsinə də oxunur:

Özü muğal balası,
Avara oxşarı var.
Muxax başı Çardaxlar,
Su dolduran bardaqlar.
Bir-bir yadıma düşər,
O gidi, keçən vaxtlar.

Muxax və Yuxarı Çardaxlar Zaqatala rayonunda dağətəyi kəndlərdir. Bu kəndlərdə avarlar və saxurlar yaşayırlar. Azərbaycanın şimal-qərb bölgəsində, Balakən və Zaqatala rayonlarında yaşayan avarlar Azərbaycan türkləri ilə elə qaynayıb-qarışmışlar ki, hətta şifahi xalq ədəbiyyatının bu yerli növü olan haylaların avar və yaxud türklər tərəfindən yaradıldığını, bəzən hətta ifa olunduğunu çox çətinliklə ayırmaq olur. Bölgədə yaranan folklor nümunələri bölgə insanlarının, cümlədən bölgədə yaşayan avarların sevincini və kədərini, dünyagörüşünü əks etdirirdi. Bu cür folklor nümunələri Rusiyanın bölgəni işğal etməsindən sonra da yaranır və həmin dövrün siyasi ab-havasını əks etdirirdi. Aşağıdakı folklor nümunəsi buna en gözəl nümunədir:

Buralar şər-şəpərdi,
Şuralar min nəfərdi.
Mürşiddən xəbər alın,
Müridlər nə təhərdi?

Burada "şuralar" dedikdə bolşeviklər, sovet hökuməti və onun dinsiz əsgərləri nəzərdə tutulurdu. "Mürşiddən xəbər alın / Müridlər nə təhərdi?" dedikdə bölgədə Rusiya işğalına qarşı mübarizədə ideoloji silaha çevrilən və insanları mübarizəyə səfərbər edən Nəqşbəndilik, ondan nəşət edən "Müridizm", bu hərəkatda öndər olan mürşid (müəllim) və onun davamçıları olan müridlər nəzərdə tutulur. Bayramlar Balakən-Zaqatala bölgəsində avarların mənəvi mədəniyyəti bölgədə yaşayan digər xalqların mədəniyyəti ilə qarşılıqlı əlaqədə formalaşmışdır.

Ən geniş yayılan bayramlar avarların "şəriətul qudabqo"dur (şəriət bayramları, yəni dini bayramlar). Bu bayramlar: 1. Qurban bayramı 2. Orucluq (Ramazan bayramı) 3. Mövlud bayramıdır "Qalxurabqo" adlanan Orucluq bayramı Azərbaycan avarlarının ən hörmətli bayramıdır. Bu bayram ərəfəsində və başa çatanda avarlar arasında xüsusi hazırlıq görülür. Adətən, Orucluq bayramı ərəfəsində sübhədək heç kəs yatmaz və sabahadək müxtəlif lətifə və əhvalatlar söyləyər. Hörmət əlaməti olaraq oruc tutan ağsaqqalları hər axşam bir evə qonaq dəvət edər, ona ehtiram göstərərdilər. Orucluğun başa çatması daha möhtəşəm, daha təntənəli keçirilərdi (Bu adət bu gün də qalmaqdadır). Həmin bayram günü səhərdən hər evdə (qudabqoysu süfrə) açılardı. Süfrəyə plovdan tutmuş hər cür xörəklər, cürbəcür meyvə quruları qoyulardı. Bölgədəki bütün xalqlar, xüsusilə avarlar son dərəcə qonaqpərvərdirlər. Mövlud Bayramında isə Böyük sufi şairi Yunus Əmrənin Allahın və Məhəmməd peyğəmbərin vəsfinə (tərifinə) həsr olunmuş şeirləri - ilahiləri oxunur.

Bəzən bu "ilahilər" avar dilində oxunur, yaxud buna bənzərləri yazılaraq oxunurdu. Mövlud Məclisi - Məhəmməd peyğəmbərin dünyaya gəlişi şərəfinə təşkil olunan dini-fəlsəfi bir məclisdir ki, burada yeniyetmə və gənclərə bir çox tövsiyələr verilərdi. El adətləri Avarlar arasında "Qahi" adlanan el köməyi - iməcilik çox geniş yayılmışdır və onun kökləri çox qədim dövrə - hətta ibtidai icma dövrünə gedib çıxır. Avarlar arasında qədimdən bəri yaşayan ənənələrdən, adətlərdən biri də "qahi" - iməcilikdir. "Qahi" avarların bir-birinə, qohumlara və qonşulara təsərrüfat işlərində (ev, dam, hasar tikintisində...) göstərilən təmənnasız köməkdir.

Tədqiqatçıların topladığı materialların təhlili göstərir ki, iməcilik əslində el yardımı olmaqdan əlavə, həm də xalq əyləncəsinin keçirilməsi üçün bir vasitə olmuşdur. Iməcilik - "qahi" adəti Azərbaycan türklərində olduğu kimi avarlar arasında da yaşadılmış və nəsildən-nəsilə ötürülmüş, bu gün də öz mahiyyətini itirməmişdir. (Məmmədli A. Balakən-Zaqatala bölgəsi: tarixi, etnoqrafiyası. Bakı, Adiloğlu nəşr. 2001. 146 s., s.31) Nəticə etibarı ilə oxuculara təqdim olunan bu məqalədə avarların etnik-siyasi tarixi, maddi və mənəvi mədəniyyəti nəzərdən keçirilmiş, etnoqrafik materiallar təhlil edilmiş və maraqlı nəticələr əldə edilmişdir. Etnoqrafik materiallar toplanarkən, habelə Azərbaycan avarlarının etnoqrafiyası araşdırılarkən onlarla digər etnoslar arasındakı etnomədəni əlaqələr də diqqətdə saxlanmışdır. Müxtəlif xalqların mədəniyyətində oxşar cəhətlər çoxdur, lakin həmin cəhətlər, eyni zamanda bir çox cəhətdən fərdi bənzərsiz xüsusiyyətlərlə seçilir. Bu cəhətlər etnik xüsusiyyətlərdə, milli xarakterdə, xalqın mentalitetində (düşüncə tərzində) tam aydınlığı ilə əks olunur.

Ədəbiyyat:

1. *Azərbaycan Respublikasının Konstitusiyası, Bakı - Qanun, 1998, 48 s.*
2. *Акты собранные Кавказской Археографической Комиссией. Архив главного управления наместника Кавказа. Тт. Ы-ХЫЫ. Под редакцией А. Берже. Тифлис, 1866-1904.*
3. *Яшников Т. Н. Выдержки из описания лезгино-джарских вольных обществ. 1830 г. ИГЭД. Москва, Наука, 1958.*
4. *Фон-Плотто А. Природа и люди Закатальского округа. ССКГ. Выпуск ЫВ. Тифлис. Изд-во Кавказского Городского Управления, 1870, с. 1-62.*
5. *Məmmədli A. Balakən-Zaqatala bölgəsi: tarixi, etnoqrafiyası. Bakı, Adiloğlu, 2001, 146 s.*



Sadıx NƏBİYEV
AMEA Rəyasət Heyəti aparatının elmi katibi

Azərbaycan haqqında ilk turizm reklam nəşrləri


Müasir Azərbaycan dünyada yalnız neftlə zəngin bir məkan kimi deyil, həm də unikal tarixi-memarlıq və təbiət abidələrinə, zəngin mədəni irsə, ləzzətli mətbəxə və müasir turizm infrastrukturuna malik maraqlı turizm məkanı kimi tanınır. KOVİD-19 pandemiyasından əvvəlki 2019-cu ildə Azərbaycana dünyanın 193 ölkəsindən rekord sayda - 3,17 milyon turist gəlmişdi[1] və Prezident İlham Əliyevin 2026-cı il 20 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında turizmin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nda bu göstəricinin yaxın illərdə aşılması hədəflənir"[2].

Sirr deyil ki, Azərbaycanın əsas turizm məkanı Bakıdır. Paytaxt həm ölkənin əsas girişi və nəqliyyat qovşağı, həm də mədəniyyət, elm, biznes və əyləncə mərkəzidir. Azərbaycana gələn turistlərin 82,5 faizinin səyahəti Bakı ilə məhdudlaşır, otel və mehmanxanalarda gecələmələrin, ümumi turizm dövriyyəsinin 65%-dən çoxu Bakı şəhərində qeydə alınır.

Bakının turizm mərkəzinə çevrilməsi prosesi XIX əsrin II yarısında, neft bumu ilə paralel başlayıb. Neft sənayesinin sürətli inkişafı nəticəsində dünyanın hər yerindən bankirlər və sığortaçılar, maklerlər və tacirlər, səhm alverçiləri və brokerlər, neft biznesi sahibləri, onlara xidmət göstərən mühəndislər, geoloqlar, mexaniklər, mühasiblər, xarici mətbuat nümayəndələri, otel və restoran sahibləri, bunların mühafizəçiləri, məşhur sənət adamları, pul iyinə yığışan minlərlə macəraçı və avantüristlər (turistlərlə qarışıq salmayın!) bura axışırdı. Və bu insanları yerləşdirmək üçün Rusiya imperiyasının ən varlı şəhərlərindən birinə çevrilmiş Bakıda sürətlə otellər və yaşayış binaları tikilirdi.

Həmin dövrdə inşa olunmuş "İmperial", "Astoriya", "Qafqaz", "Ermitaj", "Marsel" və digər dəbdəbəli hotellərdən bəziləri, profilini dəyişmiş şəkildə olsa da, hələ də mövcuddur. Hazırda Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin yerləşdiyi, 1860-cı illərdə memar Qasım bəy Hacıbabəyovun inşa etdiyi "Metropol" mühmanxanası, Fəvvarələr meydanında indi ticarət obyektlərinin yerləşdiyi, zamanında isə kimyaçı Dmitriy Mendeleyevin (1886) və yazıçı Anton Çexovun (1889) yaşadığı, 1886-cı ildə memar Evqeniy Skibinskinin layihəsi əsasında inşa edilmiş gözqamaşdırıcı "Grand-Hotel" belə binalardandır. 1913-cü ildə neft milyonçusu Musa Nağıyevin sifarişi ilə memar İosif Ploşkonun inşa etdiyi, vaxtilə Bakının qonaqları - şair Sergey Yeseninin (1924) və yazıçı Teodor Drayzerin (1927) müsafir olduğu "Yeni Avropa" oteli Bakının ilk 7-mərtəbəli binası idi. Hazırda "Lukoyl" şirkətinin ofisinin yerləşdiyi bu mehmanxanada 1950-ci ildə bir-neçə ay Naxçıvandan Bakıya işə gəlmiş, lakin hələ mənzillə təmin edilməmiş gələcək Azərbaycan Prezidenti Heydər Əliyev yaşayıb[3].

Bu mövzuya toxunarkən Bakının mərkəzinin memarlıq simasını müəyyən etmiş bu və digər binalar haqqında bədii əsər kimi maraqla oxunan dərin elmi tədqiqatların - "XIX-XX əsrin əvvəl-



ləri Bakının şəhərsalma memarlığı"(1978)", "XIX-XX əsrin əvvəlləri Azərbaycanın şəhərsalma və memarlığı (1986), "Bakının Memarlıq Ensiklopediyası" (1998), "Abşeron memarlığı"(2003) kitablarının müəllifi, Azərbaycan memarlığı və şəhərsalma tarixi üzrə görkəmli alim, akademik Şamil Fətullayevin (1928-2015) xatirəsini yad etməyi özümə borc bilirəm.

Məlum olduğu kimi, Azərbaycanda mütəşəkkil və kütləvi turizm əsasən XX əsrin əvvəllərindən inkişaf etməyə başlayıb. Bakıda fəaliyyət göstərmiş ilk turizm şirkəti - Rusiya imperiyasının ilk rəsmi turizm şirkəti olan "Krım-Qafqaz Dağ Klubu"nun Bakı şöbəsi 1908-ci ildə açılmışdı4. 1910-cu ildən etibarən "Rusiya turizm cəmiyyəti", 1929-cu ildən isə "Sovet Turisti" səhmdar cəmiyyəti Qafqaza, o cümlədən Azərbaycana fərdi səfərlər təşkil etməyə başlamışdılar. Sırf siyasi xarakter daşısa da, 1920-ci ilin sentyabrında Bakıda keçirilmiş və 2000-dən çox (!) xarici qonağın iştirak etdiyi "Şərq xalqlarının 1-ci Qurultayı" da xarici mətbuatda respublika haqqında müxtəlif məqalə, xəbər və fotoların nəşrinə, müvafiq olaraq, belə bir məqsəd qoyulmasa da, beynəlxalq marağın artmasına xidmət etmişdi. Bakıya gəlmiş ilk mütəşəkkil turist dəstəsi - 1927-ci ildə Almaniyadan gəlmiş 10 nəfərlik qrup olub.

Bakının maraqlı görüntülərinin əks olunduğu ilk poçt açıqçaları 1896-cı ilə aiddir. XIX əsrin sonu - XX əsrin əvvəlində Bakıya, onun tarixi abidələrinə, memarlığına, neft sənayesinə aid böyük maraq kəsb edən yüzlələ poçt açıqçası buraxılmışdı. İçərişəhər, Qız qalası, Şirvanşahlar sarayı, mərkəzi küçələr və şəhər parkları5, Bibiheybət, Balaxanı və Suraxanıdakı neft mədənləri, "Qara şəhər"dəki neft zavodları kimi orijinal şəhər təsvirləri ilə yanaşı, yerli əhalinin geyimləri, məscid və mədrəsələr, çayxana və bazarlar, koloritli milli tipajlar da poçt kartlarının əsas mövzularından idi6.

Bakı haqqında 1932-1933-cü illərdə nəşr edilmiş ilk reklam açıqça dəsti şəhərin memarlıq abidələrinin öyrənilməsi baxımdan çox maraqlıdır. Məsələn, bu dəstdəki açıqcalardan birində hazırda AMEA Rəyasət Heyətinin yerləşdiyi məhşur "İsmailiyyə" binasının "Türk mədəniyyət sarayı", Azərbaycan Dövlət Filarmoniyasının binasının isə "Müdafiə evi" adlandırılması diqqəti cəlb edir.

Bakı haqqında ilk plakat xarakterli əsər ötən əsrin 20-ci illərində Almaniyadan "fəhlə-kəndli inqilabının vətəni" SSRİ-yə emiqrasiya etmiş, 1941-ci ildə faşist Almaniyası SSRİ-yə hücum edəndə isə SSRİ hökuməti tərəfindən Qazaxıstana sürgün edilərək Qaraqandı çöllərində həlak olmuş alman modernist rəssamı Henrix Vogelerin (1872-1942) "Bakı" plakat əsəridir (1927)7. Hazırda Berlin Milli Qalereyasında, Berggruen Muzeyində saxlanılan bu əsərdə o, Azərbaycana səfərindən aldığı təəssüratları "sosializm quruculuğu obrazları"nda, mozaik stildə sintez etmişdi8.

Xarici turistləri "sosializmin nailiyyətləri" ilə tanış etmək, onlarda sosializmə rəğbət oyatmaq, "dünya inqilabı" ideyasını şüurlara yeritmək, və eyni zamanda, bu ideyaları həyata keçirmək üçün ölkəyə valyuta qazandırmaq məqsədilə SSRİ-də 1929-cu ildə 35 milyon rubl nizamnamə kapitalı ilə "İnturist" Ümumittifaq səhmdar cəmiyyəti yaradılmış, ölkənin ən gözəl mehmanxanaları, ən say-seçmə restoranları, mövcud olan bütün yük-








sək keyfiyyətli nəqliyyat vasitələri "İnturist"in sərəncamına verilmişdi. Elə həmin məqsədlə 1930-cu ildə SSRİ-də xarici vətəndaşlara xidmət göstərən "Torqsin" mağazalar şəbəkəsi də (belə mağazalardan biri Mixail Bulqakovun məşhur "Master və Marqarita" romanında təsvir edilir) yaradılmışdı. SSRİ-də 1930-cu illərdə kənd təsərrüfatı ilə bağlı səhv siyasət, naşı rəhbərlik, zorakı kolxoz quruculuğu və "qolçomaqla mübarizə"nin (yəqin ki, "Axırıncı aşırım" filmində Kərbəlayı İsmayılın evində kolxoz sədri İmanın si-



lahlı əsgərlərlə taxıl axtarması səhnəsini xatırlayırsınız) nəticəsi kimi Ukraynada, Belarusda, Qazaxısatnda, Şimali Qafqazda, Uralda, Rusiyanın Volqaboyu və qaratorpaq ərazilərində milyonlarla insanın həlak olduğu dəhşətli aclıq illərində bu şəbəkənin mağazalarında xarici vətəndaşlarla yanaşı, yerlilər də xarici valyuta və ya çəki ilə qızıl, gümüş, qiymətli qaş-daş, zərgərlik əşyaları və antikvariat ilə hesablaşaraq üç-beş dəfə yüksək qiymətə ərzaq məhsulları və istehlak malları ala bilərdilər. Nəticədə "Torqsin" beş il ərzində dövlətə 280 milyon qızıl rubl qazandırmış, 222 ton qızıl toplamışdı[9].

Bakı haqqında növbəti reklam-plakat xarakterli əsərlər sovet turizminin təbliği məqsədilə yaradılmışdı[10]. Turistləri cəlb etmək üçün yuxarıda haqqında danışdığımız "İnturist" ötən əsrin 30-cu illərində xarici ölkələrdə geniş reklam kampaniyası aparmağa, SSRİ-nin görməli məkanlarını əks etdirən plakatlar nəşr edib yaymağa başlamışdı. Sovetlər üçün görünməmiş yüksək keyfiyyətlə çap edilən bu plakatlar SSRİ-yə səyahətin necə cazibədar olduğunu nümayiş etdirmək üçün hazırlanmışdı və sonralar da, onilliklər boyu SSRİ-nin xarici nümayəndəliklərini, turizm agentliklərini, beynəlxalq hava limanlarını, otel foyelərini, beynəlxalq qatar vaqonlarını bəzəyərək sovet turizm sənayesinin əsas simvoluna çevrilmişdilər.

"Vneştorqizdat" (Xarici ticarət nəşriyyatı) tərəfindən cəmi 38 belə plakatın nəşr edildiyi dəqiq məlumdur. Plakatların yaranmasına o zamanın ən istedadlı, müasir baxışlı sovet rəssamları cəlb olunmuşdular. Təsadüfi deyil ki, hazırda kolleksiyaçılar tərəfindən yüksək qiymətləndiri-









lən bu plakatlar Fransada, Böyük Britaniyada, ABŞ-da, hətta Christies i Swann incəsənət auksionlarında dəfələrlə satışa çıxarılıblar.

Həmin plakatlardan ikisində Bakı buxtası, neft buruqları, şəhərin dənizdən görüntüsü əks olunub. Dünyada ilk dəfə sənaye üsulu ilə neft çıxarılmasında istifadə edilmiş Bakıdakı ilk neft buruğunun rezervuarlar fonunda əksi olan plakat xüsusilə qiymətli sayılır[11]. Həmin plakatların müəllifləri - sovet reklam sənətinin banisi sayılan Sergey İqumnov və Mariya Nesterovadır. Bakı haqqında plakatlar 1936-cı ilin may ayında Praqada keçirilmiş Beynəlxalq ticarət, sənaye, turizm və idman plakatları sərgisində nümayiş etdirilmiş və uğur qazanmışdılar. Qonaqları Sovet İttifaqına səfərə çağıran digər bir plakatda isə bir tərəfdə Moskva Kremli və Leninin mavzoleyi əks olunmuş, digər tərəfdə isə Şərqi simvolizə edən element kimi Bakıdakı Sabunçu dəmiryolu vağzalının təsvirindən istifadə edilmişdir[12].

1937-ci ildə buraxılmış və qatarın pəncərəsindən Bakı neft mədənlərini seyr edən qadının təsvir olunduğu daha bir reklam plakatında (rəssamlar Nikolay Jukov və Avenir Çernomordik) Şepetovka (Ukrayna)-Moskva-Bakı-Culfa-Tehran qatarı ilə səyahət "İranla Şərqi Avropa arasında ən qısa, ən ucuz və ən rahat dəmir yolu marşrutu" kimi reklam edilirdi[13].

Təəssüf ki, əvvəl II Dünya müharibəsi, daha sonra dünyanı iki cəbhəyə parçalamış "soyuq müharibə" və "dəmir pərdə" uzun illər SSRİ-də turizm plakatı janrının inkişafını ləngitmiş, rəssamları bu janrda çalışmağa sövq etməmişdir. Yalnız XX əsrin 70-80-ci illərində bu janra maraq yenidən bərpa olunmuş, sovet respublikalarında turizmlə əlaqədar bir sıra maraqlı əsərlər əmələ gəlmişdir. Azərbaycan plakatında bu sahədə işlər arasında Xalq rəssamı Arif Əzizin "İnturisit"in sifarişi ilə hazırladığı, rəngarəngliyi və lakonikliyi ilə diqqəti cəlb edən "Azərbaycana gəlin" silsilə plakatları diqqəti cəlb edir[14]. ●

Ədəbiyyat

1. https://tourism.gov.az/uploads/documents/statistic/+annual_tourism_statistics_2020_final.pdf
2. https://president.az/az/articles/view/73307
3. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "LUKoyl" Rusiya neft şirkətinin yeni ofisinin açılışı mərasimində nitqi. 3 oktyabr 1999-cu il. "Бакинский рабочий" qəzeti. 5 oktyabr 1999-cu il.
4. https://ru.wikipedia.org/wiki/Krımsko-Kavkazskiy_qornıy_klub
5. https://commons.wikimedia.org/wiki/Category:Postcards_of_Baku
6. https://azerhistory.com/?p=11568 ; https://azerhistory.com/?p=11620
7. https://gallerix.ru/storeroom/226892/N/1883/
8. https://daz.asia/ru/genrih-fogeler-tragicheskaya-sudba-ge/
9. Osokina E.A. Zoloto dlə industrializaüii: Torqsin. M. ROSSPGN. 2009.
10. https://yarodom.livejournal.com/844581.html
11. https://www.facebook.com/sovietvisuals/posts/baku-soviet-travel-poster-1930s/2892911217441770/
12. https://dzen.ru/a/WtUIQleQar2d7JwG
13. https://awdee.ru/soviet-posters-and-printed-materials-of-intourist/
14. İbrahimov Telman. Azərbaycanda plakat sənəti. Bakı.2004. s.14. https://www.academia.edu/29010979/%C4%B0brahimov_Telman_AZ%C6%8FRBAYCANDA_PLAKAT_S%C6%8FN%C6%8FT%C4%B0

Ürək xəstələri üçün YENİ ÜMİD: Tibbdə tarixi addım atıldı

Yaponiyada ilk dəfə olaraq standart klinik təcrübə çərçivəsində "iPS" kök hüceyrələrindən yetişdirilmiş "ürək plastırı" pasiyentə transplantasiya edilib. Bu barədə ölkənin "Asahi Shimbun" qəzeti məlumat yayıb.



Osaka xəstəxanasında baş tutan cərrahi müdaxilə 50 dəqiqə davam edib. Əməliyyat olunan şəxs miokard infarktı nəticəsində ağır ürək çatışmazlığından əziyyət çəkən, Kanaqava prefekturasından olan təxminən 50 yaşlı qadındır. Bu cür "ürək yamaları"nın tətbiqi əvvəllər də həyata keçirilib, lakin proses yalnız klinik sınaqlar səviyyəsində olub. Belə ki, 2020-ci ilin yanvar ayında Osaka Universitetində "iPS" hüceyrələri əsasında əldə edilmiş ürək əzələsi hüceyrələrindən ibarət təbəqə xəstəyə köçürülmüşdü. Nəşrin məlumatına görə, bu tibbi vasitə "RiHEART" adlanır. Söhbət iPS hüceyrələrindən yaradılmış ürək əzələsi hüceyrələrindən ibarət nazik "plastır"dan gedir. Zədələnmiş ürək toxumasının bərpasına dəstək olmaq məqsədilə o, birbaşa orqanın üzərinə yerləşdirilir. "RiHEART" işemik kardiomiopatiyanın ağır formasından əziyyət çəkən xəstələr üçün nəzərdə tutulub. Hüceyrələrdən ibarət "yamaq" bilavasitə ürəyin səthinə tətbiq edilir. Onun əsas vəzifəsi yeni qan damarlarının yaranmasına kömək etmək və ürək əzələsinin fəaliyyətini dəstəkləməkdir", - deyə materialda bildirilib.

İşemik kardiomiopatiya qan və oksigen axınının yetərsizliyi səbəbindən ürək əzələsinin zəifləməsidir. Bu hal əsasən infarktdan sonra və ya koronar arteriyaların zədələnməsi zamanı müşahidə olunur.

D3 vitamini və maqnezium - Kombinasiya beyin sağlamlığına necə təsir edir?

D3 vitamini və maqnezium orqanizmdə bir sıra mühüm proseslərdə iştirak edir. Lakin "maqnezium olmadan D3 aktivləşmir və beyinə çatmır" kimi iddialar elmi baxımdan bu qədər qəti deyil.



Maqnezium D vitamininin metabolizmində iştirak edən fermentlərin normal fəaliyyəti üçün vacibdir. Bununla belə, D3 vitamininin təsir göstərməsi üçün mütləq şəkildə əlavə maqnezium qəbul edilməli olduğu və ya D3-ün maqnezium olmadan beyinə çatmadığı barədə kifayət qədər sübut yoxdur.

Mətndə qeyd olunan D3 + maqnezium kombinasiyasının BDNF səviyyəsini 30 faiz artırması, həmçinin depressiyadan əziyyət çəkən qadınların 68 faizində hər iki maddənin çatışmazlığının aşkarlanması ilə bağlı iddialar da mənbə göstərilmədən təqdim olunub və ehtiyatla qiymətləndirilməlidir. Maqneziumun sinir sistemi və əzələlərin normal fəaliyyəti, yuxu və stresslə bağlı proseslərdə rolu məlumdur. D vitamininin isə sümük sağlamlığı, immun sistem və digər fizioloji proseslərdə mühüm funksiyaları var.

D3 vitamini üçün 2000-4000 BV, maqnezium üçün isə 300-400 mq-lıq gündəlik dozaların hər kəs üçün optimal olduğu qənaətinə gəlmək düzgün deyil. Doza fərdi ehtiyacdan, qida-

lanmadan, qan analizlərindən, yaşdan və digər sağlamlıq amillərindən asılıdır.

Bu səbəbdən D3 və ya maqnezium əlavələrini yüksək dozada qəbul etməzdən əvvəl həkimlə məsləhətləşmək və ehtiyac olduqda müvafiq analizlər aparmaq daha məqsədəuyğundur.

Qan təzyiqini ölçərkən bu səhvləri etməyin: Nəticəni dəyişdirir

"Qan təzyiqinin ölçülməsi zamanı düzgün texnikaya əməl edilməməsi nəticələrin təhrif olunmasına gətirib çıxara bilər". Xəbəri RT-yə rusiyalı həkim-kardioloq Yekaterina Paukova deyib.



"Nəticəyə təsir edə biləcək, tez-tez rast gəlinən, lakin o qədər də nəzərə çarpmayan səhvlərə aşağıdakılar aiddir: ölçmədən əvvəl istirahət etməmək, bədənin yanlış vəziyyətdə olması, ölçmə zamanı danışmaq, prosedurdan əvvəl kofeinli içkilər qəbul etmək və siqaret çəkmək", - deyə mütəxəssis bildirib. Mümkün qədər dəqiq nəticə əldə etmək üçün həkim prosedurdan 30 dəqiqə əvvəl siqaret çəkməməyi, qəhvə və tərkibində kofein olan digər içkilərdən imtina etməyi tövsiyə edib. "Ölçmə zamanı sidik kisəsi və bağırsaqların boşaldılmasına ehtiyac olmamalıdır. Ölçmədən əvvəl stulda oturmaq və kürəyi ona söykəmək, ayaqları çarpazlamadan yerə qoymaq, manjetli qolu isə ürək səviyyəsində masanın üzərinə yerləşdirmək lazımdır. Bu vəziyyətdə təxminən beş dəqiqə sakit oturmaq, yalnız bundan sonra ölçməyə başlamaq tələb olunur. Prosedur zamanı danışmaq olmaz", - deyə kardioloq əlavə edib. Bildirilir ki, qan təzyiqinin təxminən bir dəqiqə fasilə ilə iki dəfə ölçülməsi məsləhət görülür. "Əldə olunan nəticələrin orta göstəricisi özünənəzarət gündəliyinə və ya xüsusi mobil tətbiqə yazılmalıdır. Nəzərə almaq lazımdır ki, ilk dəfə təzyiq hər iki qolda ölçülməli, sonrakı nəzarət üçün isə göstəricilərin daha yüksək olduğu qoldan istifadə edilməlidir", - deyə həkim fikrini yekunlaşdırıb.

Təsadüfən aşkarlanan təhlükə: Nodulyar qastrit nədir və necə müalicə olunur?

Nodulyar qastrit mədənin daxili selikli qişasında xırda düyüncüklər və qabarcıqlar şəklində meydana çıxan xroniki iltihabi dəyişikliklərdən biridir. Bu patologiya əksər hallarda uzun müddət heç bir xarakterik əlamət göstərmədən inkişaf etdiyi üçün adətən başqa səbəblərlə aparılan endoskopik (qastroskopiya) müayinə zamanı təsadüfən aşkarlanır.

Xəbər verir ki, bəzi pasiyentlərdə xəstəlik epiqastral nahiyədə diskomfort və ağrı, qarında şişkinlik, köp, ürəkbulanma, tez doyma hissi və ümumi həzm pozğunluğu kimi klinik şikayətlərlə özünü büruzə verir.

Nodulyar qastritin yaranmasında ən başlıca amillərdən biri Helicobacter pylori bakteriyası olduğundan, xəstəliyin vaxtında və dəqiq diaqnostikası selikli qişanın daha dərin struktur zədələnmələrinin qarşısının alınmasında mühüm əhəmiyyət kəsb edir.

Erkən mərhələdə aşkarlanan iltihabın kök səbəbinin düzgün müəyyənləşdirilməsi və buna uyğun fərdi dərman terapiyasının tətbiqi mədə selikli qişasının tam bərpasına və müalicənin uğurla nəticələnməsinə birbaşa zəmin yaradır. Bu səbəbdən həzm sistemində mütəmadi narahatlıq hiss edən şəxslərin vaxt itirmədən qastroenteroloq müayinəsindən keçməsi sağlamlığın qorunması baxımından vacibdir.

BƏLƏDÇİ

NOBEL MÜKAFATI LAUREATI ƏZİZ SƏNCƏR - 80

İsa Həbibbəyli - Dünya elminin,
türk dünyasının və Azərbaycanın Əziz Sənçəri.... 3

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR

Fuad Əliyev, Aynurə Həsənova - Qarabağın və Şərqi Zəngəzurun dirçəlişi:
istiqlalımızın memarlıq zəfəri 12

AKTUAL

Coşqun Məmmədov - Orta dəhliz: Azərbaycanın artan tranzit gücü 16

TÜRK DÜNYASI

Afaq Ramazanova - Birinci Türkoloji Qurultayın 100 illiyi kontekstində
Altayşünaslıq: folklorşünaslıq baxımından problemlər və perspektivlər 21
Orxan İsayev - Türkmanların Suriyada yerləşməsi və türkman yurdları 25

DÜNYA ELM ALƏMİNDƏ 28

FİLOLOGİYA

Əzizağa Nəcəfzadə - Qasim bəy Zakir və Şuşa 30
Gülnar Qasımlı - 65 yaşlı "Elm və həyat" jurnalında ədəbiyyatın yeri 35

TARİX

İlqar Niftəliyev - Bakıda ermənilərin məskunlaşdırılması və
şəhərin etnik tərkibinin dəyişməsi *(XIX əsr - XX əsrin əvvəlləri)* 39
İlhami Cəfərsoy - Prototürk Bizans dövləti 44

MEMARLIQ VƏ İNCƏSƏNƏT

Yaşar Rəhimov - Əcəmi Naxçıvaninin ilk məlum abidəsi -
Yusif Küseyir oğlu türbəsi 49
Rizvan Qarabağlı - Müasir şəhərsalma və
memarlıqda klassik ənənə və modernləşmə 55

Samirə Mir-Bağırzadə - Qədim dövr və orta əsrlər
memarlıq və incəsənətin qısa tarixi 57
Qorxmaz Əlilicanzadə - Azərbaycan musiqisində aranjiman problemi 61
Райха Аменэаде - Мавзолей ученого и мыслителя,
суфия Сейида Яхьи Бакуви 64

MERİDİAN 66

YUBİLEY
Lütviyyə Əsgərzadə - Əbdülkərim ağa Qayıbovun
"İslam təqvimi"nin riyazi metodologiyası 68
Təranə Tağı-zadə - Azərbaycan pediatriyasının memarı 70
Səbuhi Qəhrəmanov - İnformasiya və biliyə xidmət edən ömür 75

MƏDƏNİYYƏT VƏ TURİZM
Şahvələd Əliyev - Samux rayonunun mədəni irsi, turizm-rekreasiya
ehtiyatlari, onlardan səmərəli istifadə yolları və toponimləri 80
Akif Məmmədli, Həbib Ramazanzadə -
Azərbaycanda yaşayan avarlar: mədəniyyəti, adət-ənənələri 84

MARAQ DÜNYASI
Sadıx Nəbiyev - Azərbaycan haqqında ilk turizm reklam nəşrləri 88

SAĞLAMLIQ 92

Redaksiyaya göndərilən məqalələrə dair tələblər

1. Məqalələr redaksiyaya həm kağız, həm də elektron formada təqdim olunmalıdır;
2. Məqalələrin əvvəlində müəlliflərin soyadı, adı, atasının adı, elmi dərəcəsi, elmi rütbəsi, iş yeri, vəzifəsi, telefon nömrəsi, elektron ünvanı göstərilməlidir;
3. Material və ona aid şəkillər (şəkillər ayrıca fayl olaraq, böyük ölçüdə) redaksiyanın elektron ünvanına göndərilməli, yaxud da disk və ya yaddaş kartı ilə təqdim edilməlidir;
4. Məqalələr elmi-populyar janrda, Azərbaycan, rus və ingilis dillərindən birində təqdim olunmalıdır;
5. Məqalələr Microsoft Word mətn redaktorunda A4 formatında, TimesNew Roman şrifti ilə 14 pt ölçüdə, 1.5 intervalda işlənilməli, həcmi 4 səhifədən artıq olmamalıdır (məqaləyə aid şəkillər və müəllifin şəkli əlavə edilməlidir);
6. Təqdim olunmuş materiallarda səhifələr, cədvəl və şəkillər nömrələnməlidir;
7. Ədəbiyyat siyahısı verildikdə hər bir istinad olunan mənbənin adı tərcümə olunmadan, məqalədə istifadə olunma ardıcıllığına uyğun olaraq nömrələnməlidir;
8. Məqalələrdə göstərilən məlumat və faktlara görə redaksiya məsuliyyət daşımır;
9. Redaksiyaya daxil olan məqalələr rəyə təqdim edilir və müsbət rəy almış yazılar çapa tövsiyə olunur. Əlyazmalar geri qaytarılmır.

Ünvan: AZ 1073, Bakı şəhəri, Hüseyn Cavid prospekti, 115
"Elm və həyat" jurnalının redaksiyası
Tel: (+ 994 12) 538-71-33; 050-353-05-21
E-mail: elm.heyat.jurnal@gmail.com

Çapa imzalanmışdır: 29 sentyabr 2026-cı il
Tiraj: 300

*Jurnal **"Elm"** nəşriyyatında çap olunmuşdur.*